Xalqın qəzeti!

# Xalq qəzeti

№ 74 (31043) 30 aprel 2026-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan – Ermənistan yüksək səviyyəli danışıqları sülh prosesini sürətləndirir

Ötən ilin avqustundan, hər iki ölkəni ABŞ Prezidenti Tramp Ağ Evə dəvət edəndən, Birgə Bəyanat imzalanandan və xarici işlər nazirləri sülh sazişinin mətnini parafladıqdan sonra bizdə de-fakto sülh var. Həmin vaxtdan etibarən sülh prosesində xeyli müsbət dinamika yaşandı.

Azərbaycandan Ermənistana yanacaq məhsulları göndərildi, vətəndaş cəmiyyəti və media nümayəndələri arasında görüşlər keçirildi. Bütün bunlar uzun illər müharibə şəraitində olan ölkələr arasında normal mühitin yaradılmasına töhfə verir. Bu nümunə müharibədə olan ölkələr üçün də vacib ola bilər.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*



## Qəbələ: "yumşaq güc"dən diplomatik cazibəyə



Səhifə ⇨ 3

## Azərbaycan Çexiyanın Asiya siyasətində önə çıxıb



Səhifə ⇨ 3

## Avropa İttifaqı Gürcüstanı küncə sıxışdırır



**Gərginliyin mərkəzində Aİ-nin Tbilisidəki səfiri Pavel Qerçinskinin bəyanatları, onun Gürcüstan Xarici İşlər Nazirliyinə (XİN) çağırılması və rəsmi Tbilisinin kəskin reaksiyası dayanır. Hadisələr diplomatik protokol çərçivəsindən çıxaraq, siyasi ritorikanın sərtləşməsinə və Qərblə münasibətlər kontekstində mübahisələrin dərinləşməsinə səbəb olub.**

*(ardı 3-cü səhifədə)*

## Düşmənçilik səhifəsini bağlamaq



Səhifə ⇨ 4

## Yaxın Şərqin qara buludları haralara sürünür?



Səhifə ⇨ 5

## Xankəndinin rahatlıq marşrutu



Səhifə ⇨ 10

## Trampın təhdidləri, NATO-da qeyri-müəyyənlik




Səhifə ⇨ 11

## Karapetyan Ermənistanı qarşıdurmaya sürükləyir



Səhifə ⇨ 4

## Siyasət və süni intellekt



Səhifə ⇨ 6

## Hərbi gərginlik, siyasi təzyiq və regional balans



Səhifə ⇨ 11

## Mərkəzi Asiya və Qafqazdan Avropaya enerji körpüsü



Səhifə ⇨ 7

## Hörmüz böhranı Avrasiyanı enerji sınağına çəkib



Səhifə ⇨ 5

# "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ) arasında BTİ Regional Akselerasiya Mərkəzinin yaradılması ilə bağlı Əməkdaşlıq Sazişi"nin təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2025-ci il oktyabrın 30-da Cenevrə şəhərində və noyabrın 14-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ) arasında BTİ Regional Akselerasiya Mərkəzinin yaradılması ilə bağlı Əməkdaşlıq Sazişi" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Beynəlxalq Telekommunikasiya İttifaqına bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 aprel 2026-cı il**

# "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 yanvar tarixli 2007 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 yanvar tarixli 2007 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 95 (Cild I) 1.7-ci bəndinə "Müdafiəsi Nazirliyi" sözlərindən sonra ", Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 aprel 2026-cı il**

# Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının Katibliyinin məlumatı



**Aprelin 29-da Ermənistan Respublikasında, Ağverəndə Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın on üçüncü iclası keçirilib.**

Məmnunluqla qeyd olunub ki, komissiyaların 13-cü iclası növbəti dəfə tərəflərdən birinin ərazisində - Ermənistan Respublikasında, Ağverəndə baş tutub.

Görüş zamanı tərəflər delimitasiya tədbirlərinin həyata keçirilməsi ilə bağlı təşkilati və texniki məsələlər üzrə ətraflı fikir mübadiləsi aparıblar.

**Tərəflər delimitasiya işlərinin həyata keçirilməsi qaydasına dair aşağıdakı təlimat layihələrinin mətnlərini razılaşdırıb və mübadilə ediblər:**

• *"Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası zamanı delimitasiya üzrə ekspert qruplarının iş qaydası haqqında Təlimat";*

• *"Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiya xəritəsinin hazırlanması haqqında Təlimat";*

• *"Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiya sənədlərinin tərtibatı və nəşri qaydası haqqında Təlimat".*

Tərəflər bu təlimatların müvafiq qaydada təsdiq edilməsi üçün öz hökumətlərinə müraciət etmək barədə razılığa gəliblər.

Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryan qarşılıqlı maraq doğuran məsələlər üzrə ayrıca fikir mübadiləsi aparıblar.

Qeyd olunub ki, Azərbaycan Respublikasının ərazisi ilə Ermənistan Respublikasına yüklərin tranziti uğurla həyata keçirilir və hazırda da davam edir.

Məmnunluqla vurğulanıb ki, Azərbaycanın Ermənistana neft məhsulları tədarük etməsi iki ölkə arasında iqtisadi-ticari əlaqələrin formalaşmasının göstəricisidir.

Həmçinin tərəflərin işgüzar dairələrinin nümayəndələrinin iştirakı ilə iqtisadi-ticari əməkdaşlığın inkişafı, malların və xidmətlərin qarşılıqlı tədarükü, həmçinin tranzit daşımaları məsələləri müzakirə olunub.

Xüsusi olaraq qeyd edilib ki, əldə olunan nəticələr Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın siyasi iradəsi sayəsində mümkün olub.

Komissiyaların görüşünün yekunlarına dair müvafiq Protokol imzalanıb.

Tərəflər komissiyaların Azərbaycan Respublikasında növbəti iclasının tarixinin işçi qaydada müəyyən edilməsi barədə razılığa gəliblər.

# İƏT Turizm Nazirlərinin Şuşa görüşü




**Aprelin 29-da Şuşa şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının Turizm Nazirlərinin 7-ci görüşü keçirilib.**

"Şuşa – İƏT-in Turizm Paytaxtı 2026" çərçivəsində təşkil olunan görüşdə üzv dövlətlərin turizm nazirləri və nümayəndə heyətləri iştirak ediblər.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev çıxışında İƏT tədbirlərinin Şuşada keçirilməsinin xüsusi simvolik əhəmiyyət daşıdığını və şəhərin zəngin mədəni-tarixi irsi ilə Azərbaycanın aparıcı turizm istiqamətlərindən biri kimi seçildiyini qeyd edib.

Fuad Nağıyev vurğulayıb ki, Azərbaycana səfər edən turistlərin mühüm hissəsi İƏT ölkələrinin payına düşür və bu maraq ölkələr arasında mövcud olan ortaq tarixi, mədəni və etnik bağlardan qaynaqlanır.

İƏT Baş katibi Əsəd Məcid Xan çıxışında qeyd edib ki, regional turizmin inkişafı üçün dayanıqlı yanaşmaların tətbiqi, turizm təhsili üzrə əməkdaşlığın genişləndirilməsi, özəl sektorun prosesə daha fəal cəlb olunması və birgə təşəbbüslərin həyata keçirilməsi vacibdir. O, bu istiqamətdə atılan addımların üzv dövlətlər arasında əlaqələrin möhkəmlənməsinə, turizm potensialının daha səmərəli reallaşdırılmasına və sektorun dayanıqlı inkişafına xidmət edəcəyini bildirib.

Tədbir zamanı aparılan müzakirələrdə turizmin şaxələndirilməsi, ekoturizmin təşviqi, regional marşrutların inkişafı və üzv ölkələr arasında birgə təşəbbüslərin irəli sürülməsi məsələlərinə toxunulub.

Görüş çərçivəsində Turizm üzrə Yüksək Səviyyəli Ekspertlər Qrupunun 9-cu iclasının nəticələri təqdim olunaraq təsdiqlənib. Bununla yanaşı, ekoturizm üzrə qabaqcıl təcrübələri əks etdirən toplu və turizmin şaxələndirilməsinə dair siyasət sənədi təqdim edilib.

Tədbirin əsas nəticələrindən biri olaraq üzv dövlətlər arasında turizm sahəsində əməkdaşlığın gələcək prioritetlərini müəyyən edən Şuşa Bəyannaməsi qəbul olunub.

Görüşdə Qazaxıstanın Aktau şəhəri 2030-cu il üçün İƏT-in Turizm Paytaxtı seçilib.

# Xarici İşlər Nazirliyində görüşlər



**Aprelin 29-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Uruqvay Şərq Respublikasının xarici işlər nazirinin müavini Valeriya Çukasini qəbul edib.**

Görüş zamanı Azərbaycan ilə Uruqvay arasında ikitərəfli münasibətlərin mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Tərəflər siyasi dialoqun dərinləşdirilməsi, qarşılıqlı səfərlərin intensivləşdirilməsi və institusional əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyini vurğulayıblar.

Diplomatik akademiyalar arasında əməkdaşlıq haqqında razılaşma məmnunluqla qeyd olunaraq, kadr hazırlığı, təcrübə mübadiləsi və birgə təlim proqramlarının həyata keçirilməsi imkanları nəzərdən keçirilib. Bununla yanaşı, vətəndaşların qarşılıqlı səfərlərinin asanlaşdırılması məqsədilə viza rejiminin liberallaşdırılması istiqamətində mümkün addımlar müzakirə olunub.

Tərəflər ötən il Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin birinci müavininin rəhbərlik etdiyi nümayəndə heyətinin Uruqvaya səfərinin ticarətin və iqtisadi əlaqələrin inkişafına müsbət töhfə baxımından vacibliyini vurğulayaraq, bu kimi təmasların davamlılığının əhəmiyyətini qeyd ediblər.

Eyni gündə Azərbaycan və Uruqvay arasında siyasi məsləhətləşmələrin növbəti iclası keçirilib. Məsləhətləşmələrə Azərbaycan tərəfdən nazir müavini Elnur Məmmədov, Uruqvay tərəfindən isə xarici işlər nazirinin müavini Valeriya Çukasi rəhbərlik edib.

*

**Həmin gün Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Kolumbiyanın xarici işlər nazirinin müavini Xuana Kastro Santamarianın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Görüş zamanı Azərbaycan ilə Kolumbiya arasında ikitərəfli münasibətlərin cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Tərəflər siyasi dialoqun genişləndirilməsi, iqtisadi-ticarət əlaqələrinin təşviqi, habelə bir sıra qarşılıqlı maraq doğuran sahələrdə, o cümlədən turizm, viza liberallaşdırılması, təhsil, mədəniyyət, humanitar, tələbə mübadiləsi, Parlamentlərarası əlaqələr və bir sıra digər əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparıblar. Ölkəmizdə ispan dilinə artan maraq, bu sahədə təşkil olunan proqramlarda vətəndaşlarımızın iştirakı məmnunluqla qeyd olunub.



Azərbaycanın COP29-a ev sahibliyi, bir sıra beynəlxalq platformalarda sədrliyi, regionda liderliyi təqdir olunub. Hər iki ölkənin minalardan əziyyət çəkdiyi diqqətə alınaraq, minasızlaşdırma sahəsində əməkdaşlığın vacibliyi vurğulanıb.

Eyni gündə Azərbaycan və Kolumbiya arasında siyasi məsləhətləşmələrin növbəti iclası keçirilib. Məsləhətləşmələrə Azərbaycan tərəfdən nazir müavini Elnur Məmmədov, Kolumbiya tərəfdən isə xarici işlər nazirinin müavini Xuana Kastro Santamaria rəhbərlik edib.

***XQ***

# Danimarka şirkəti ilə "Yaşıl enerji dəhlizi" müzakirəsi




**İqtisadiyyat naziri Mikayıl Cabbarov Danimarkanın "Vestas Wind Systems A/S" şirkətinin marketinq, kommunikasiyalar, dayanıqlılıq və ictimai əlaqələr üzrə qrupun baş vitse-prezidenti Morten Dirholm ilə videokonfrans formatında görüş keçirib.**

Dialoq zamanı Azərbaycanın bərpaolunan enerji sektorunun inkişafı, yaşıl enerji ixracı üzrə regional mərkəzə çevrilməsi və bu istiqamətdə beynəlxalq tərəfdaşlarla əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub. Qeyd edilib ki, ölkəmizdə zəngin alternativ enerji potensialı mövcuddur və bu resurslardan səmərəli istifadə dövlət siyasətinin prioritet istiqamətlərindəndir.

Tərəflər birgə layihələrin həyata keçirilməsi, "Yaşıl Enerji Dəhlizi" layihəsi çərçivəsində külək enerjisinin ixracı, eləcə də şirkət tərəfindən külək turbinlərinin istehsalının lokallaşdırılması perspektivlərini nəzərdən keçiriblər.

***XQ***

# Ümumdünya Kilsələr Şurasının ermənipərəst mövqeyinə etiraz

**Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə Ümumdünya Kilsələr Şurasının (ÜKŞ) Baş katibi Jerry Pillaya ÜKŞ-nin 23 aprel tarixli bəyanatına etiraz və cavab məktubu ünvanlayıb.**



Məktubda bildirilir ki, Ümumdünya Kilsələr Şurasının 23 aprel tarixli bəyanatında ölkəmizə münasibətdə regionda baş vermiş son hadisələr ciddi şəkildə təhrif olunur və belə yanaşma sərgilənməsi qəbuledilməzdir: "Təmaslarımız zamanı etiraf etmişdiniz ki, erməni kilsələri mütəmadi olaraq sizə təsir etməyə cəhd göstərir. Təəssüf ki, görünür, bu cəhdlər öz "bəhrəsini" verməkdədir və şura həqiqətə uyğun olmayan və sülh prosesini pozan qızışdırıcı təbliğatın aparılmasında və məsələyə süni şəkildə dini çalarlar gətirmək cəhdlərində alət kimi istifadə olunmaqdadır".

Cavabda daha sonra qeyd edilir ki, Azərbaycanın tarixi torpaqlarını erməni ərazisi kimi təqdim etmək beynəlxalq hüququn pozulması və tarixi reallıqlara məhəl qoymamaqdır: "Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının Baş naziri 2022-ci ilin oktyabrında Praqa görüşü nəticəsində verilmiş bəyanatda hər iki tərəfin bir-birinin ərazi bütövlüyünü və suverenliyini bildirmişdir. Ötən ilin avqust ayında Vaşinqton Sammiti zamanı Azərbaycanla Ermənistan arasında paraflanmış sülh sazişində birmənalı olaraq hər iki ölkənin ərazi bütövlüyü və suverenliyinə hörmət ifadə olunur".

Məktub bu sözlərlə bitir: "Ümid etmək istəyirəm ki, ÜKŞ keçmişdən qalan siyasi təxribatlara uymayaraq, erməni kilsəsinin ixtilafları qızışdırmaq cəhdlərinə ədalətli yanaşma nümayiş etdirəcək, bölgəmizdə davamlı sülhün bərqərar olmasına maneə olan cəhdlərə yol verməyəcəkdir".

***XQ***

# Azərbaycan Çexiyanın Asiya siyasətində önə çıxıb

## *Şərqi Avropa ölkələri rəsmi Bakı ilə strateji tərəfdaşlığa üstünlük verirlər*

**Aprelin 27-də Qəbələdə Azərbaycan Prezidenti İlham Əliyev və Çexiya Respublikasının Baş naziri Andrey Babiş arasında aparılan strateji danışıqlar Avrasiya qitəsinin təhlükəsizlik platformasında yaranan dəyişikliklərin bariz göstəricisidir. Danışıqların yekunlarına dair mətbuat üçün verilən bəyanatlar qlobal və regional güc mərkəzləri arasında formalaşan yeni siyasi reallıqların təməl prinsiplərini əks etdirir.**




Prezident İlham Əliyevin müdafiə sənayesi sektorunda əlaqələrin dərinləşməsi və müştərək istehsal mexanizmlərinin yaradılması barədə səsləndirdiyi strateji hədəflər rəsmi Bakının tam suveren, hərbi-siyasi asılılıqdan kənar doktrinasının növbəti mərhələsidir. Eyni zamanda, Çexiya hökumət başçısının Azərbaycanın qlobal diqqət mərkəzinə çevrilməsi barədə səsləndirdiyi xüsusi vurğular beynəlxalq münasibətlər sistemində mövcud paradiqmanın köklü şəkildə dəyişdiyini sübuta yetirir.

Hərbi-sənaye sahəsində əməkdaşlıq müasir beynəlxalq siyasətdə adi tədarük prosesi sayılmır. Silah sistemlərinin və hərbi texnologiyaların ötürülməsi, xüsusilə də həmin məhsulların yerli müəssisələrdə istehsalına dair razılaşmalar dövlətlərarası siyasi etimadın yüksək səviyyəsindən xəbər verir. Dövlətimizin başçısının qeyd etdiyi detallara diqqət yetirsək, Çexiyadan alınan hərbi təyinatlı məhsulların ardınca dərhal istehsalat sahəsində layihələrin icrasına başlanması planlaşdırılır. Qeyd edilən yanaşma Azərbaycanın daxili istehsal imkanlarını intensiv inkişaf etdirərək xarici siyasi təzyiqlərə, beynəlxalq embarqolara və qlobal logistik zəncirlərdəki qırılmalara qarşı mütləq immunitet yaratmaq strategiyasına xidmət edir. Şərqi Avropanın güclü hərbi-sənaye komplekslərindən sayılan Çexiyanın mövcud müstəvidə Azərbaycanla mütləq razılaşmalara getməsi Praqanın rəsmi Bakını NATO kənarında ən güclü, dayanıqlı hərbi-siyasi müttəfiq kimi qəbul etməsindən xəbər verir. Texnoloji sirlərin mübadiləsi ancaq dərin siyasi ittifaq çərçivəsində baş verir. Həmin amil sübut edir ki, Avropa İttifaqı daxilindəki ayrı-ayrı güc mərkəzləri, xüsusən praqmatik siyasət yürüdən Andrey Babiş administrasiyası Cənubi Qafqazda güc balansını təmin edən yeganə dövlətin məhz Azərbaycan olduğunu şərtsiz qəbul edir.

Azərbaycan rəhbərliyinin xüsusi olaraq hərbi potensialın daxili imkanlar hesabına gücləndirilməsi barədə səsləndirdiyi fikirlər milli təhlükəsizlik strategiyasının ana xəttini müəyyənləşdirir. Qlobal miqyasda hərbi münaqişələrin, regional toqquşmaların sayının durmadan artdığı zamanda xarici tədarükçülərdən asılı qalmaq istənilən dövlət üçün mühüm siyasi risklər ehtiva edir. Azərbaycan sadalanan riskləri vaxtında neytrallaşdırmaq məqsədilə strateji tərəfdaşlarla müştərək istehsalat sənayesini təşkil edir. Qəbələdə aparılan müzakirələrdəki hərbi sənaye tezisi qlobal qüvvələrə aydın ismarışdır. Azərbaycan yeni hərbi texnologiyalar yaradan, ixrac edən, qlobal silah dövriyyəsində siyasi rıçaqlara sahib olan dominant ölkəyə çevrilir. Çexiyanın sözügedən prosesdə əsas tərəfdaş kimi çıxış etməsi rəsmi Praqanın beynəlxalq diplomatik arenada Azərbaycanla eyni geosiyasi maraqları bölüşməsini təmin edir. Yaranan vəziyyət qlobal siyasətdəki mütləq muxtariyyət konsepsiyasının tam olaraq Cənubi Qafqazda reallaşması deməkdir.

***

Çexiya Baş nazirinin mətbuat üçün bəyanatında qlobal kəsişmə xətlərini ehtiva edən ifadələri xüsusi məna kəsb edir. Andrey Babiş Ukrayna Prezidenti Volodimir Zelenskinin və İtaliya Nazirlər Şurasının sədri Corcia Meloninin Azərbaycana səfərlərini məhz strateji əhəmiyyətin indikatoru qismində xatırlatması qətiyyən təsadüf sayıla bilməz. 2026-cı ilin qlobal nizamında Şərqi Avropadakı aktiv hərbi əməliyyatlar və qitənin cənub cinahındakı təhlükəsizlik böhranları fonunda həmin dövlətlərin liderlərinin rəsmi Bakı ilə intensiv diplomatik təmasları çox fərqli siyasətin mövcudluğunu diktə edir. Ukrayna dövlət rəhbərinin təmasları göstərir ki, rəsmi Kiyev regionun ən vacib sülh, sabitlik, təhlükəsizlik tərəfdaşı olaraq məhz Azərbaycanı görür. Tərəflər arasında qurulan təmaslar qlobal təhlükəsizliyin əhəmiyyətli nöqtələrini mühafizə edir. Eyni zamanda, Avropa qitəsindəki hərbi toqquşmaların yaratdığı böyük geosiyasi təlatümlər zamanı neytral qalan, amma paralel şəkildə beynəlxalq hüququn prinsiplərini qoruyan Bakının fəaliyyəti Şərqi Avropa ölkələri tərəfindən yüksək qiymətləndirilir. Çexiya hökumət başçısının səsləndirdiyi mülahizələr göstərir ki, Avropa İttifaqı dövlətləri artıq rəsmi Bakıya qlobal qərarların qəbul edildiyi mərkəzlərdən ən əsası kimi yanaşırlar. Belə münasibət diplomatik asimmetriyanı tamamilə aradan qaldırır, dövlətlərarası əlaqələrdə bərabərhüquqlu və qarşılıqlı hörmətə əsaslanan nizam formalaşdırır.

Andrey Babiş administrasiyasının xarici siyasət strategiyası praqmatik maraqlar və milli suverenlik prinsiplərinə söykənir. Həmin amil rəsmi Praqanın beynəlxalq arenada həyata keçirdiyi müstəqil xətti izah edir. Müasir qlobal reallıqlarda Avropanın təhlükəsizlik sütunları ciddi sınaqlarla üzləşirkən, etibarlı ittifaqların müəyyənləşdirilməsi əlahiddə əhəmiyyət daşıyır. Azərbaycanla mövcud münasibətlərin tam olaraq dostluq, habelə strateji tərəfdaşlıq formatına gətirilməsi Çexiyanın qitə xaricində ən sağlam dayaq axtarışının məntiqi yekunudur. İki dövlət arasında formalaşan dərin siyasi bağlar gələcək illərdə diplomatik koalisiyaların qurulması üçün böyük zəmin yaradır. Babişin bəyanatındakı qətiyyətli ton beynəlxalq rəyə hesablanmış siyasi gedişdir. Digər dövlətlərin tərəddüd etdiyi situasiyalarda Çexiyanın prosesə qətiyyətli müdaxiləsi və rəsmi olaraq müdafiə sənayesi sektorunu ön plana çıxarması ikitərəfli inamın yüksək göstəricisidir.

***

Müdafiə potensialının daxili tələbat, habelə müştərək texnologiya hesabına gücləndirilməsi yalnız praktiki əhəmiyyət daşımır, eyni zamanda, konseptual, habelə intellektual yanaşmadır. Yüksək texnologiyalı silah sistemlərinin ölkə ərazisində istehsalı çox böyük mühəndis korpusunun, kadr potensialının, rəqəmsal transformasiyanın baş tutması deməkdir. Təbii olaraq, Çexiyanın qeyd olunan istiqamətlərdə inkişaf etmiş infrastrukturu, güclü ənənələri mövcuddur. İki tərəfin sadalanan imkanları mütləq şəkildə qovuşdurması intellektual hərbi inqilab yaradır. Sözügedən mühəndis transferi dövlətin sənaye arxitekturasını kökündən yeniləyir. Gələcək savaşların texnoloji xarakterini dərindən analiz edən liderlər indidən ən təkmil vasitələrə yiyələnirlər. Müasir strateji mənzərə açıq sübut edir ki, klassik müdafiə sənayesi anlayışı artıq informasiya sistemləri, xüsusi təyinatlı kəşfiyyat modulları formatına keçib. Qəbələ görüşündə səslənən istehsal xətləri bəyanatı məhz ən qabaqcıl texnologiyaların şərtsiz mənimsənilməsini təşkil edəcək.

Qəbələ şəhərindən beynəlxalq ictimaiyyətə ünvanlanan strateji mesaj özündə sarsılmaz əməkdaşlıq mülahizələrini ehtiva edir. Azərbaycanın liderliyi regionda mütləq suverenliyin, hərbi toxunulmazlığın, beynəlxalq etimadın ən yüksək standartını müəyyənləşdirib. Çexiya Baş nazirinin səsləndirdiyi məlum fikirlər rəsmi Bakının təsir dairəsinin Xəzər sahillərindən başlayaraq bütün Şərqi, Mərkəzi və Cənubi Avropanı tam əhatə etdiyini rəsmən xarakterizə edir. Ukrayna Prezidentinin və İtaliya hökumət rəhbərinin qeyd olunan tərəfdaşlıq zəncirindəki xüsusi rolu isə məsələnin coğrafi miqyasını əhəmiyyətli dərəcədə böyükdür. Məhz sadalanan amillərə görə tərəflərin razılaşdırdığı prinsiplər gələcək beynəlxalq xarici siyasət doktrinalarının bünövrəsini təşkil edəcək. Diplomatik cəbhədəki strateji addımlar Cənubi Qafqazın gələcək onilliklərdə toxunulmaz hərbi-siyasi qalxanla əhatə olunduğunu sübuta yetirir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Qəbələ: "yumşaq güc"dən diplomatik cazibəyə

## *Ölkəmizin beynəlxalq aləmə verdiyi növbəti mesaj*



**Yola salmaqda olduğumuz aprel ayı Qəbələdə yüksək səviyyəli rəsmi qəbulların və görüşlərin keçirilməsi ilə yadda qaldı. Bəri başdan deyək ki, belə mötəbər təmaslar üçün bu bölgənin seçilməsi təsadüfi deyil və məsələyə sonda diqqət yetirəcəyik. Hələlik isə Azərbaycanda Qəbələnin timsalında Bakıdan kənar diplomatik mərkəzin formalaşdığını söyləyə bilərik. Hər halda, buna dair fikir yürütmək mümkündür.**

Qəbələdəki qəbullar və görüşlər Azərbaycan dövlətinin sabitlik mesajıdır. Yəni sabit olan yalnız Bakı deyil. Amma bu mesajda, bütövlükdə, Cənubi Qafqaza köklənmə payı da var. Başqa sözlə desək, regionun yalnız paytaxt şəhəri deyil, ümumən, hər yeri əmin-amanlıq və rifah içindədir. Əlbəttə, yüksək səviyyəli tədbirlərin təşkili potensialı ayrıca vurğulanmalıdır. Nəzərə alaq ki, son illər Azərbaycanın bütün regionları inkişaf dinamikası ilə seçilsələr də, Qəbələnin mövcud ampluadakı öncüllüyü vurğulanmalıdır. Paytaxta ən yaxın beynəlxalq hava limanının məhz bu rayonda olması da həmçinin.

Bilavasitə paytaxtdan kənar diplomatik mərkəz statusuna ayrıca diqqət yetirək. Məsələ ondadır ki, Bakı dünyanın Azərbaycanla bağlı təsəvvüründə xüsusi yerə və rola malikdir. Hətta beynəlxalq aləmdə bəzən Azərbaycan adının Bakı ilə assosiasiya olunduğunu görürürük. Durumun bir sıra obyektiv səbəbləri var. Əlbəttə, ilk növbədə, neft amili vurğulanmalıdır. Yəni "qara qızıl"a sahiblik paytaxtımızı tanınıb. Neftin isə bəşəri əhəmiyyətindən söz açmağa ehtiyac yoxdur. Necə deyərlər, görünən dağa nə bələdçi...

Bəli, dünyadan Azərbaycana baxanda Bakı görünür. Ancaq regional gündəmi formalaşdıran əsas aktor kimi, ölkəmizin bütün bölgələrinin paytaxt qədər əhəmiyyəti var. Qəbələ gündəmi ilə dövlətimizin beynəlxalq aləmə verdiyi müstəsna mesaj məhz budur. Mesaj isə kifayət qədər zəngindir. Diqqət yetirək, aprelin 25-də Ukrayna Prezidenti Volodimir Zelenski, ayın 27-də Çexiya Respublikasının Baş naziri Andrey Babiş, 28-də isə Birləşmiş Ərəb Əmirliklərinin xarici işlər üzrə dövlət naziri Səid bin Mübarək Əl-Hacirinin rəhbərlik etdiyi nümayəndə heyəti Qəbələdə Prezident İlham Əliyev tərəfindən qəbul edildilər.

Dövlətimizin başçısı Ukrayna Prezidenti ilə Bakı-Kiyev münasibətləri və əməkdaşlıq məsələləri ətrafında müzakirə apardı. Prezident İlham Əliyevin Baş nazir Babişlə görüşündə ölkələrarası iqtisadi əməkdaşlıq və enerji məsələləri diskussiya predmetinə çevrildi ki, bu kimi məqamlar liderlərin mətbuata birgə bəyanatlarında da geniş əksini tapdı. BƏƏ-dən təşrif buyurmuş nümayəndə heyəti ilə təmasın mövzusu da bəllidir: ikitərəfli əməkdaşlıq, enerji, investisiya və regional məsələlər. Yeri gəlmişkən, gələn ayının ilk günlərində İtaliyanın Baş naziri Corcia Meloninin də Qəbələyə təşrif buyuracağı bildirilir. Bakı-Roma əməkdaşlığı da hazırda ən yüksək səviyyədədir. Yəni Azərbaycan və İtaliya liderlərinin müzakirə aparacağı çox mətləblər var.

Nəzərə alaq ki, Ukrayna ilə əməkdaşlıq Qara dəniz marşrutları və alternativ enerji təchizatını gündəmə gətirir. Çexiya kimi Avropa İttifaqı ölkələri üçün Azərbaycan qazı strateji əhəmiyyət daşıyır. BƏƏ isə investisiya və "yaşıl enerji" layihələri baxımından əsas tərəfdaşımızdır. Deməli, Qəbələ bütün bu məsələlərlə bağlı mühüm mesajların verildiyi məkan statusu qazanır.

Bir vacib məqamı da yada salaq. Aprelin 11-də Qəbələdə "Sülh körpüsü" təşəbbüsü çərçivəsində Azərbaycanın və Ermənistanın vətəndaş cəmiyyətləri nümayəndələrinin iştirakı ilə ikitərəfli dəyirmi masa da keçirildi. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin qatıldığı toplantıda iştirakçılarla fikir mübadiləsi aparıldı. Dövlətimizin rəsmisi erməni nümayəndə heyətinin suallarını cavablandırdı.

Ən başlıcası isə görüşdə rəsmi Bakının Vaşinqtonda Ermənistanla Azərbaycan arasında razılaşdırılmış sülh gündəliyinə və Vaşinqton Sammitinin ruhuna sadiqliyi bir daha vurğulandı, həmçinin iki ölkə arasında ticərət münasibətlərinin yaranması və Azərbaycan ərazisindən Ermənistana məhsulların tranzit keçidinin təmin olunduğu qeyd edildi, TRIPP-in həyata keçirilməsi və layihənin bölgədəki ab-havanı, bütün regionun nəqliyyat mənzərəsini dəyişəcəyi bildirildi.

Prezidentin köməkçisi dünyada baş verən yeni təlatümlərin və müharibələrin fonunda Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təminatının olduqca vacib olduğunu diqqətə çatdırdı, vətəndaş cəmiyyətləri arasındakı fikir mübadilələrinin və etimad quruculuğu tədbirlərinin əhəmiyyətini önə çəkdi.

Sonda əvvəldə anonsunu verdiyimiz məqama keçid alaq və yenidən belə bir sual verək: Nə üçün Qəbələ? Əslində, cavabı diqqətə çatdırdıq. Əlavə edək ki, Qəbələnin indiyədək keçdiyi yol var. Şəhərdə 2009-cu ildən etibarən Beynəlxalq Musiqi Festivalı kimi mühüm mədəniyyət hadisəsinin təşkili ənənə halını alıb. Festivallarda ABŞ, Fransa, İsrail, İtaliya, Rusiya və digər ölkələrdən məşhur musiqiçilər və orkestr kollektivləri iştirak edirlər və bu, Qəbələni beynəlxalq mədəni dialoq platformasına çevirən əsas tədbir sayılır.

Bu füsunkar bölgəmizdə "Qış nağılı" Beynəlxalq Musiqi Festivalının təşkili üzərində də dayanmaq mümkündür. Festival, adından da göründüyü kimi, qış mövsümündə keçirilir və klassik musiqi tədbirlərinin davamı kimi xarakterizə olunmaqla, beynəlxalq və yerli musiqiçiləri bir araya gətirir. Qəbələdə, həmçinin qastronomiyayönümlü Beynəlxalq Mürəbbə Festivalı da keçirilir ki, burada müxtəlif ölkələrdən olan iştirakçılar milli şirniyyat növlərini təqdim edirlər.

Ümumi mənzərə onu deməyə əsas verir ki, Qəbələdə təşkil olunan sadaladığımız tədbirlər şəhəri beynəlxalq mədəniyyət mərkəzinə çevirib. Mövcud trayektoriyadakı müstəsna nüans şəhərin "yumşaq güc" (soft power) alətlərindən istifadə məkanı olaraq özünü təsdiqləməsidir. Musiqi festivalları və beynəlxalq tədbirlərlə tanınan Qəbələnin Azərbaycanın "yumşaq güc" siyasətində ön plana çıxması bu gücün ölkəmiz üçün diplomatiya meydanı baxımından da prioritet əhəmiyyətini vurğulayır. Nəticə etibarilə isə ölkəmizin sülh və dialoq platforması imici güclənir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Avropa İttifaqı Gürcüstanı küncə sıxışdırır

*(əvvəli 1-ci səhifədə)*





XİN-də baş tutan və təxminən bir saat davam edən görüşdən sonra səfir Qerçinskinin mətbuata açıqlama verməməsi böhranın ciddiliyini bir daha nümayiş etdirib. Diplomatik gərginliyə səfirin Brüsseldə keçirilən "Gürcüstan fokusda" adlı sərgi zamanı səsləndirdiyi fikirlər rəvac verib. Qerçinski Gürcüstanın hazırda "yanlış trayektoriya üzrə hərəkət etdiyini" bildirərək, ölkəni dərhal Avropa kursuna qayıtmağa çağırmışdı.

Gürcüstan XİN rəhbərliyi bu çıxışı tərəfdaşlıq etimadını sarsıdan və ikitərəfli əlaqələrə zərər vuran addım kimi qiymətləndirib. Diplomatik etikada bu cür bəyanatlara verilən sərt reaksiyalar tərəflər arasındakı uçurumun dərinliyindən xəbər verir.

Əslində, Qerçinskinin çıxışı Aİ-nin Gürcüstana yönəlik strateji mesajının birbaşa ifadəsi idi. O, Gürcüstanın tarixi "yol ayrıcında" olduğunu və yaxın aylarda qəbul ediləcək qərarların ölkənin taleyini müəyyənləşdirəcəyini vurğulamışdı. Səfirin fikrincə, ölkə ya demokratiya, hüququn aliliyi və insan haqları üzərində qurulmuş Avropa ailəsinin bir hissəsi olacaq, ya da "qaranlıq keçmişə" geri dönəcək. Pavel Qerçinski daha da irəli gedərək, bu "qaranlıq keçmiş" ifadəsinin mahiyyətini zorakılıq, vətəndaş müharibəsi, yoxsulluq və korrupsiya kimi konkret amillərlə izah etmişdi.

Bu sözlər Gürcüstan hakimiyyəti tərəfindən siyasi tənqid kimi deyil, həm də dolayı təhdid kimi qəbul edildi. Baş nazir İrakli Kobaxidze bu bəyanatları "gürcü xalqına yönəlmiş ultimativ mesaj" kimi səciyyələndirərək, səfiri ölkəni vətəndaş müharibəsi və sosial böhranla qorxutmaqda ittiham etdi.

Lakin bu cür ritorika yalnız konkret bir çıxışın nəticəsi deyil, uzun müddətdir yığılan narazılığın ifadəsidir. Aİ nümayəndələri artıq bir neçə ildir ki, Gürcüstanda müşahidə olunan demokratik geriləmə, müxalifətə təzyiq və institusional zəifləmə ilə bağlı narahatlıqlarını açıq şəkildə ifadə edirlər. Məsələn, Avropa Komissiyasının hesabatlarında qeyd olunur ki, ölkə Aİ-yə namizəd statusu alsa da, real irəliləyiş əvəzinə, bir çox sahələrdə geriləmə müşahidə edilir. Rəsmi Tbilisi isə bu tənqidləri qəbul etmir, əksinə, Qərb diplomatlarını ölkənin daxili işlərinə müdaxilədə suçlayır. Hakim "Gürcü arzusu" partiyası və parlament çoxluğunun nümayəndələri Avropa bürokratiyasını "diplomatik çərçivələri aşmaqda", müxalifəti dəstəkləməkdə və ölkədəki siyasi proseslərə dolayısı ilə təsir göstərməkdə günahlandırırlar. Bu ritorika getdikcə daha sərt və ideoloji xarakter alır. Artıq "dərin dövlət", "qlobal müharibə partiyası" kimi anlayışlar Gürcüstanın siyasi diskursunun ayrılmaz hissəsinə çevrilib.

Bunun fonunda Aİ öz mövqeyini iki əsas istiqamət üzrə qurmağa çalışır. Bir tərəfdən, Brüssel açıq şəkildə bildirir ki, Gürcüstanın seçdiyi hazırkı siyasi kurs onu Aİ üzvlüyündən uzaqlaşdırır. Digər tərəfdən isə "qapıların açıq qaldığı" və ölkənin hələ də bu "tarixi fürsəti" əldən vermədiyi vurğulanır. Bu, faktiki olaraq, klassik "təzyiq və təşviq" strategiyasıdır: eyni zamanda həm sərt tənqid, həm də inteqrasiya perspektivinin qüvvədə saxlanılması.

Mövcud gərginliyi yalnız Gürcüstan–Aİ münasibətləri çərçivəsində qiymətləndirmək kifayət deyil. Hadisələr daha geniş geosiyasi fon üzərində baş verir. Rusiya–Ukrayna müharibəsi regionda bütün balansları dəyişib və Avropa İttifaqı üçün Cənubi Qafqazın strateji əhəmiyyəti artıb. Gürcüstan bu kontekstdə həm tranzit ölkə, həm də potensial siyasi tərəfdaş kimi xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda, Moskvanın sanksiyalardan yayınmaq üçün Gürcüstan üzərindən iqtisadi kanallar yaratdığına dair iddialar Brüsselin narahatlığını artırır.

Digər qlobal kontekst isə Yaxın Şərqdə artan gərginlik, İran, ABŞ/İsrail arasında qarşıdurma riskinin yüksəlməsidir. Bu qarşıdurma enerji marşrutları, təhlükəsizlik arxitekturası və geosiyasi bloklaşmanı daha da kəskinləşdirir. Belə bir şəraitdə Gürcüstan kimi ölkələr üçün xarici siyasət seçimi daha mürəkkəb və riskli olur. Qərbə inteqrasiya ilə regional sabitlik və təhlükəsizlik balansı arasında incə xətt yaranır.

Məhz bu səbəbdən Tbilisi daha çox "suveren qərarvermə" ritorikasını önə çəkir. Hakimiyyət Avropa inteqrasiyasından formal olaraq imtina etməsə də, bunu daxili siyasi sabitlik və milli maraqlarla ziddiyyət təşkil etməyən formada həyata keçirmək istədiyini bildirir. Aİ isə bunun əksinə olaraq, konkret islahatlar və siyasi uyğunlaşma tələb edir.

Ortaya çıxan mənzərə olduqca ziddiyyətlidir. Bir tərəfdə Gürcüstan hakimiyyəti Qərbi təzyiq və müdaxilədə ittiham edir, digər tərəfdə Aİ Gürcüstanı demokratik geriləmədə günahlandırır. Hər iki tərəf öz arqumentlərini legitim sayır və geri addım atmağa hazır görünmür. Bununla bağlı hakim partiyanın parlament çoxluğunun lideri İrakli Kirtsxaliyanın açıqlaması kəskinliyi ilə seçilir: "Son illərdə onlar həyasızcasına ölkəmizin daxili siyasi işlərinə müdaxilə edir, diplomatiya və mənəviyyatın bütün çərçivələrindən kənara çıxır, çəkinmədən dəstəklədikləri qondarma müxalifətin tərəfində çıxış edirlər". Kirtsxaliya bildirib ki, azlıqların hüquqları, kilsənin rolu və ailə dəyərləri kimi məsələlərin Avropa yolunun məcburi elementləri kimi təqdim edilməsi cəmiyyətdə dəstək tapmır. Onun fikrincə, ölkəsi sülhü qoruyub saxlayıb və müharibəyə cəlb olunmayıb. Bu da onun düşüncəsinə görə müəyyən qüvvələrin narazılığına səbəb olur. "Seçilməmiş bürokratiya bizim üçün nə Avropadır, nə də Avropa dəyərləridir. Bizim üçün Qərb və Qərb dəyərləri bir vaxtlar Avropanın əsaslandığı prinsiplərdir. Onlar bu gün haradadır və hansı çağırışlarla üz-üzədir? Bunu həm biz, həm bütün dünya, həm də Aİ daxilindəki cəmiyyət yaxşı görür", – deyə o qeyd edib.

**Gürcüstan parlamentinin sabiq deputatı İsak Novruzovun** qənaətinə görə, Gürcüstan hazırda mürəkkəb seçim qarşısındadır: "Bir tərəfdə Avropaya inteqrasiyası hədəfi, digər tərəfdə isə suverenlik və daxili siyasi sabitlik arqumentləri dayanır. Bu balansın necə qurulacağı yalnız Tbilisinin deyil, həm də Brüsselin gələcək addımlarından asılı olacaq. Mövcud dinamika onu göstərir ki, münasibətlərin əvvəlki səviyyəyə qayıtması üçün hər iki tərəfdən ciddi siyasi iradə tələb olunur".

İ.Novruzov əmindir ki, Aİ üzvlüyü özlüyündə bir məqsədə çevrilərək ərazi suverenliyindən və müstəqil siyasət yürütmək hüququndan imtina etməyi tələb edirsə, bu, Gürcüstan üçün qəbuledilməzdir: "Gürcüstan ərazi bütövlüyünün güzəştə gedilməsi və dövlətçiliyin sarsılması bahasına Aİ-yə üzvlük yolunu seçməyəcək".

Beləliklə, Gürcüstan–Aİ münasibətləri hazırda təkcə ikitərəfli diplomatik böhran deyil, həm də daha geniş geosiyasi qarşıdurmaların lokal təzahürüdür. Rusiya–Ukrayna müharibəsi, Qərb–Rusiya qarşıdurması və Yaxın Şərqdəki gərginlik fonunda Gürcüstanın seçimi qlobal məna kəsb edir. Yaxın aylar bu baxımdan həlledici olacaq. Səfir Qerçinskinin dediyi kimi, qərarlar "yaxın həftələr və aylarda" veriləcək. Lakin bu qərarlar yalnız Gürcüstanın Avropa gələcəyini deyil, həm də regiondakı güc balansını müəyyən edə bilər.

***P.ƏFƏNDİYEV***
***XQ***

# Düşmənçilik səhifəsini bağlamaq

## *Erməni iqtidarının yeni seçki narrativi və...*



**Ermənistanın Baş naziri Nikol Paşinyan bildirib ki, yeni müharibənin qarşısını almaq naminə ölkəsi hərbi cinayətlər ətrafında Azərbaycanla sonsuz qarşılıqlı ittiham mübadiləsindən imtina etməlidir. Baş nazir onu da deyib ki, təmsil olunduğu komanda iyunun 7-nə planlaşdırılan parlament seçkiləri ərəfəsində yeni siyasi diskurs formalaşdırmaq niyyətindədir. Məqsəd dövləti illərdir davam edən düşmənçilik dövründən çıxarmaqdır. Bəri başdan deyək ki, son zamanlar söylədiyi bir çox fikirlər kimi, Paşinyanın bu fikri də məqbul qiymətləndirilə bilər.**

Baş nazir mövqeyini jurnalistlərin ona ünvanladıqları və Ermənistanın suveren ərazilərində törədilmiş cinayətlərə görə Azərbaycan hərbçilərinin məsuliyyətə cəlb olunmalarına dair sualı cavablandırarkən açıqlayıb. Onun sözlərinə görə, hərbi əsirlərin güllələnməsi və işgəncə faktları danılmaz olsa da, qarşılıqlı ittihamlara fokuslanmaq vəziyyəti çıxılmaz edir, ümumən, bu müzakirənin davamı növbəti silahlı toqquşmanı qaçılmaza çevirir.

Qeyd edək ki, Azərbaycanın Ermənistanın suveren ərazilərinə qəsbi ritorikası 2022-ci ilin sentyabrında meydana çıxdı. Çünki həmin vaxt şərti sərhəddə eskalasiya mühiti formalaşmışdı. Ermənistan silahlı qüvvələri təxribat törətmiş, Azərbaycan Ordusu belə halların qarşısını almaq üçün atəş nöqtələrini susdurmaq məqsədli hərəkətə keçmişdi. Yəni Ordumuzun addımı təhlükəsizliyi təmin etmək məramı daşımışdı. Başqa düşüncəyə yer yoxdur. Fikrimizi əsaslandırmaq üçün bir məqama diqqət yetirək.

Məsələn, bu gün biz Qubadlıdan Laçına doğru hərəkət edərkən, çox yaxınlıqda Ermənistan bayraqlarının dalğalandığını görürük. O bayraqlar ki, erməni silahlı qüvvələrinin, yaxud sərhəd qoşunlarının postlarının damlarından asılıb. O postlarda ki, əhəmiyyətli dərəcədə hündürdədirlər və oradan asanlıqla Azərbaycan tərəfdə hərəkət edən minik avtomobillərini və mülki şəxsləri atəşə tutmaq mümkündür. Amma belə hal yaşanmır, üstəlik ölkəmizə məxsus şirkətlər və onların işçiləri və texnikaları ərazidə yol infrastukturu inşa edirlər. Sual olunur: nəyə görə Azərbaycan Ordusu hərəkətə keçib həmin yüksəklikləri ələ keçirmir? Məgər Ordumuz bunu bacarmaz? Əlbəttə ki, bacarar. Sadəcə, həmin nöqtələr təhlükə törətmirlər.

Amma təkcə 2022-ci ildə deyil, ümumən, 2020-2024-cü illərdə bu baxımdan vəziyyət sabit deyildi. Üstəlik, 2023-cü ilədək Azərbaycan torpaqlarında qondarma “Dağlıq Qarabağ respublikası” adlı separatçı qurum fəaliyyət göstərib. O qurum ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiası məntiqinə köklənmişdi. Belə olan halda, hazırda hansısa hay tör-töküntüsünün “Azərbaycan Ordusunun hərbi cinayətlərindən” söz açması gülüncdür. Bu, həm də ona görə gülüncdür ki, 1988-ci ildən sonra Azərbaycan ərazilərində işğal gerçəkləşdirən, işğal gedişində çeşidli hərbi cinayətlər törədən Ermənistan olub. O cinayətlər ki, miqyası sırf hərbi qarşıdurma gedişində beş-altı erməninin canına qəsb edilməsindən daha böyükdür.

Paşinyan bildirdiklərimizin fərqindədir. Əlbəttə, anlayırıq ki, o, həqiqətləri çılpaqlığı ilə deyə bilməz. Məsələn, deyə bilməz ki, heç nə durduğu yerdə baş vermir və zamanında münaqişəni başlayan azərbaycanlılar yox, ermənilər olub. Əslində isə Paşinyan dolayısıyla reallığı vurğulayır və erməni cəmiyyətini münaqişənin tarixçəsinə daha geniş prizmadan diqqət yetirməyə çağırır. O, ölkəsindəki bəzi yanaşmalara nəzərən xalqa obrazlı şəkildə tövsiyə də ünvanlayır. Yəni təxminən belə bir tövsiyə: “Kitabın yalnız sərfəli hissəsini deyil, bütün səhifələrini oxumaq lazımdır”.

N.Paşinyan jurnalistlərin döyüşlər zamanı tərəflərin qəddarlığının, guya, müqayisəolunmazlığı barədə qeydinə cavab olaraq da fikrindən daşınmır. O bildirir ki, ittihamlar hər iki tərəfdən səslənir və gələcək nəsillərin rifahı naminə bu qapalı dövrəni qırmaq lazımdır. Ən başlıcası, Nikol vətəndaşları bəzi beynəlxalq aktorların vətənpərvər çıxışlarına həddindən artıq emosional reaksiya verməməyə çağırır. Görəsən, söhbət hansı beynəlxalq aktorlardan, onların hansı çıxışlarından gedir? Hesab edirik ki, bu məsələ ətrafında düşünməyə dəyər.

Bəli, beynəlxalq dairələr həmişə erməniləri azərbaycanlılara qarşı qızışdırmaq yolu tutublar. Yada salaq ki, haqqında söz açdığımız sərhəd eskalasiyası zamanı Fransa başda olmaqla, Avropanın bir sıra ölkələri “qorxmaz, mərd erməni xalqının mübarizəsi” kimi pafoslu fikirlər yayırdılar. Onlar 44 günlük müharibə zamanı da eyni tərzdə təbliğat aparırdılar. Həmin vaxt bir anlıq elə təəssürat yaranırdı ki, işğalçı Azərbaycan, işğala məruz qalan Ermənistandır...

Əlqərəz, tarix boyu imperialist güclərin haylar barədə hekayələr və miflər uydurduqlarının, onları döyüşkən xalq kimi təqdim etdiklərinin şahidi olmuşuq. Nəyə görə? Çünki ermənilərin qonşuları ilə nifaq şəraitində ömür sürmələri belələrinin Cənubi Qafqazdakı maraq və mənafeləri baxımından vacib idi. Eləcə də qondarma “erməni soyqırımı” həmin nifaq ritorikası naminə qisas və intiqam seqmenti formalaşdırmışdı.

Bu gün də oxşar vəziyyət müşahidə olunmaqdadır, eyni cəhdlər göstərilməkdədir. Amma hazırda Baş nazir N.Paşinyan və onun hakim komandasının şəxsində Ermənistan dövləti hay cəmiyyətini reallıqdan kənar ucuz populizmə uymamağa səsləyir. Bu, son dərəcə müsbət haldır. Paşinyanın onu da bildirir ki, münaqişənin başa çatdırılmasına yönəlmiş yeni narrativin formalaşdırılması seçkilərə qədərki təxminən bir yarım ay ərzində rəhbərlik etdiyi hakimiyyətin əsas strateji vəzifəsi olacaq.

Bir Azərbaycan atalar sözündə deyilir ki, avazın yaxşı gəlir, oxuduğun Quran olsa. Yekunda onu da bildirək ki, Paşinyan başda olmaqla, Ermənistanın hakimiyyət düşərgəsi təmsilçilərinin son aylarda səsləndirdikləri fikirlər bütövlükdə Cənubi Qafqazda sülh ritorikası baxımından müsbət əhəmiyyətə malikdir. Ümumən, Paşinyanın “Vətəndaş sazişi” partiyasını müstəqillik illəri Ermənistanında qonşularla barışa köklənmiş seçki strategiyasını əsas götürən ilk və yeganə siyasi qurum olaraq qiymətləndirmək mümkündür. Mühüm məqam sözügedən partiyanın iyunun 7-də keçiriləcək parlament seçkilərində qalib gəlməsi, ölkədəki revanşist və şovinistləri tarixin arxivinə göndərməsidir. Bunun üçün isə bütövlükdə hay cəmiyyətinin iradəsi və qətiyyətli davranması mütləqdir. Hesab edirik ki, erməni xalqı Paşinyan komandasını seçki qalibi etsə, Baş nazirə sərsəm suallar verən və revanşistlərin buyruq qulu olan jurnalistlərin sayı da azalacaq.

***Ə.RÜSTƏMOV***
***XQ***

**Bir həftədən sonra – mayın 8-dən etibarən Ermənistanda iyunun 7-nə təyin olunmuş parlament seçkilərinin rəsmi təbliğat-təşviqat mərhələsi başlayacaq. Proses iyunun 5-dək davam edəcək. Çünki səsvermədən bir gün əvvəl və səsvermə günü təşviqat qadağandır. Buna baxmayaraq, fevralın sonu, martın əvvəlindən başlayaraq siyasi qüvvələr qeyri-rəsmi şəkildə prosesə start veriblər. Baş nazir vəzifəsinə əsas iddiaçılar paytaxt İrəvanda və bölgələrdə vətəndaşlarla aktiv şəkildə görüşlər keçirirlər.**

# Karapetyan Ermənistanı qarşıdurmaya sürükləyir

## *Oliqarx-siyasətçi Paşinyanın devrilməsini hədəf seçib*

Artıq baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi “Mülki müqavilə” partiyası, keçmiş prezident Robert Koçaryanın rəhbərlik etdiyi “Ermənistan” bloku, eləcə də rusiyalı milyarder, “Taşir” şirkətlər qrupunun rəhbəri Samvel Karapetyanın başçılıq etdiyi “Güclü Ermənistan” partiyası seçkilərdə iştiraklarını bəyan edib.

Daha bir oliqarx, ölkənin ən zəngin iş adamlarından olan “Çiçəklənən Ermənistan” partiyasının lideri Qaqik Sarukyan seçkilərdə “Ermənistan üçün təkliflər” təşəbbüsü çərçivəsində iştirak etmək niyyətindədir, lakin bu



format hələ dəqiqləşdirilməyib. Həmçinin keçmiş ombudsman Arman Tatoyanın “Birlik qanadları” hərəkatı və birinci prezident Levon Ter-Petrosyanın Erməni Milli Konqresi də seçkidə iştirakını açıqlayıb. Konqres baş nazir vəzifəsinə Levon Zurabyanın, “Yeni güc” partiyası isə İrəvanın sabiq meri Ayk Marutyanın namizədliyini irəli sürüb.

Namizədlərin sayı çox olsa da, əsas mübarizənin Paşinyan, Koçaryan və Karapetyan arasında gedəcəyi gözlənilir. Sonuncu hazırda ev dustaqlığındadır. Buna baxmayaraq, o, ev şəraitində iclaslar, müxtəlif görüşlər keçirir, media orqanlarına müsahibələr verir. Belə görüşlərdən biri tələbələrin iştirakı ilə baş tutub. Partiya sədri görüş zamanı bildirib ki, ilk addımı birlikdə atmaq zəruridir. Samvelin partiyası görüşə həsr olunmuş qısa videoçarxı özünün sosial şəbəkə hesablarında yayımlayıb. Videonun “Gənc nəsil Ermənistana dəyişikliklər gətirəcək” başlığı altında yayımlanması diqqətdən yayınmayıb. Karapetyan gənclər qarşısında “konkret vəzifələr” qoyub: “Siz ilk növbədə Paşinyanı vəzifədən uzaqlaşdırmalısınız. Bundan sonra düşünürəm ki, digər məsələlərin həlli xeyli asan olacaq. Biz ilk addımı birlikdə atmalıyıq. İkinci addıma gəlincə – şübhə etməyin, mən həmişə sözümün ağası olmuşam. İndi də sizi əmin edirəm: növbəti addımı atmaq daha asan olacaq”.

Bu arada oliqarxın rəhbərlik etdiyi “Güclü Ermənistan” partiyasının İrəvanda böyük mitinqə hazırlaşdığı məlum olub. Bu barədə “Hraparak” qəzeti məlumat yayıb. Nəşrin əldə etdiyi xəbərə görə, mitinqin mayın 8-də – parlament seçkilərinin təbliğat-təşviqat kampaniyasının rəsmi başlanğıc günü keçirilməsi planlaşdırılır. Partiya bu xəbəri şərh etməyib, lakin qəzetin yazdığına görə, bu dəfə mitinqin aprelin 11-də olduğu kimi, Opera Teatrı yaxınlığındakı “Azadlıq” meydanında deyil, daha böyük və tutumlu olan “Respublika” meydanında keçirilməsi nəzərdə tutulur. Nəşr yazır: “Partiya faktiki olaraq, seçki kampaniyasının lap başlanğıcında, özlərinin dediyi kimi, “kiçik qrupa” xoşagəlməz sürpriz etmək və onsuz da qorxu içində olan “Mülki müqavilə” üzvlərinə psixoloji təzyiq göstərmək qərarına gəlib”.

*

Onu da bildirək ki, bir neçə gün öncə “Ermənistan” blokunun parlament fraksiyasının katibi Artsvik Minasyan blokun seçkilərdə ən çox səs toplayan partiyanın irəli sürdüyü müxalif baş nazirliyə namizədi dəstəkləyəcəyini bildirib. Söhbət “Ermənistan” blokundakı iki partiyadan – Erməni İnqilabi Federasiyası – “Daşnaksütyun” və Eçmiədzin şəhərinin meri vəzifəsinə namizəd Sevak Xaçatryanın rəhbərlik etdiyi sağ mərkəzçi “İrəli” partiyasından gedir. Minasyan izah edib ki, baş nazirliyə R.Koçaryanın namizədliyi “İrəli” partiyasının siyahısında irəli sürülüb, lakin o, hələ də bitərəf qalmaqdadır. Onun sözlərinə görə, əgər onların bloku qalib gəlsə, digər müxalif qüvvələrdən də eyni yanaşma gözlənilir.

Karapetyan isə bu çağırışa cavab olaraq bildirib ki, R.Koçaryanın və Q.Sarukyanın müxalifətdən baş nazirliyə vahid namizəd irəli sürülməsi prinsipi ilə bağlı açıqlamaları korrektdir: “Seçkilərdə qalib gələn siyasi qüvvənin hökuməti formalaşdırması ümumi qəbul olunmuş beynəlxalq praktikadır. Biz əminik ki, bu qüvvə bizim partiya olacaq, bu halda digər müxalif qüvvələrin namizədimizi dəstəkləmək imkanı yaranacaq”. Öz növbəsində, Sarukyan belə ssenaridə Karapetyanı dəstəkləmək ehtimalı ilə bağlı suala cavab verərkən bildirib ki, bu məsələ açıq qalır və müzakirə olunacaq.

*

Qeyd etdiyimiz kimi, S.Karapetyan hazırda ev dustaqlığındadır. Bir neçə gün öncə Antikorrupsiya Məhkəməsi “Güclü Ermənistan” liderinin ev dustaqlığını 3 ay müddətinə uzadıb. Daha əvvəl məhkəmə iclası zamanı vəkil Aram Vardevanyan isə bildirmişdi ki, Karapetyan ötən ilin dekabrında həbsdən azad olunmaq üçün 10 milyon dollardan çox məbləğdə girov ödəyib. Məhkəmə iclas çərçivəsində ona gələcəkdə KİV-ə müsahibə verməyə icazə də verib. Növbəti məhkəmə iclası aprelin 30-da keçiriləcək. S.Karapetyana vergidən yayınma, çirkli pulların yuyulması, xüsusilə iri məbləğdə əmlakın mənimsənilməsi, eləcə də hakimiyyətin ələ keçirilməsinə açıq çağırışlarda ittiham olunur. İş üzrə daha iki nəfər də təqsirləndirilən şəxs qismində keçir. İşə hakim Vahe Dolmazyan baxır.

Yeri gəlmişkən, aprelin 29-da Ermənistan hüquq-mühafizə orqanlarının əməkdaşları “Güclü Ermənistan”ın qərargahında axtarış aparıb. Bu barədə Korrupsiyaya Qarşı Mübarizə Komitəsi məlumat yayıb. Komitə seçicilərə rüşvət vermək ittihamı üzrə açılan cinayət işi çərçivəsində bir qrup şəxsin saxlanıldığını bildirib. Bununla bağlı əlavə məlumatın daha sonra veriləcəyi qeyd olunub.



**Siyasi şərhçi Rizvan Hüseynov** XQ-yə açıqlamasında bildirdi ki, S.Karapetyanın siyasi ritorikası və fəaliyyəti biznes-oliqarx resurslarının siyasi kapitala çevrilməsi modelini xatırladır. Onun sözlərinə görə, Samvelin tələbələrlə görüşdə “ilk addım Paşinyanı vəzifədən uzaqlaşdırmaqdır” kimi birbaşa siyasi hədəf müəyyən etməsi proqramlı alternativdən çox, qarşıdurma və şəxsi siyasi məqsəd üzərində qurulmuş strategiyanı göstərir: “Əsas məqam alternativ idarəetmə modeli və ictimai siyasət proqramı olmalıdır, lakin o, diqqəti daha çox “Paşinyan getməlidir” məsələsinə yönəlir ki, bu da siyasi mədəniyyət baxımından yolverilməz yanaşmadır. Digər tərəfdən, Karapetyanın ev dustaqlığında olmasına baxmayaraq, aktiv siyasi kampaniya aparması hüquqi proses və siyasi fəaliyyət arasındakı sərhədlərin itdiyini göstərir. Formal olaraq ona qarşı ciddi maliyyə və siyasi xarakterli ittihamlar mövcuddur, lakin eyni zamanda media çıxışları, tələbələrlə görüşlər və mitinq hazırlıqları onun siyasi arenadan kənarlaşdırılmadığını, əksinə, bu vəziyyətdən siyasi mobilizasiya üçün istifadə etdiyini göstərir”.

Ekspert qeyd etdi ki, mitinq planları və kütləvi səfərbərlik cəhdləri seçki kampaniyasının küçə siyasəti ilə daha çox gücləndiyini göstərir: “Psixoloji təzyiq” və “sürpriz” kimi ifadələr isə siyasi prosesin daha çox emosional və qarşıdurmalı hala gəldiyini göstərir. Bu da seçkilərdə proqram müzakirəsindən çox güc nümayişinin ön plana çıxmasına səbəb olur. Nəticə olaraq, Karapetyan nümunəsi Ermənistanda biznesin gücünün, hüquqi proseslərin və populist siyasətin bir yerdə toplanmasını göstərir. Bu vəziyyət siyasi sistemin sabitliyi və rəqabətin keyfiyyəti barədə suallar yaradır. Seçkilər formal olaraq rəqabətli görünsə də, real güc balansı daha çox resurslarla və təsir imkanları ilə müəyyən olunur”.

***Səxavət HƏMİD***
***XQ***

# Hay rəğbətinə möhtac siyasi möhtəkir

**ABŞ-ın Nyu-York şəhərinin meri Zöhran Kvame Mamdaninin 1915-ci il hadisələri və Azərbaycanın Qarabağdakı qanuni əməliyyatları ilə bağlı səsləndirdiyi son ittihamlar göstərir ki, daxili siyasi dividendlər çox zaman reallıqları üstələyir. Görəsən, bir şəhər merinin uzaq coğrafiyalara dair asanlıqla mühakimə yürütməsinin arxasında hansı siyasi məqam gizlənir?**




Birləşmiş Ştatlar, həqiqətən də, böyük imkanlar və perspektivlər ölkəsidir. Tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdən gəlmiş mühacirlər və ya onların övladları ABŞ-ın ali siyasi postlarına qədər yüksələ bilirlər. Keniyalı miqrant ailəsindən çıxan Barak Obamanın prezidentliyi, italiyalı mühacir ailəsində doğulmuş Rudolf Culianinin Nyu-York meri olması və ya avstriyalı Arnold Şvartsneggerin Kaliforniya qubernatoru seçilməsi bu modelin göstəriciləridir. Bu baxımdan, əslən Uqanda-Hindistan mənşəli, 34 yaşlı Zöhran Mamdaninin dünyanın paytaxtı sayıla biləcək Nyu-Yorkun meri seçilməsi də bu sistemin bariz nümunəsidir. Lakin bu cür sürətli siyasi yüksəlişlər təkcə fərasət və şansla məhdudlaşmır.

Bəziləri Mamdani mer seçilərkən onun müsəlman-şiə kimliyinin xarici siyasətlə bağlı, xüsusən də Türkiyə və Azərbaycan məsələlərində onu daha obyektiv edəcəyini düşünürdü. Ancaq Mamdaninin aprelin 24-də “X” platformasında Azərbaycan və Türkiyəni əsassız şəkildə ittiham edən mövqeyi sübut edir ki, böyük siyasətdə şəxsi dini və ya irqi mənsubiyyət yerli lobbi qruplarının (bu halda erməni elektoratının) təsirindən daha zəifdir. Əslində, erməni tərəfi üçün iddialarının məhz fərqli dini kimliyə malik biri tərəfindən səsləndirilməsi manipulyativ inandırıcılıq baxımından xüsusilə sərfəlidir.

Bugünkü beynəlxalq arenada tarixçilərin bir çoxu 1915-ci il hadisələrini müxtəlif cür təsnif etsə də, rəsmi Ankara və Azərbaycan illərdir ki, bu hadisələrin siyasi deyil, tarixi müstəvidə araşdırılmalı olduğunu, bunun üçün birgə komissiyaların yaradılmasını və arxivlərin açılmasını təklif edir. Lakin bu çağırışların daim rədd edilməsi və məsələnin yalnız fərqli ölkə parlamentlərinin qəbul etdiyi “tanınma” aktları ilə məhdudlaşdırılması “soyqırımı” ritorikasının tarixi ədalət axtarışından çox, diplomatik təzyiq aləti olduğunu təsdiqləyir.

Zöhran Mamdaninin çıxışında ciddi qərəz və beynəlxalq hüququn kobud şəkildə təhrifi isə 1915-ci il hadisələri ilə Azərbaycanın müasir dövrdə öz ərazi bütövlüyünü bərpa etməsini eyniləşdirmək cəhdidir. Dövlətlərin suverenliyi, ərazi bütövlüyü və işğalın nəticələrinin tanınmaması müasir beynəlxalq hüququn əsasını təşkil edir. Azərbaycanın beynəlxalq ictimaiyyət tərəfindən tanınan sərhədləri daxilində atdığı adekvat addımların "hücum", "məcburi köçürmə" və ya "soyqırımı kampaniyası" kimi qələmə verilməsi reallıqdan uzaq və məsuliyyətsiz yanaşmadır. Bu iddiaların nə qədər ikili standartlara əsaslandığını görmək üçün yaxın tarixə nəzər salmaq kifayətdir. 1990-cı illərdə 1 milyona yaxın azərbaycanlının Ermənistandan və Qarabağdan güc yolu ilə deportasiya edilməsi, evlərindən didərgin salınması 30 il boyunca Qərb siyasətçilərinin mütləq əksəriyyəti tərəfindən qulaqardı edilib. Lakin 2023-cü ildə 100 min civarında erməni əhalisinin Azərbaycan hökumətinin reinteqrasiya barədə çağırışlarına baxmayaraq, bölgəni könüllü tərk etməsi dərhal süni şəkildə “məcburi köçürmə” adlandırılır.

Gün kimi aydındır ki, xarici erməni lobbisi və müvafiq mərkəzlər tam şəkildə daşnakların nəzarətindədir. Onlar bütün resurslarından istifadə edərək həm qondarma soyqırımı məsələsinin hələ də gündəmdə qaldığını, həm də Qarabağ ermənilərinin geri qayıtması mövzusunun təzyiq vasitəsi kimi saxlanıldığını nümayiş etdirməyə çalışırlar. Bu fəaliyyətlər mahiyyət etibarilə Qarabağ mövzusunun hələ bağlanmadığı görüntüsünü yaratmağa xidmət edir. Hazırda Ermənistandakı seçkiqabağı vəziyyət fonunda bu cür addımlar daha da intensivləşib.

Daşnaklar seçki prosesində Robert Koçaryanı dəstəkləyir və onunla vahid siyasi blokda təmsil olunurlar. Lakin Robert Koçaryan Ermənistan cəmiyyətinin böyük əksəriyyətində nifrətdən başqa heç bir hiss doğurmur. Belə vəziyyətdə o, Paşinyan hakimiyyətini uğursuzluqda ittiham edərək mübarizənin davam etdirilməsinin vacibliyini vurğulayır. Hətta Nyu-York merinin bu məsələlərdə onlara dəstək verməsini arqument kimi irəli sürərək siyasi xal qazanmağa çalışırlar.

Nəticə etibarilə, Zöhran Mamdaninin ritorikası nə tarixi həqiqətlərin bərpasına, nə də Cənubi Qafqazda davamlı sülhün bərqərar olmasına xidmət edir. Bu, sadəcə, okeanın o tayındakı bir-iki erməninin rəğbətini, qazanmaq üçün əsassız ittihamları siyasi valyutaya çevirmək cəhdidir. Lakin Nyu-Yorkun daxili siyasi konyunkturası nə qədər səs-küylü olsa da, beynəlxalq hüququn aliliyi və Azərbaycanın regionda yaratdığı yeni reallıq bu cür manipulyativ bəyanatlardan qat-qat üstündür. Təbii ki, sonda Mamdanikimilərin populist vədlər və lobbi maraqları növbəti seçki kampaniyasından sonra arxivə gömüləcək, lakin ədalətli müharibə ilə bərpa edilmiş ərazi bütövlüyü tarixin silinməz faktı olaraq qalacaq.

***Tacir SADIQOV***
***XQ***

### *Ekspert rəyi*



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

Zöhran Mamdani obrazı müasir siyasətin ən ziddiyyətli və populist nümunələrindən biri kimi çıxış edir. Onun özünü müsəlman kimliyi ilə təqdim etməsinə rəğmən, seksual azlıqların platformalarında fəal şəkildə yer alması müxtəlif seçici qruplarını manipulyasiya etmək cəhdindən xəbər verir. Keçmişində gey klublarda dicey fəaliyyəti ilə məşğul olan bir şəxsin bu gün dini və mənəvi dəyərlərdən bəhs etməsi onun siyasi simasındakı dərin çatları üzə çıxarır. Bu cür davranışlar prinsiplərə sadiqlikdən çox, hər vəclə gündəmdə qalmağa çalışan və etik sərhədləri tanımayan demaqoq təsiri bağışlayır.

Nyu-York kimi on milyonluq nəhəng meqapolisin idarəçiliyi yalnız şüarlar və ucuz reklam kampaniyaları ilə reallaşa bilməz. Şəhər sakinləri kriminogen durumun pisləşməsi, infrastrukturun köhnəlməsi və iqtisadi çətinliklər fonunda populist vədlər yox, konkret və icrası mümkün olan strateji həll yolları gözləyirlər. Mamdaninin idarəçilik təcrübəsinin və fundamental biliklərinin yoxluğu onun irimiqyaslı böhranlar qarşısında aciz qalacağını indidən proqnozlaşdırmağa əsas verir. Ciddi idarəçilik bazası olmayan birinin yalnız emosional və ziddiyyətli çıxışlarla Nyu-Yorkun mürəkkəb sistemini rəhbər tutması real görünməyən bir ssenaridir.

Digər tərəfdən, xarici erməni lobbisinin və daşnakların bu cür marjinal fiqurlar vasitəsilə Ermənistanın daxili siyasətinə təsir etmək cəhdləri tamamilə perspektivsizdir. Robert Koçaryan və onun siyasi bloku bu növ xarici dəstəklərə güvənməklə Ermənistan daxilində itirdikləri etimadı bərpa edə biləcəklərini düşünürlər. Lakin Ermənistan cəmiyyətinin böyük hissəsi keçmişin uğursuz mirasını təmsil edən qüvvələri yenidən hakimiyyətdə görmək istəyindən uzaq görünür. Daşnakların xaricdə qurduğu süni gündəm və Mamdani kimi şəxslərin verdiyi bəyanatlar Koçaryanın seçki platformasına heç bir real üstünlük qazandırmır, əksinə, onun siyasi dalana dirəndiyini bir daha sübuta yetirir.

# Yaxın Şərqin qara buludları haralara sürünür?

## *Bu mövzu qlobal beyin mərkəzlərinin, xarici və yerli ekspertlərin gündəmindədir*

**Yaxın Şərq münaqişəsinin dünyanın bir çox ölkələrinin enerji təchizatına mənfi təsir göstərdiyi danılmaz faktdır. Doğrudur, postsovet respublikaların münaqişə tərəfləri ilə birbaşa ticarət əlaqələri geniş deyil, amma Körfəz dövlətləri ilə yanaşı, Avropanın, eləcə də dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan bir çox ölkələri üçün risk amili olaraq qalır. Bəs hərbi əməliyyatların Cənubi Qafqazdakı geosiyasi proseslərə, Azərbaycan–Ermənistan sülh prosesinə, qlobal logistik layihələrə, o cümlədən "Tramp marşrutu"nun reallaşması perspektivinə təsiri varmı? Bu sual hazırda bölgənin ekspert icmasının gündəmindəki mərkəzi mövzudur. Yanaşmalar kimi fikirlər də müxtəlifdir. Bəzi analitiklərin qənaətincə, müharibə ABŞ-ın ötən ilin avqustunda Vaşinqtonda sülh sazişinin paraflanmasından sonra regiona artan diqqətini zəiflədə, TRIPP layihəsinin taleyini isə sual altında qoya bilər.**



Bir ay bundan əvvəl Ermənistanın Baş naziri Nikol Paşinyan xəbərdarlıq etmişdi: "Beynəlxalq sülh və rifah üçün Tramp yolu" (TRIPP) adlanan layihənin həyata keçirilməsi ABŞ və İsrailin İrana qarşı davam edən müharibəsi səbəbindən gecikə bilər". Bu barədə BBC-nin "Sülh prosesinin sınağı: İranda müharibə "Tramp yolu"na və Ermənistan–Azərbaycan münasibətlərinə təhlükə yaradırmı?" sərlövhəli analitik məqaləsində yazılıb. Müstəqil ekspertlər TRIPP layihəsinin Ermənistan–Azərbaycan sülh prosesinin mərkəzi elementi hesab olunduğu və onun tamamlanması ilə bağlı yarana biləcək problemin iki ölkə üçün mənfi nəticələri yönündə xəbərdarlıq xarakterli açıqlamalar verirdilər. Ermənistan baş nazirinin "Tramp yolu" hazırda ABŞ üçün prioritet deyil" açıqlamasına az sonra Ağ Evdən reaksiya verildi. "Armenpress" agentliyinin sorğusuna cavab olaraq ABŞ Dövlət Departamentinin bəyanatında bildirilirdi: "ABŞ Prezidenti Donald Trampın administrasiyası əvvəlki kimi TRIPP layihəsinin həyata keçirilməsinə sadiqdir. Bu layihə Vaşinqton üçün əsas prioritetlərdən biri olaraq qalır, çünki Cənubi Qafqazda və onun hüdudlarından kənarda sülh və rifaha kömək etmək potensialına malikdir". Ekspertlərin bir qismi hesab edir ki, İranda faktiki olaraq, hakimiyyəti ələ keçirmiş İran İnqilabı Keşikçiləri Korpusu ölkənin şimal sərhədi yaxınlığında yerləşən və ABŞ-ın nəzarətində olan ticarət və nəqliyyat dəhlizinə qarşı daha da aqressivləşəcək. Bunu Azərbaycan üçün ən pis proqnozlardan biri saymaq olar.

*

Cənubi Qafqaz üzrə tanınmış analitiklər hesab edirlər ki, Yaxın Şərq müharibəsi bütövlükdə Azərbaycan–Ermənistan sülh prosesinə, TRIPP layihəsinə mənfi təsir göstərə bilər. Brüsseldə yerləşən **Beynəlxalq Böhran Qrupunun Cənubi Qafqaz üzrə analitiki Coşua Kucera** hesab edir ki, əgər TRIPP-in tikintisi gecikdirilsə və ya ümumiyyətlə ləğv edilsə, bu, Ermənistan və Azərbaycan arasında sülh prosesi üçün mənfi nəticələrə gətirib çıxaracaq. O qeyd edib ki, ABŞ və İsrailin İranla müharibəsi Azərbaycanın Ermənistan ərazisindən keçən yola olan ehtiyacını yalnız artırıb. İran üzərindən ticarət pozulub. "Cənubi Qafqazda ABŞ-ın fəallaşması Ermənistan–Azərbaycan münasibətlərində əhəmiyyətli irəliləyiş üçün katalizator rolunu oynayıb", – deyən ekspert hər iki ölkənin liderlərinin Trampın münaqişənin sona çatdırılmasında "tarixi rolunu" xüsusi qeyd etdiklərini də nəzərə çatdırıb: "Əgər aşkar görünsə ki, Vaşinqton artıq bununla maraqlanmır, o zaman hər şey daha kövrək olacaq".

Kuçera öz təhlilində bir az da irəli gedərək hazırda vəziyyətin son dərəcə qeyri-sabit və dinamik olması səbəbindən nəticəni proqnozlaşdırmanın çətinliyini də etiraf edir: "Sülh sazişinin mətni ortada olsa da, yekun sənəd hələ imzalanmayıb. Bu prosesdə çox çətinliklə əldə edilən irəliləyiş hazırda özünün kövrək fazasında qalmaqdadır. Əsas risk Ermənistan və Azərbaycan arasında müharibənin bərpası deyil, ümid edək ki, bu, keçmişdə qalıb. Bundan daha ciddi məqam Vaşinqtonun diqqətini yayındırmaqdır. Sülh prosesinə nəzarət edən amerikalı diplomatlar tam olaraq İran ətrafında baş verən hadisələrə transformasiya vəziyyətindədirlər. Bəli, biz daha nikbin ssenari gözləyirdik, lakin hazırda irəliləyişin planlaşdırıldığından daha yavaş getməsi ilə bağlı narahatlıqlar var".

Mövzu ilə bağlı XQ-yə açıqlamasında qərbli analitik Coşua Kuceranın bu fikirlərində yanlışlığın yer aldığını bildirən **siyasi icmalçı Tofiq Abbasov** Yaxın Şərq münaqişəsinin TRIPP layihəsinə bilavasitə təsiri ilə bağlı gəldiyi qənaəti ilə razılaşmadığını bildirdi: "Keçən ilin avqustunda Vaşinqtondakı üçtərəfli görüş zamanı bölgədə TRIPP adlanan (əslində, Tramp layihəsidir) layihənin reallaşdırılması üçün olduqca əlverişli şəraitin yarandığını və bundan istifadənin vacibliyini qeyd etdilər. Əslində, bu strateji layihənin gerçəkləməsinin üzərinə qara buludları Yaxın Şərq münaqişəsi deyil, Ermənistanın bu platformada ikibaşlı oyun oynaması gətirir. Son günlər nəyi müşahidə edirik? Azərbaycana Avropa ölkələrinin liderlərinin səfərləri intensivləşib. Litva, Latviya, Ukrayna, Çexiya rəhbərləri ölkəmizdə oldular, mayın 5-də İtaliyanın Baş naziri Corcia Meloninin səfəri gözlənilir, ardınca Serbiya rəhbəri Aleksandar Vuçiç Azərbaycan Prezidentinin dəvəti ilə Bakıya təşrif buyuracaq. Bunlar onu göstərir ki, Azərbaycan makroregional əlaqələrin yaradılmasında müstəsna rol oynayır. Sadaladığımız ölkələr buna görə Asiya ilə körpüləri məhz Azərbaycan üzərindən qurmağa üstünlük verirlər. İrəvan bütün bunları yaxşı görsə də, ölkəmizin yaratdığı tranzit imkanlarından bəhrələnsə də, yenə nankorluq və satqınlıq niyyətindən əl çəkmir. Bunun bariz nümunəsi: Ermənistan rəhbərliyi Avropa İttifaqından ölkəsinə ikinci monitorinq missiyasını dəvət edib. Əgər bu təşəbbüs seçkilərlə bağlıdırsa, onda nəyə görə onlara ikiillik mandat verilib? Bu azmış kimi, Ermənistan bəzi rəsmiləri Azərbaycanı Türkiyə ilə münasibətlərinin normallaşmasına maneçilik törətməkdə ittiham etməkdən belə çəkinmirlər. Nikol Paşinyan isə özünü bütün bunlardan xəbərsiz kimi aparır. Bəli, TRIPP layihəsinin inşası ilə bağlı rəsmi İrəvanın şübhəli və ikibaşlı oyun oynadığını söyləyə bilərik".

***

Azərbaycan və Ermənistan arasında sülh prosesinin müqəddəratı ilə bağlı avropalı politoloq Kuceranın fikirləri ilə razılaşmadığını bildirən T.Abbasov hesab edir ki, 7 iyun seçkilərindən sonra Ermənistan iqtidarının sərgiləyəcəyi mövqeyi gözləmək lazımdır: "Hazırda biz İrəvanın əvvəlki illərdə olduğu kimi, iyrənc və çirkin siyasi oyunlarına baş vurduğunu müşahidə edirik. Siyasi məntiq onu deyir ki, Ermənistan TRIPP-lə bağlı Azərbaycanla heç bir razılığa gələ bilməyəcəyi mesajlarını verir. Bütün bu oyunların başında bir məsələ dayanır: Azərbaycanla sülh prosesinin aqibəti necə olacaq? Bəli, Ermənistanın siyasi rəhbərliyi yaxşı anlayır ki, indi Vaşinqtonun, ABŞ Prezidenti Donald Trampın başı İran məsələsinə qarışıb. Ona görə TRIPP layihəsi ilə altdan-altdan anti-Azərbaycan ritorikasını işə salıblar. Necə ola bilər ki, məsələni gündəmə gətirən Azərbaycanın bu layihənin gerçəkləməsində rolu olmasın? Bilirsiniz, İrəvan həm sülh prosesi, həm də TRIPP-in reallaşması ilə bağlı mövqeyini yenə Aİ və Avropanın ayrı-ayrı ölkələri ilə əlaqələrinə güvənərək müəyyənləşdirir. Yəni bu zaman Ermənistan hakimiyyəti ABŞ-ı da



aldadır. Mayın əvvəlində Fransa prezidenti Emmanuel Makron İrəvana gəlir. Fransa, Belçika, Niderland və digər ölkələrin parlament qrupları Ermənistan–Azərbaycan sülh prosesi ilə bağlı yeni qətnamələr hazırlayırlar. Məqsəd danışıqlarda Azərbaycan üçün problem yaratmaq, Ermənistana güzəştə getməyə məcbur etməkdir. Bu qərəzli və ikili standartlı cəhdlərin heç biri alınmayacaq. Əminəm ki, rəsmi Vaşinqton bu məsələlərə sağlam məntiq və dürüst diplomatiya prizmasından yanaşaraq, öz qiymətini verəcək".

Yerli və xarici ekspertlərin fikirlərini ümumiləşdirərək onu da qeyd edək ki, Avropanın Cənubi Qafqaz regionunda cərəyan edən hadisələrin tamhüquqlu geosiyasi aktor kimi iştirakçısı olduğu dönəm arxada qalıb. Bu gün Avropa İttifaqının bölgəyə müdaxilə resursları yoxdur. Həm də onun üçün Qafqazın daxili işləri ilə məşğul olmaqdan daha çox enerji təhlükəsizliyi prioritet sayılır. Bu məsələ ilə gündəliyi müəyyənləşdirən və onu irəli aparan Azərbaycandır. Fransa "kiçik bacısı" Ermənistanı yenə fəal surətdə dəstəkləsə də, enerji maraqları olan digər ölkələr Azərbaycanın yanındadırlar. Yəni mövcud reallıqda Brüssel üçün Cənubi Qafqazla bağlı, Ermənistanın maraqlarına xidmət edəcək yeni strategiya hazırlamaq və onu həyata keçirmək olduqca çətindir. Demək olar ki, mümkünsüzdür. Yaxın Şərq münaqişəsinin tezliklə başa çatacağına ümidlər böyükdür. O zaman Günəş bütün qaranlıqların üzərinə işıq salacaq və kölgələr də yox olacaq...

***İmran BƏDİRXANLI***
***XQ***

# Hörmüz böhranı Avrasiyanı enerji sınağına çəkib

## *Azərbaycan "qlobal tormozlanma"nın təsirini azaltmağa önəmli dəstək verir*



**ABŞ, İsrail və İran arasında baş vermiş hərbi toqquşmalar artıq bir müddətdir ki, atəşkəslə əvəzlənib. Lakin silahların susmasına baxmayaraq, Hörmüz boğazı ətrafında, faktiki olaraq, "soyuq müharibə" davam edir. Strateji əhəmiyyətə malik bu su yolu tərəflər arasında razılaşmanın əldə olunmaması səbəbindən hələ də bağlı qalır. Boğazın çıxış hissəsinə İran, girişinə isə ABŞ nəzarət edir.**

Aydındır ki, Tehran və Vaşinqton qarşılıqlı təzyiq aləti kimi Hörmüz boğazından istifadə etməklə öz geosiyasi maraqlarını reallaşdırmağa çalışırlar. Nəticədə, qlobal iqtisadiyyat, Yaxın Şərqin enerji ixracatçıları, eləcə də bu regiondan neft və qaz idxal edən ölkələr ciddi təsirlərlə üzləşir. Gərginliyin davam etməsi, təbii olaraq, dünya enerji bazarlarında qiymətlərin artımına səbəb olur.

Aprelin 29-na olan məlumata görə, qlobal enerji bazarında neft qiymətləri yenidən yüksəliş nümayiş etdirib. "ICE London" qitələrarası birjasında keçirilən ticarət əməliyyatları zamanı "Brent" markalı neftin 2026-cı ilin iyul müqaviləsi üzrə qiyməti 0,22 faiz artaraq bir barel üçün 111,5 ABŞ dollarına çatıb. Azərbaycan nefti də bahalaşma trendindən kənarda qalmayıb. "Azeri Light" markalı neftin bir barelinin qiyməti 2,04 ABŞ dolları və ya 1,79 faiz artaraq 115,89 ABŞ dolları təşkil edib və bununla da 116 dollara yaxınlaşıb.

Yeri gəlmişkən, cari ilin dördüncü rübündə "Brent" markalı xam neftin orta qiymətinin 90 dollar/barelə çatacağı proqnozlaşdırılır. Bu gözlənti ABŞ-ın aparıcı investisiya banklarından olan "Goldman Sachs" tərəfindən irəli sürülüb. Bankın qiymətləndirməsinə görə, "Brent" nefti ikinci rübdə 100 dollar, üçüncü rübdə isə 93 dollar səviyyəsində olacaq. Qeyd edək ki, dördüncü rüb üzrə əvvəlki proqnoz 80 dollar idi.

Analitiklər bildirirlər ki, Hörmüz boğazının uzun müddət bağlı qalması qlobal neft ehtiyatlarının sürətlə azalmasına səbəb olub. Aprel ayında gündəlik ehtiyat azalması 11–12 milyon barel təşkil edib ki, bu da rekord göstəricidir. Körfəzdə hasilatın sutkada 14,5 milyon barel azalması bazarda ciddi təklif çatışmazlığı yaradıb. "Goldman Sachs" hesab edir ki, təklif şoku davam edərsə, bu, tələbatın daha kəskin azalmasına gətirib çıxara bilər. Bundan əlavə, Körfəzdən neft ixracının bərpasının əvvəl gözlənildiyi kimi mayın ortalarında deyil, ən yaxşı halda iyunun sonuna qədər uzanacağı ehtimal olunur.

Hörmüz boğazının bağlanması aylıq 7 milyon tondan artıq mayeləşdirilmiş təbii qazın (LNG) tədarükünün dayanmasına da səbəb olub. Bu isə regional qaz bazarlarında ciddi təchizat çatışmazlığı yaradıb. Məlumat Qaz İxrac Edən Ölkələr Forumunun hesabatında yer alıb. Hesabata görə, mart ayında qlobal qaz istehlakı azalıb. Xüsusilə Asiyada tələbatın zəifləməsi, LNG tədarükündəki fasilələr və qiymət artımı enerji istehlakında alternativ mənbələrə – kömür və bərpaolunan enerjiyə keçidi sürətləndirib.

Eyni dövrdə Avropa İttifaqı ölkələrində qaz anbarlarının doluluq səviyyəsi ötən ilin 37 milyard kubmetri ilə müqayisədə 30 milyard kubmetrə enib. ABŞ-da isə göstərici artaraq 53 milyard kubmetr təşkil edib. Boğazın bağlanması qlobal LNG tədarükünün təxminən 20 faizinin keçdiyi marşrutda axınları pozaraq spot qiymətlərin kəskin yüksəlməsinə gətirib çıxarıb. Nəticədə, mart ayında Avropada qaz qiymətləri aylıq müqayisədə 58 faiz, Şimal-Şərqi Asiyada isə 94 faiz artıb. Ümumilikdə, cari ildə qlobal təbii qaz tələbatının və istehsalının təxminən 1,2 faiz artacağı gözlənilir. Bununla belə, bazardakı dinamika əsasən Yaxın Şərqdəki geosiyasi vəziyyətdən asılı olaraq qalır.

ABŞ ilə İran arasında davam edən qarşıdurmanın mənfi təsirləri bir sıra regionlarda ciddi fərqlə hiss olunur. Enerji qıtlığı Avropa ölkələrinin maliyyə imkanlarına əlavə təzyiq göstərərək iqtisadi dayanıqlılığı zəiflədir. Məsələn, aparıcı beyin mərkəzi Milli İqtisadi və Sosial Tədqiqatlar İnstitutu (NIESR) xəbərdarlıq edir ki, İrandakı müharibənin yaratdığı enerji böhranı hətta ən yaxşı ssenaridə belə Böyük Britaniya iqtisadiyyatına təxminən 35 milyard funt sterlinq (46,7–47,3 milyard dollar) zərər vura bilər. İnstitutun qiymətləndirməsinə görə, Yaxın Şərqdə münaqişənin uzanması 2026-cı ilin ikinci yarısında ölkədə iqtisadi tənəzzül riskini artırır. NIESR direktoru Devid Eykman bildirib ki, bu vəziyyət hökumətin iqtisadi artımı bərpa planlarına ciddi zərbə vurur və Böyük Britaniyanın qlobal enerji şoklarına həssaslığını üzə çıxarır.

Bundan əlavə, Şərqi və Cənubi Asiya ölkələri də yaranmış vəziyyətdən kənarda qalmır. Bu regionlar enerji idxalından yüksək dərəcədə asılı olduqları üçün qlobal bazarlarda qiymət artımı və təchizat zəncirindəki pozuntular onların iqtisadi artım tempinə mənfi təsir göstərir, istehsal xərclərini artırır və inflyasiya təzyiqlərini gücləndirir.

Ekspertlərin fikrincə, Hörmüz "düyünü"nün açılmaması Şərqi Asiya ölkələrinin enerji strategiyalarına təsir göstərəcək. Artıq Yaponiya, Cənubi Koreya və Çin kimi iri enerji idxalçıları bu sahədə diversifikasiya etməyi planlaşdırırlar. Qeyd olunan ölkələr Xəzər hövzəsindən neft ixracını həyata keçirə bilərlər. Tokio enerji təhlükəsizliyini gücləndirmək məqsədilə uzun illərdir Xəzər regionuna xüsusi diqqət ayırır. Məlumatlara görə, Yaponiya regionun enerji resurslarına strateji marağını göstərir.

Cənubi Koreya da oxşar istiqamətdə fəal addımlar atır. Seul ilə Astana arasında mart ayında imzalanmış razılaşmalara əsasən, təxminən 18 milyon barel neft tədarükü planlaşdırılır. Eyni zamanda, Çin "Kəmər və yol" təşəbbüsü çərçivəsində Orta Dəhlizi dəstəkləyərək Avrasiya boyunca enerji və nəqliyyat infrastrukturuna iri həcmli sərmayələr yönəldir. Bu proseslər Xəzər regionunun həm enerji mənbəyi, həm də tranzit mərkəzi kimi əhəmiyyətini artırır. Azərbaycan isə zəngin resursları və inkişaf etmiş nəqliyyat şəbəkəsi sayəsində Orta Dəhlizdə əsas rol oynayaraq, öz mövqeyini Avrasiya enerji logistikasının aparıcı qovşaqlarından biri kimi daha da gücləndirir.

***M.BAĞIRLI***
***XQ***

# Britaniya Kralının Vaşinqton mesajları

## *"Xüsusi münasibətlər"ə yeni çağırış*

**Beynəlxalq münasibətlər sistemində artan qeyri-müəyyənlik, təhlükəsizlik arxitekturasının yenidən nəzərdən keçirilməsi və Qərb daxilində siyasi etimad böhranı fonunda Böyük Britaniya kralı III Çarlzın 2 gün öncə Vaşinqtondakı çıxışı geniş rezonans doğurdu. İlk baxışdan protokol xarakterli görünən müraciət, əslində, mahiyyət etibarilə daha dərin siyasi və strateji məna daşıyırdı.**



Çünki verilən mesajlarda ikitərəfli münasibətlərdən əlavə, Qərbin gələcək davranış modeli, kollektiv təhlükəsizlik fəlsəfəsi, demokratik institutların dayanıqlılığı və qlobal çağırışlara ortaq reaksiyanın vacibliyi kimi məsələlər öz əksini tapmışdı. Müasir beynəlxalq sistemdə monarxların siyasi qərarvermə prosesinə birbaşa təsir imkanları məhdud olsa da, onların verdiyi mesajların diplomatik çəkisi azalmayıb. Böyük Britaniya kimi tarixi güc mərkəzlərində monarxiya hələ də yumşaq güc elementlərindən biri kimi qalmaqdadır. Vaşinqton tribunasından səslənən fikirlər də məhz bu kontekstdə Qərb dünyasından tələblər kimi qəbul edilə bilər.

İlk növbədə, vurğulanmalıdır ki, Böyük Britaniya Kralının çıxışı daha çox gələcəyə yönəlmiş ortaq məsuliyyət ideyası üzərində qurulmuşdu. Daha dəqiq desək, III Çarlz "xüsusi münasibətlər" anlayışını yeni çağırışlar fonunda yenilənməli siyasi tərəfdaşlıq modeli kimi təqdim etdi. Onun yanaşması o qədər də təəccüb doğurmamalıdır. Çünki son illər transatlantik münasibətlərdə müşahidə olunan fikir ayrılıqları, müdafiə yükü ilə bağlı mübahisələr, Ukrayna müharibəsinin yaratdığı strateji sarsıntılar və Avropa təhlükəsizlik arxitekturasının gələcəyi ilə bağlı suallar London-Vaşinqton xəttinin siyasi məzmununu yenidən aktuallaşdırıb.

Kralın çıxışında diqqətçəkən məqamlardan biri də kollektiv təhlükəsizlik anlayışının daha geniş çərçivədə təqdimatı idi. O, təhlükəsizliyi siyasi iradənin möhkəmliyi, tərəfdaşlar arasında etimad və ortaq strateji davranış qabiliyyəti ilə əlaqələndirməklə, faktiki olaraq, NATO və transatlantik həmrəyliyin siyasi dayanıqlıq platforması kimi dərk edilməsinə çağırış etdi. III Çarlzın sözügedən istiqamətdə verdiyi mesajlar bəzi dairələrdə artan təcridçi yanaşmalara cavab kimi də şərh oluna bilər.

Transatlantik həmrəylikdən bəhs etmişkən, Kral Qərbin ən böyük çağırışının xarici təhlükələrdən çox, daxildə yaranan siyasi parçalanma riskləri ilə bağlı olduğu fikrini söylədi. Məlumdur ki, son illərdə Avropa və ABŞ-da siyasi qütbləşmənin artması, populist ritorikanın güclənməsi, beynəlxalq öhdəliklərə selektiv yanaşma və strateji konsensusun zəifləməsi kollektiv qərarvermə modelini sınağa çəkib. III Çarlz bu fonda Qərb daxilində həmrəyliyin qorunmasını təhlükəsizlik zərurəti kimi təqdim etdi. Nitqdə demokratik institutlar və hakimiyyət balansı ilə bağlı vurğular ayrıca diqqət doğururdu. Monarxın bu məsələyə toxunması göstərdi ki, Qərbin gələcəyi siyasi institutların dayanıqlılığından da asılıdır.

Sonda bir məqamı da qeyd edək ki, III Çarlzın Vaşinqton səfəri post-Brexit reallıqları fonunda da yozula bilər. Çünki Böyük Britaniya Avropa İttifaqından ayrıldıqdan sonra qlobal rolunu yenidən müəyyən etməyə çalışır. Bu baxımdan Vaşinqtonla strateji münasibətlərin dərinləşdirilməsi Londonun xarici siyasət prioritetlərindən biri olaraq qalır. III Çarlzın səsləndirdiyi mesajlar da, müəyyən mənada, Britaniyanın bu axtarışlarını ideoloji və siyasi müstəvidə əsaslandırmağa xidmət edir söyləmək olar.

***Nəzrin ELDARQIZI***
***XQ***

V MƏQALƏ

### Qalib lider və ölkə

# Siyasət və süni intellekt



2020-ci il Vətən müharibəsi və 2023-cü il antiterror tədbirlərindən sonra Azərbaycan Respublikasına bir sıra güclü dairələr fərqli bucaq altında baxmağa başladılar. Aydın göründü ki, lideri çox məharətli və siyasi varislik əsasında milli maraqlara tam uyğun fəaliyyət göstərən müstəqil müsəlman dövləti və ölkə olmaqla yanaşı, cəmiyyət kimi də Qalib ola bilər.

Azərbaycan cəmiyyəti ən böhranlı zamanlarda liderinin, dövlət və ölkəsinin yanında olduğunu təsdiq etdi. Aparılan təhlillər göstərdi ki, bu möhtəşəm uğurun bünövrəsində cəmiyyətin liderinə tam inamı və etibarı, bütün sosial kəsimlərin, xüsusilə gənc təbəqənin dövlətçilik və müstəqillik naminə yüksək birləşmək qabiliyyətinin olması dayanır.

Əlbəttə, bütün bunlardan dostlar sevinirlər. Lakin sirr deyil ki, Azərbaycana dost olmaq istəməyən dairələr də mövcuddurlar və xəbis, qərəzli planlar qurmaqdadırlar. Lakin onlar burada bir neçə ciddi faktoru nəzərə almağa məhkum olduqlarını da dərk etmişlər. Azərbaycana qarşı aparılan pozucu fəaliyyətin prinsipləri, məzmun və məqsədləri həmin reallığı qəbul etmələrindən birbaşa asılıdır. Bunun üzərində dayanaq.

## Hibridlik yetərli deyil

Hər şeydən öncə, Azərbaycana qarşı adi silahlarla savaşmağın səmərəsiz və perspektivsiz olduğunu anladılar. Əlbəttə, Bakı üçün bu, asan başa gələn proses olmadı. 2023-cü ildən sonra da müxtəlif silahlı təxribatlara, terrora və "hərbi əzələ nümayişi"nə cəhdlər etdilər. Çox təəssüf ki, qarşı tərəfdə bizim qonşu, dost və qardaş İran silahlı qüvvələri də yer almışdı. Onun detalları üzərində dayanmağa indi ehtiyac yoxdur. Ancaq Azərbaycan Prezidentinin Xudafərinin fonunda "biz son damla qanımıza qədər Vətəni müdafiə etməyə hazırıq" cümləsinin ruhu və semantikasında ehtiva olunmuş qətiyyətini unutmayacağıq!

Avropa İttifaqının bəzi "demokratik və sülhpərvər" dövlətləri, uzaq Hindistanın rəsmi dairələri Ermənistanda revanşist əhvali-ruhiyyəni daha da alovlandırmaq üçün dəridən-qabıqdan çıxdılar, indi də bəziləri həmin vəziyyətdədirlər. Ancaq Azərbaycana qarşı kim silahlı təxribat etdisə, cavabını dərhal aldı. Ermənistan isə bir neçə strateji yüksəkliyini itirdi. Hər nə silahlı təxribat etdilərsə, peşman oldular!

Paralel olaraq, 2020-ci ilin payızından Azərbaycana qarşı siyasi, diplomatik, informasion və təbliğati təxribatlar yeni miqyas almağa başladı. Aydın göründü ki, bir sıra dairələr ölkəmizə qarşı adi silahlarla təzyiqləri informasiya texnologiyalar ilə sinxron halda tətbiq edirlər. Bunları Azərbaycan rəhbərliyinin dərindən, dəqiq və tam mənzərə ilə dərk etdiyi dövlət başçımızın verdiyi bir neçə müsahibələr, 2024-cü il Andiçmə mərasimində söylədiyi nitqin məzmunu, Şuşa Qlobal Media forumları göstərdi.

Beləliklə, bir sıra dairələrə aydın oldu ki, Azərbaycana adi silahlarla təzyiq etməyin heç bir faydası yoxdur. Nüvə silahı isə, ümumiyyətlə, istisnadır.

**Birincisi,** Azərbaycan zəngin enerji ehtiyatlarına malikdir və Qərblə aktiv əməkdaşlıq edir. Hazırda Azərbaycanın enerji infrastrukturu olmadan, geniş bir məkanın enerji təhlükəsizliyi və deməli, milli təhlükəsizliyi ciddi risk altına düşür.

**İkincisi,** Rusiya ilə davam edən qarşıdurma fonunda Azərbaycanın geosiyasi, iqtisadi, energetik və tranzit aspektlərdə əhəmiyyəti bir neçə dəfə artır.

**Üçüncüsü,** Azərbaycan Gürcüstan və Ermənistanla həmsərhəddir və onlar Qərbin qorumalı olduğu ölkələrdir. Buna görə də Qərb "əzizləri"nin zərər görməsini istəməz.

**Dördüncüsü,** Azərbaycan Türk dünyasının qəlbidir. Ona hər hansı ciddi hərbi ziyan olsa, qarşı tərəf olduqca sərt hərbi reaksiya ilə üzləşəcək. Bu baxımdan Pakistanın nüvə silahına malik olması arxa plana atıla bilməz.

Bununla Azərbaycanla bağlı düşündürücü situasiya yaranmışdır: hibrid təsir yetərli deyil və həm də bu ölkənin aparıcı rol oynamasını, getdikcə daha güclü və inamlı olmasını, geniş bir geosiyasi məkanda yeni konfiqurasiyanın formalaşmasında əsas rollardan birini oynamasını, faktiki olaraq, özünəxas orta gücə çevrilməsini qəbul etmək istəməyənlər vardır.

## "Posthibrid" təzyiqlər

Hərbi güc tətbiqinin faydasız olduğuna tam əminlikdən sonra, bir sıra dairələr bütün imkanlarını informasiya texnologiyaları, süni intellektin imkanları və kibertəhdidlərə yönəltmişlər. Bunun üçün müxtəlif üsul, mexanizm və təsir variantları tətbiq edilir. Bütövlükdə Azərbaycan dövlətinin qurumları, siyasi, elmi və mədəni elita, cəmiyyətin müxtəlif kəsimləri, adət-ənənə, tarix, milli kimlik, digər türk dövlətləri ilə münasibətlər və digər mühüm sferalar hədəfə götürülmüşdür. Son 2 ildə isə daha çox Azərbaycan Prezidenti, ailəsi və yaxın ətrafı ilə bağlı informasiya, dezinformasiya, şantajçı, çaşdırıcı məlumatlar və süni quraşdırılmış görüntülər artmışdır.

Azərbaycan Prezidentinə qarşı bir sıra dairələrin bu cür qərəzli və qəbuledilməz üsullarla təsir etmək cəhdləri təsadüfi deyildir. Bunun bir neçə səbəbi olduğunu düşünürük, lakin başlıca məsələ İlham Əliyevin son dərəcə uğurlu, müasir, ədalətli, humanist lider olması ilə bağlıdır.

Azərbaycan Prezidenti indi dünya miqyasında davamlı olaraq uğurlu olan nadir liderlərdəndir. Avropa da daxil olmaqla geniş bir geosiyasi məkanda dövlət başçımız miqyasında, fəaliyyət dinamikasında və İlham Əliyev dərəcəsində uğurlu ola bilən ikinci lider gözə dəymir. Buna görə qarşı tərəf mümkün qədər geniş əhatədə şantajlara, böhranlara və informasiya təxribatlarına (yazılı və qondarılmış görüntülü) baş vururlar. Əsas hədəflər kimi xüsusi seçilmiş istiqamətlər də vardır.

## Ailə

Hər kəs bilir ki, Azərbaycan Prezidenti nümunəvi ailə başçısıdır. Ailəsinə çox qayğı və diqqət göstərir. Ailədə adət-ənənələrə, milliliyə ciddi əməl edirlər. Eyni zamanda, dünya səviyyəsində yüksək dəyərlərə malik insanlardırlar. Mehriban xanım Əliyeva həm özü dövlətin idarəedilməsində yüksək səviyyədə iştirak edir, həm də həyat yoldaşına çox ciddi dəstək verir. Daim Azərbaycan Prezidentinin yanındadır. Mehriban xanım həm də dünya miqyasında çox fəal xeyriyyəçi, mədəniyyət qoruyucusu və humanitarlığı ilə seçilən xadimdir.

Azərbaycan Prezidentinin ailəsinin hər bir üzvü yüksək mənəvi-əxlaqi keyfiyyətlərə, vətənsevərliyə, milli dəyərlərə yanaşı, ən müasir universal dəyərlərə sahibdir. Həm də dövlət başçısının övladları ictimai-mədəni proseslərdə aktiv iştirak edirlər.

Bütün bu keyfiyyətlərə görə bir sıra dairələr Azərbaycan Prezidentinin ailəsinə qarşı qətiyyən qəbuledilməz informasiya şantajları etməyə cəhdlər göstərirlər. Süni və qondarma görüntülərlə insanları çaşdırmağa çalışırlar. Və bu prosesin xüsusi siyasətlə idarə edildiyi hiss olunur.

## Prezidentin silahdaşları

Azərbaycan Prezidentinin fəaliyyətini bütövlükdə cəmiyyətimiz tam haqlı olaraq legitim və çox faydalı hesab edir. Dövlət başçısına güvən və etimad tamdır. Prezident İlham Əliyevin silahdaşları isə böyük sadiqlik, fəallıq və birlik nümayiş etdirirlər. Azərbaycanın hüdudlarından kənarda çoxlu sayda ölkələrin siyasi liderlərinin, mədəniyyət xadimlərinin, elmi elitaları və sadə vətəndaşların İlham Əliyevə böyük simpatiyaları sirr deyildir.

Avrasiyadan tutmuş Okeaniyaya qədər çox geniş geosiyasi məkanda İlham Əliyevin cəsarətli, ədalətli, humanist, beynəlxalq hüquq normalarına tam uyğun fəaliyyət göstərən əsl lider olduğunu qəbul edirlər. Ayrıca, Avropanın bir sıra güclü ölkəsinin başçıları İlham Əliyevə olan heyranlıqlarını açıq deyirlər.

Bütün bunların fonunda görünür ki, Azərbaycan Prezidentinin güclü komandası vardır. Ora daxil olan kadrlara qarşı informasiya təxribatları həmin səbəbdən istisna deyildir.

## Həmrəyliyə qarşı

İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan cəmiyyətinin həmrəyliyinə çoxları heyran qalırlar. Müharibə müddətində həm Ali Baş Komandana yüksək etimadı və inamı, həm də vətəndaşların ölkəni qorumaq qətiyyətini açıq gördülər. Azərbaycan Ordusundan bir nəfər də olsun fərarilik etmədi. Əksinə, Vətəni müdafiə üçün on minlərlə vətəndaş sıraya düzüldü. Bu birlik və coşqu təsirsiz ötüşmədi. Müəyyən dairələr Azərbaycan cəmiyyətinin müqəddəs dəyərlərini gözdən salmaqla bütövlükdə toplumun dəyərsizlik görüntüsünü yaratmağa cəhdlər etdilər və indi də etməkdədirlər. Müşahidələr göstərir ki, Azərbaycan cəmiyyətinin milli dəyərlərinə, mənəvi-əxlaqi kodlarına, siyasi və ziyalı elitanın ən yüksək keyfiyyətlərinə və bütövlükdə türk xalqlarının milli-mənəvi kodlarına qarşı hiyləgər və yaramaz təxribatlar törədənlər hələ də mövcuddurlar.

## Fəaliyyət üsulları

İndi iki istiqamətdən təsir etməyə çalışanlar vardır.

Birinci istiqamət xarici ölkələrdəki xüsusi informasiya-təxribat mərkəzlərinin istifadə etdikləri qrupların fəaliyyəti ilə bağlıdır. Onlar adətən Azərbaycan siyasi elitası haqqında müxtəlif süni görüntülər yaradır və onları həqiqət kimi təqdim etməyə çalışırlar.

İkincisi, Azərbaycanın daxilində müəyyən qruplar cəmiyyət və türk toplumları barədə əsassız və dezinformasiya xarakterli məlumatlar yayır, "təhlillər" aparır və "əsaslı proqnozlar" verirlər. Onlar son zamanlar daha çox Azərbaycan-Türkiyə münasibətlərinə kölgə salmağa çalışırlar. Onu vurğulayaq ki, Türkiyənin özündə bu cür fəaliyyət daha geniş vüsət almışdır və getdikcə daha "dərin sosial-mənəvi qatlar"da işləməyə çalışırlar.

Üçüncüsü, Azərbaycana qarşı "posthibrid" informasiya təsirinin həmişə geosiyasi "rəngi" olur. Yəni Azərbaycanı ciddi geosiyasi fiqur hesab edirlər və buna qarşı təxribatlara əl atırlar.

## İlkin nəticələr

Azərbaycan müasir mərhələdə "posthibrid informasiya müharibəsi"nin hədəflərindən biridir. Müxtəlif istiqamətlər və əhatəli şəkildə dövlət, ölkə və cəmiyyətə qarşı təxribat və dezinformasiya xarakterli məlumatlar yayırlar. Bu zaman, son illər süni intellektin imkanlarından yararlanırlar. Onlar fəaliyyətlərini ciddi işlənmiş siyasi kurslar, ideoloji doktrinalar və kibervasitələr ilə koordinasiya edirlər.

Nəticədə belə mənzərə yaranır ki, müəyyən dairələr Azərbaycana sistemli, asimmetrik və davamlı informasiya təsirləri göstərməkdədirlər. Azərbaycan daha da gücləndikcə və nüfuzu artdıqca, həmin dairələrin də şiddəti artır. Bunun səngiməsi ehtimalını çox aşağı qiymətləndiririk. Əksinə, Azərbaycan müstəqil dövlət kimi, TDT isə təşkilat olaraq daha da gücləndikcə, qarşı tərəfin yeni üsullara əl atacağı istisna deyildir.

Ayrıca, Azərbaycan orta güc kimi daha çox uğur qazanan, öz müsbət təsirini geniş geosiyasi məkana göstərən dövlət kimi qlobal miqyasda ziddiyyətli və mürəkkəb mübarizəyə dərindən cəlb olunur. Bunlara qarşı konkret strategiya çox lazımlıdır.

Eyni zamanda, TDT özünü yeni müstəqil geosiyasi güc kimi təsdiq etdiyi halda posthibrid təsirlərin yeni səviyyəyə yüksəlməyəcəyinə təminat yoxdur. Və bu məqamda siyasət, geosiyasət və informasiya savaşı daha ciddi şəkildə bir-biri ilə əlaqədə çıxış edəcəklər. Təbii ki, onun mədəniyyət, mənəviyyat və əxlaq sferalarına, adət-ənənələrə ciddi təhdidlər meydana gətirəcəyinə şübhə olmamalıdır.

Belə alınır ki, "posthibrid informasiya" ilə mübarizə dövlət üçün strateji əhəmiyyət kəsb edən məsələyə çevrilmişdir.

Bu, Qələbə strategiyası ola bilər! Onun əsas mahiyyətinin Azərbaycanın dövlət və ölkə kimi Qalibliyini cəmiyyətin Qalibliyinə proyeksiya etməklə sıx bağlı olması perspektivli olar! Liderin aparıcılığı və rəhbərliyi ilə dövlət-ölkə-cəmiyyət "üçlüyü"nün Qalib yaradıcı (kreativ) toplum formalaşdırmaq şansı çox artar!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# MDU-da elmi konfrans




**Mingəçevir Dövlət Universiteti, Psixologiya Elmi-Tədqiqat İnstitutu və "Müasir Azərbaycan Psixoloqları" İctimai Birliyinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "Psixologiyada multidisiplinar elmi-tədqiqatlar" mövzusunda konfrans keçirilib.**

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov məclisin əhəmiyyətini vurğulayaraq qeyd edib ki, müasir dövrdə psixoloji rifahın təmin olunması, ailə institutunun möhkəmləndirilməsi və cəmiyyətin dayanıqlı inkişafı baxımından elmi tədqiqatların rolu getdikcə artır. O, multidisiplinar yanaşmanın müxtəlif sahələr arasında inteqrasiyanı gücləndirdiyini, praktiki həllərin formalaşmasına töhfə verdiyini diqqətə çatdırıb və konfransın elmi nəticələrinin bölgənin sosial inkişafına müsbət təsir göstərəcəyinə əminliyini ifadə edib.

Mingəçevir Dövlət Universitetinin rektoru Anar Eminov konfransa 27 müəssisə və təşkilatdan, ümumilikdə, 265 elmi məqalə təqdim edildiyini və bunun psixologiya sahəsinə elmi marağın genişlənməsindən xəbər verdiyini vurğulayıb.

Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev qeyd edib ki, belə toplantılar ali təhsil müəssisələri arasında elmi dialoqun inkişafı, təcrübə mübadiləsinin genişlənməsi və ortaq tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsi baxımından xüsusi önəm daşıyır.

Psixologiya Elmi-Tədqiqat İnstitutun direktoru Elnur Rüstəmov diqqətə çatdırıb ki, regionda belə genişmiqyaslı tədbirin keçirilməsi psixologiya elminin inkişafı, elmi ictimaiyyətin bir araya gətirilməsi və aktual problemlərin müzakirəsi baxımından böyük əhəmiyyət kəsb edir. "Narınc Psixologiya Mərkəzi" MMC-nin təsisçisi, psixoloq Narınc Rüstəmova isə psixologiya elminin müasir cəmiyyət üçün artan əhəmiyyətindən bəhs edib.

*İlqar HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*

# AZURE layihəsinin yeni elektrik xətləri

**Bu ilin ikinci rübündə Azərbaycanda bərpaolunan enerji mənbələrinin genişləndirilməsi layihəsinin (AZURE) bir hissəsi olan yeni hava elektrikötürmə xəttinin tikintisinə başlanılacaq. İşlərin gələn ilin dördüncü rübünə qədər tamamlanması planlaşdırılır. Bu barədə məlumat layihə üzrə köçürülmə haqqında fəaliyyət planında yer alıb.**



Həmin plan AZURE çərçivəsində konkret olaraq 1.2-ci alt-komponent üzrə hazırlanıb. Sözügedən alt-komponent Azərbaycan İstilik Elektrik Stansiyasından Nəvai yarımstansiyasına qədər uzunluğu 235 kilometr, gərginliyi 500 kilovolt olan yeni təkzəncirli hava elektrik ötürmə xəttinin tikintisini nəzərdə tutur. Layihə tərəfindən dəstəklənən digər xətlər üzrə isə ayrıca sənəd hazırlanacaq.

Dünya Bankının dəstəyi ilə maliyyələşdirilən layihəyə "Nəvai" yeni yarımstansiyasının və yeni elektrikötürmə xətlərinin tikintisi daxildir. Yeni elektrikötürmə xətlərinin tikintisi çərçivəsində isə Ələt Azad İqtisadi Zonasını və "Abşeron" Külək Elektrik Stansiyasını "Nəvai" yarımstansiyası ilə birləşdirən 22 və 65 kilometrlik, eləcə də "Abşeron" Külək Elektrik Stansiyasını Qobu Elektrik Stansiyası ilə birləşdirən 19 kilometrlik (ümumi uzunluğu 106 kilometr) hava xətləri çəkiləcək.

Ümumilikdə, Dünya Bankı AZURE layihəsi çərçivəsində "Abşeron–Qaradağ" Külək Elektrik Stansiyasının şəbəkəyə qoşulması və elektrik ötürmə şəbəkəsinin genişləndirilməsi tədbirlərinə 355 milyon dollardan artıq vəsait ayıracaq.

500 kilovoltluq xəttin marşrutu isə Azərbaycanın mərkəzi və şərq hissələrində yerləşən 8 rayondan (Ağdaş, Ağsu, Göyçay, Hacıqabul, İsmayıllı, Mingəçevir, Şamaxı və Yevlax) keçəcək. Marşrut 64 yaşayış məntəqəsini və 44 qeyri-yaşayış ərazisini (örüş sahələri), ümumilikdə, 110 məkanı əhatə edir. Xətt, əsasən, düzən kənd təsərrüfatı ərazilərindən keçəcək. Həmin rayonlar üzrə servitut (özgəsinə məxsus torpaqdan nəqliyyat, kommunal və digər ehtiyaclar üçün istifadə imkanı) sahəsinin ümumi ölçüsü, təxminən, 8,13 milyon kvadratmetr təşkil edir. Bunun da 51 faizi özəl, 40 faizi dövlət, 9 faizi isə bələdiyyə torpaqlarına aiddir.

Layihə 1114 özəl torpaq sahibini, 22 rəsmi icarəçini və torpaq sahələri və ya aktivləri dayaq nöqtələrinin yerləşdiyi əraziyə və ya daimi servitut dəhlizinə düşən 11 biznes obyektini əhatə edəcək. Eyni zamanda, hüquqi statusundan asılı olmayaraq, ESS5 standartına uyğun kompensasiya hüququna malik olan dövlət və bələdiyyə torpaqlarından qeyri-formal istifadəçilər də müəyyən edilib.

Yeri gəlmişkən, yaşayış binaları layihənin icra zonasına düşmədiyindən əhalinin köçürülməsi tələb olunmur. Təsir yalnız iqtisadi xarakter daşıyacaq. Belə ki, layihənin icrası zamanı torpaq istifadəsinə məhdudiyyətlərin olacağı, tikinti dövründə müvəqqəti giriş itkilərinin, eləcə də kənd təsərrüfatı bitkilərinin, ağacların və bəzi hallarda qeyri-yaşayış tikililərinin itirilməsinin baş verəcəyi gözlənilir.

*XQ*

# Sahibkarlıq güclü iqtisadiyyatın aparıcı qüvvəsidir





**Aprelin 29-da İqtisadiyyat Nazirliyinin dəstəyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilatçılığı ilə Sahibkarlar Gününə həsr olunmuş "Sahibkarlığın inkişafı güclü iqtisadiyyatdır" mövzusunda görüş keçirilib. Məclisdə aidiyyəti dövlət qurumlarının rəhbər şəxsləri, sahibkarların ictimai birliklərinin nümayəndələri, eləcə də müxtəlif sahələrdə fəaliyyət göstərən iş adamları iştirak ediblər.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov, əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev, Milli Məclisin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov, KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, Azərbaycan Tikinti İstehsalçıları Assosiasiyası İdarə Heyətinin sədri Ramiz İsayev məclisdə nitq söyləyiblər. Çıxışlarda ölkə iqtisadiyyatının davamlı inkişafında, məşğulluğun təmin olunmasında özəl sektorun aparıcı rolu xüsusi vurğulanıb.

İlk olaraq, iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, iqtisadiyyatın şaxələndirilməsi strateji hədəflərimizin əsasını təşkil edir və artıq qeyri-neft-qaz sektoru iqtisadi artımın başlıca drayverinə çevrilib: "Həyata keçirilən məqsədyönlü iqtisadi siyasət nəticəsində Azərbaycan iqtisadiyyatında şaxələndirmə istiqamətində mühüm nəticələr əldə olunub. Qeyri-neft-qaz sektorunun ÜDM-də payı əhəmiyyətli dərəcədə artıb".

Bununla yanaşı, nazir iqtisadiyyatın şaxələndirilməsində, xarici iqtisadi siyasətdə, beynəlxalq iqtisadi tərəfdaşların ölkəmizə gəlməsində özəl sektorun rolunun da böyük olduğunu vurğuladı: "Azərbaycanın inkişafında vicdanla işləyən sahibkarlara təşəkkür edirik. Dövlət də daim sahibkarlığın, xüsusilə kiçik və orta biznesin genişləndirilməsi, rəqabətqabiliyyətli və ixracyönümlü sahələrin inkişafı üçün müxtəlif mexanizmlərlə dəstək göstərir. Sahibkarlıq fəaliyyətinin qlobal çağırışlar fonunda dayanıqlı inkişafının təmin edilməsi üçün bu mexanizmlər daha da genişlənəcək".

Daha sonra əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev öz nitqində Azərbaycanda bərabər dəyərli əməyə görə bərabər əməkhaqqı, saatlıq əməkhaqqı modelinin tətbiqi və uşaq hüquqlarının qorunması istiqamətində yeni islahatlar üzərində iş aparıldığını bildirdi: "Azərbaycanda əmək və məşğulluq sahəsində rəqəmsallaşma genişlənir, eyni zamanda, qanunvericilik bazası təkmilləşdirilir. Əmək müqavilələrinin 97 faizi artıq elektron qaydada rəsmiləşdirilir. İşəgötürənlərlə əməkdaşlıq çərçivəsində "Dost müfəttiş" layihəsi həyata keçirilir və bu layihə çərçivəsində müəssisələrdə diaqnostik qiymətləndirmələr aparılaraq cərimə tətbiq edilmədən çatışmazlıqların aradan qaldırılması üçün tövsiyələr verilir. Son illərdə əmək qanunvericiliyində geniş dəyişikliklər edilib. Belə ki, Əmək Məcəlləsinin 150-dən çox maddəsinə dəyişiklik olunub, ümumilikdə isə normativ-hüquqi aktlara 500-ə yaxın düzəliş edilib".

Digər tərəfdən, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) ilə bağlı maraqlı məlumatları diqqətə çatdırıb. Sədr bildirib ki, iştirak üçün 175 ölkəni təmsil edən 23 min 350 nəfər qeydiyyatdan keçib: "Bu proses getdikcə daha da intensivləşir. Çox sevindirici haldır ki, onların 13,3 faizi sahibkarlıq subyektlərini təmsil edir və bu da Dünya Şəhərsalma Forumu tarixində ən yüksək göstəricidir. Bu, eyni zamanda, iqtisadi artımın stimullaşdırılması, məşğulluğun artırılması və innovasiyanın inkişafı üçün mühüm mexanizmdir. Bu prosesdə sahibkarlar əsas hərəkətverici qüvvə kimi çıxış edirlər. Əminəm ki, dövlət və özəl sektorun səmərəli əməkdaşlığı nəticəsində Azərbaycan şəhərləri regionun ən müasir, dayanıqlı və rəqabətqabiliyyətli yaşayış mərkəzlərinə çevriləcək". Həmçinin qeyd olunub ki, kiçik və orta biznesin inkişafı iqtisadi siyasətin prioritetlərindəndir, dövlət-özəl sektor əməkdaşlığının davamlı olaraq genişlənir.

İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov nitqində agentliyin son 6 ildə KOB subyektlərinin sayının 74 faiz artaraq 424 mini keçdiyini bildirdi. Onun sözlərinə görə, bu dövrdə KOB-ların yaratdığı əlavə dəyərin məbləği 2 dəfədən çox artaraq 10 milyard manatdan 21 milyard manata çatıb, sektorun məşğulluq göstəricisi isə 47 faiz artım nümayiş etdirib: "Özəl sektorun inkişafı, mikro, kiçik və orta biznes subyektlərinin dəstəklənməsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Sahəvi görüşlər, regional müzakirələr, sorğular, bizneslərə birbaşa səfərlər vasitəsilə sıx ünsiyyət əsasında əldə edilmiş məlumat və ehtiyaclar sırf KOB subyektləri üçün ünvanlı dəstək mexanizmlərinin hazırlanmasına imkan verib. Ümumilikdə, 70 minə yaxın KOB subyekti və sahibkarlıq fəaliyyətinə başlamaq istəyən şəxslər bu dəstəklərdən yararlanıb. İndiyə qədər KOB evlərində 1,5 milyondan artıq xidmət göstərilib. KOB evinin rəqəmsal modeli olan Elektron KOB evi portalından da artıq istifadə etmək mümkündür".

Sonda Prezident İlham Əliyevə iştirakçılar adından müraciət qəbul olunub. Görüş bədii hissə ilə başa çatıb.

***Nurlan ABDALOV***
***XQ***

# Azərbaycan–BƏƏ enerji tərəfdaşlığı müzakirəsi



**Energetika naziri Pərviz Şahbazov Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Xarici İşlər Nazirliyinin dövlət naziri Səid bin Mübarək Əl-Hacirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Azərbaycan ilə BƏƏ arasında Hərtərəfli Strateji Tərəfdaşlıq çərçivəsində keçirilən görüşdə neft-qaz, bərpaolunan enerji, enerji səmərəliliyi, regional enerji dəhlizləri və logistika sahələrində əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Qeyd olunub ki, strateji xarakterli ikitərəfli əlaqələr dövlət başçıları arasında formalaşmış yüksək səviyyəli siyasi dialoq və dostluq münasibətlərinə əsaslanır. Xüsusilə enerji sektorunda birgə layihələrin, habelə iki ölkə arasında Hərtərəfli Strateji Tərəfdaşlıq üzrə Əməkdaşlıq Komitəsi və onun enerji üzrə alt-komitəsinin fəaliyyəti, ikitərəfli əməkdaşlığın inkişafında mühüm rolu vurğulanıb.

Görüşdə karbohidrogenlərin qlobal enerji balansında mühüm payı və təbii qazın keçid enerji mənbəyi kimi əhəmiyyəti müstəvisində enerji şirkətlərinin hər iki ölkədə iştirak etdiyi birgə layihələrin icrası, təbii qazın ixracı və mövcud infrastruktur vasitəsilə Avropa bazarlarına çıxış imkanları dəyərləndirilib. Eyni zamanda, 230 meqavatlıq "Qaradağ" Günəş Elektrik Stansiyası bərpaolunan enerji sahəsində əməkdaşlığın uğurlu nümunəsi kimi qeyd olunub. Söhbət əsnasında, həmçinin "Masdar" şirkəti ilə 1000 meqavat gücündə günəş və külək layihələrinin icrası istiqamətində işlərin davam etdiyi bildirilib.

Görüş zamanı, həmçinin Cənub Qaz Dəhlizinin modeli əsasında Azərbaycanla Avropa İttifaqı arasında Qara dəniz vasitəsilə elektrik enerjisi dəhlizinin yaradılması təşəbbüsü müzakirə edilib. Bildirilib ki, bu layihə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsi və enerji keçidi baxımından mühüm rol oynayacaq. Bundan əlavə, Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında elektrik enerjisi interkonnektoru üzrə yaradılmış Birgə Müəssisə barədə məlumat verilib. Layihənin hazırda texniki-iqtisadi əsaslandırma mərhələsində olduğu, Asiya İnkişaf Bankı və Asiya İnfrastruktur İnvestisiya Bankı tərəfindən maliyyələşdirildiyi bildirilib. BƏƏ ilə regional enerji təchizatı və logistika istiqamətləri üzrə əməkdaşlıq imkanları nəzərdən keçirilib.

Bununla yanaşı, enerji səmərəliliyi sahəsində əməkdaşlığın genişləndirilməsi məsələləri də diqqət mərkəzində olub. Bu çərçivədə ESCO modeli üzrə Birləşmiş Ərəb Əmirliklərinin qabaqcıl təcrübəsinin bölüşdürülməsi və bu sahədə yeni istiqamətlər üzrə əməkdaşlığın inkişaf etdirilməsi barədə razılıq əldə olunub.

***XQ***

# Tütün əkinlərinin də sığortalanmasına başlandı

**Azərbaycanda tütün əkini sahələri üzrə aqrar sığorta müqavilələrinin imzalanması dövrü başlayıb. Bu barədə XQ-yə Aqrar Sığorta Fondundan verilən məlumatda bildirilib ki, ölkəmizdə dövlət dəstəyi ilə təqdim edilən sərfəli aqrar sığorta mexanizmi bir sıra bitkiçilik məhsulları kimi, tütün sahələrini də çoxsaylı risklərdən qoruyur. Ölkədə tütünçülük sahəsində yüzlərlə fermer fəaliyyət göstərir və gəlir əldə edirlər. Aqrar sığorta mexanizmi fermerlərin gəlirlərini qorumağa imkan verir. 3,2 min hektar sahədə tütün becərilir, bunun 2,6 min hektarı ailə, fermer və kəndli təsərrüfatlarının payına düşür. Tütün sahələrindən hər il 8 min tondan artıq məhsul toplanır. Həmin məhsul ölkə daxilində tütün məmulatlarının istehsalı üçün xammal kimi istifadə edilir və dolayısı ilə ixraca dəstək verir.**



Tütün bitkisi, əsasən, Şəki–Zaqatala, Gəncə–Daşkəsən, Naxçıvan və Lənkəran–Astara iqtisadi rayonları üzrə, ümumilikdə, 9 rayonda becərilir. Əkin sahələrinin böyük hissəsi Şəki–Zaqatala regionunun payına düşür. Belə ki, hazırda Şəki rayonunda 1805 hektar, Qaxda 474 hektar, Zaqatalada 403 hektar, Oğuz rayonunda 177 hektar, Balakəndə 43 hektar, Qəbələdə isə 10 hektar ərazidə tütün əkilib. Bununla yanaşı, Goranboyda 180 hektar, Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunda 20 hektar, Masallı rayonunda isə 15 hektar sahədə tütün becərilir.

Hər hektardan orta məhsuldarlıq 27 tona bərabərdir. Bu sahədə ən yüksək məhsuldarlıq isə Balakən (35 ton) və Şəki (30 ton) rayonlarındadır. Ümumilikdə isə, hazırda ölkəmizdə yüzlərlə fermer və təsərrüfat tütün təsərrüfatı ilə məşğuldur. Onların və ailələrinin gəlirləri, eləcə də rifah səviyyəsi tütün sahələrindən toplanan məhsul və onun satışından birbaşa asılıdır.

Qeyd edək ki, təbiət hadisələrinə qarşı həssas olan tütün bitkisi müxtəlif səbəblərdən zərər görə bilər. Tütün sahələrinə ən çox dolu, sel-subasma, leysan yağışları və üçüncü şəxslərin hərəkətləri kimi hadisələr zərər vurur. Bundan əlavə, tütün məhsulu doludan keyfiyyət itkisi riskinə qarşı da həssasdır. Təkcə onu qeyd etmək kifayətdir ki, dolunun korladığı tütün yarpaqları keyfiyyətini itirdiyinə görə əvvəlki dəyərindən, təqribən, 3 dəfə ucuz satılır. Belə hallar nəticəsində fermerlər gəlirlərini itirə, hətta ağır borc yükü ilə üzləşə bilərlər. Aqrar sığorta mexanizmi isə bu vəziyyətdə fermerlərin gəlirlərini qorumağa imkan verir.

Məlum olduğu kimi, aqrar sığorta haqqının 50 faizi dövlət tərəfindən ödənildiyi üçün fermerlər tütün sahələrini olduqca sərfəli şərtlərlə sığortalaya bilərlər. Belə ki, 1 hektar sahədən orta hesabla 20 ton tütünün yığıldığını və məhsulun kiloqramının qiymətinin 0,3 manat olduğunu nəzərə aldıqda həmin sahədən toplanan məhsulun qiyməti 6 min manat təşkil edir. Şəki–Zaqatala bölgəsində bu həcmdə məhsulun çoxsaylı risklərdən sığortalanması isə fermerə cəmi 250-260 manata başa gələcək.

Aqrar sığorta mexanizmi çərçivəsində tütün sahələri üzrə fermer və təsərrüfatlara indiyədək, ümumilikdə, 186 min manat ödənişlər həyata keçirib. Bu ödənişlər Balakən, Qax, Şəki və Zaqatala rayonlarında tütün sahələrinə dolu, fırtına və sel-subasma hadisələri üzrə edilib. Sığorta ödənişləri bu il də davam etməkdədir.

Qeyd edək ki, tütün sahələrinin sığortası aprel ayında başlayır və may ayının sonunadək davam edir. Məhsulu vaxtında sığortalamaq onu daha çox riskdən, o cümlədən may ayında baş verən leysan yağışlardan qorumağa imkan verir. Bu səbəbdən də Aqrar Sığorta Fondu tütün becərən fermerləri öz məhsullarını qorumağa və sığortalamağa çağırır.

***M.YAQUBZADƏ***
***XQ***

**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev "Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında "yaşıl enerji"nin istehsalı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə" qanunu imzalayıb. Bu sənəd 2024-cü il noyabrın 13-də Bakıda keçirilən COP29 iqlim konfransı çərçivəsində 3 ölkənin dövlət başçıları tərəfindən imzalanıb.**

# Mərkəzi Asiya və Qafqazdan Avropaya enerji körpüsü

## *1155 kilometrlik sualtı kabel xətti "qoca qitə"yə "yaşıl enerji" nəql edəcək*

Üçtərəfli saziş təmiz enerji və onun səmərəliliyi sahəsində əməkdaşlığın dərinləşdirilməsini, həmçinin uzunmüddətli strateji tərəfdaşlığın möhkəmləndirilməsini nəzərdə tutur. Razılaşmaya əsasən, ekoloji baxımdan dayanıqlı hidrogen və ammonyak istehsalı və ticarəti üzrə birgə layihələrin həyata keçirilməsi, eləcə də bərpaolunan elektrik enerjisinin etibarlı və fasiləsiz şəkildə sərhədlərarası ötürülməsi üçün əlverişli mexanizmlərin yaradılması planlaşdırılır. Bununla yanaşı, tərəflər yaşıl elektrik enerjisinin sabit ötürülməsini təmin etmək məqsədilə texniki və kommersiya parametrlərinin müəyyənləşdirilməsi, enerji səmərəliliyini artıran müasir texnologiyaların tətbiqi və Avropa bazarına çıxış üçün zəruri infrastrukturun inkişafı istiqamətində əməkdaşlıq barədə razılığa gəliblər.



Azərbaycan, Özbəkistan və Qazaxıstanın enerji sistemlərinin inteqrasiyası strateji və tarixi əhəmiyyət daşıyan bir layihədir. "Xəzər Yaşıl Enerji Dəhlizi" təşəbbüsünə Asiya İnkişaf Bankı və Asiya İnfrastruktur İnvestisiya Bankının qoşulması layihənin icrası baxımından mühüm irəliləyiş hesab oluna bilər. "Xəzər Yaşıl Enerji Dəhlizi" təşəbbüsü Azərbaycan, Qazaxıstan və Özbəkistanın Asiya İnkişaf Bankı və Asiya İnfrastruktur İnvestisiya Bankı ilə əməkdaşlığı çərçivəsində dəstəklənir.

Bu əməkdaşlığın hüquqi bazası 2025-ci ildə Bakıda keçirilmiş müvafiq nazirlər və beynəlxalq maliyyə institutlarının iştirakı ilə imzalanmış anlaşma memorandumu ilə formalaşıb. Həmin sənəd layihənin texniki-iqtisadi əsaslandırmasının birinci mərhələsinin həyata keçirilməsini və maliyyələşdirilməsini nəzərdə tutur. Bundan əlavə, Memorandum Mərkəzi Asiyanın böyük bərpaolunan enerji potensialının aktivləşdirilməsinə və Azərbaycanın bu enerjinin Avropaya ötürülməsində əsas tranzit və inteqrasiya mərkəzi rolunu gücləndirməsinə xidmət edir.

COP29 ərəfəsində Astana, Bakı və Daşkənd arasında imzalanan bu saziş Xəzər regionunda "yaşıl enerji" istehsalı və ötürülməsi üzrə əməkdaşlığın hüquqi-siyasi əsasını formalaşdırır və gələcəkdə "Xəzər–Qara dəniz–Avropa Yaşıl Enerji Dəhlizi" kimi tanınan enerji layihəsinin inkişafına zəmin yaradır. Layihə çərçivəsində Xəzər hövzəsində istehsal olunan bərpaolunan enerjinin Azərbaycan üzərindən Gürcüstan istiqamətinə, oradan isə Qara dəniz vasitəsilə Avropa enerji sisteminə inteqrasiyası nəzərdə tutulur.

Qeyd etmək lazımdır ki, 2022-ci il dekabrın 17-də Buxarestdə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi üzrə strateji tərəfdaşlığa dair ayrıca saziş imzalanıb. Qara dəniz sualtı elektrik kabeli layihəsi regionun enerji sistemlərinin inteqrasiyası baxımından əsas infrastruktur komponenti hesab olunur. Layihə Azərbaycan və Gürcüstanı Rumıniya ilə birləşdirərək Cənubi Qafqaz və Cənub-Şərqi Avropanın enerji şəbəkələrini əlaqələndirməyi hədəfləyir. Sualtı kabelin, təxminən, 1155 kilometr uzunluğunda olması, 525 kV gərginlik və 1300 MVt ötürmə gücünə malik olması planlaşdırılır və 2032-ci ildə tamamlanması gözlənilir.

*

Hazırda bütün dünyada bərpaolunan enerjidən istifadə qlobal tendensiyaya çevrilib. Azərbaycan da, öz növbəsində, "yaşıl enerji"dən istifadəni əsas prioritet olaraq qarşıya qoyub. Azərbaycanın alternativ və bərpaolunan enerji potensialı kifayət qədər yüksəkdir. Ölkəmizin bərpaolunan enerji potensialı – quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çoxdur, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 qiqavat təşkil edir.

Son illərdə ölkədə "yaşıl enerji" istiqamətində ardıcıl və məqsədyönlü addımlar atılır. 2021-ci ildə Azərbaycan Prezidenti tərəfindən müvafiq sərəncamla "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi təsdiq olunub. Həmin sənədə uyğun olaraq növbəti onillik üçün ölkənin sosial-iqtisadi inkişafı üzrə beş əsas prioritet müəyyən edilib. Bu prioritetlərdən biri Azərbaycanın "təmiz ətraf mühitə və yaşıl artıma malik ölkə" kimi inkişafı ilə bağlıdır.

Bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirilir, o cümlədən ətraf mühitin yaxşılaşdırılması, yaşıllıqların bərpası və genişləndirilməsi, su ehtiyatlarının səmərəli idarə olunması, eləcə də dayanıqlı enerji mənbələrindən istifadənin artırılması üzrə işlər görülür. Eyni zamanda, ölkənin iqlim siyasətində konkret hədəflər də müəyyən edilib. Belə ki, 2030-cu ilə qədər istixana qazı emissiyalarının baza ili olan 1990-cı illə müqayisədə 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılması əsas məqsədlərdən biri kimi müəyyənləşdirilib.

Azərbaycan həm də dünyada "yaşıl enerji" sahəsində tanınmış xarici şirkətlərlə əməkdaşlıq edir. Səudiyyə Ərəbistanının "ACWA Power", BƏƏ-nin "Masdar", Yaponiyanın TEPSCO, eləcə də BP, "Nobel Energy" və Çin investorlarının iştirakı ilə günəş və külək elektrik stansiyalarının inşası ölkənin enerji sektoruna yeni nəfəs gətirir. "Masdar" şirkəti tərəfindən inşa edilən Qaradağ Günəş Elektrik Stansiyası Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasıdır. Stansiya 262 milyon ABŞ dolları dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş elektrik stansiyasıdır.

Bu il Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa edilmiş 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyası istismara verilib. Layihənin icrasına təxminən 340 milyon ABŞ dolları xarici investisiya yönəldilib. Stansiyanın illik enerji istehsalı həcmi təqribən 1 milyard kilovat-saat nəzərdə tutulur ki, bunun da nəticəsində 220 milyon kubmetr təbii qaza qənaət olunacaq və 400 min tondan çox karbon qazının atmosferə atılmasının qarşısı alınacaq. Bundan başqa, işğaldan azad edilmiş ərazilərdə – Cəbrayıl rayonunda hazırda üç Günəş elektrik stansiyası inşa edilir. Bu üç stansiyanın ümumi potensialı 340 meqavatdır.

Ümumilikdə, 2027-ci ilədək 10 günəş və külək elektrik stansiyasının tikintisinə 2,7 milyard ABŞ dollarından çox investisiyanın cəlb olunacağı proqnozlaşdırılır. Bu layihələr nəticəsində enerji sisteminə əlavə 2 giqavat güc qazandırılacaq. Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü iclaslarında vurğulayıb ki, 2032-ci ilə qədər alternativ enerji mənbələrindən 6–8 giqavat elektrik enerjisi əldə olunacağı gözlənilir.

***Musa BAĞIRLI***
***XQ***

# AİB ötən il ölkəmizə 58,8 milyon dollar ayırıb

**Asiya İnkişaf Bankı (AİB) 2025-ci ildə Azərbaycana, ümumilikdə, 58,8 milyon ABŞ dolları ayırıb. Bu barədə məlumat bankın illik hesabatında yer alıb.**

Sənəddə qeyd olunub ki, maliyyələşdirmənin əsas hissəsi adi kredit resurslarının payına düşüb və bu məbləğ 48,2 milyon dollar təşkil edib. Bunun 47 milyon dolları dövlət kreditləri şəklində, 1,2 milyon dolları isə Ticarətin və Təchizat Zəncirlərinin Maliyyələşdirilməsi Proqramı və Mikromaliyyələşdirmə Proqramı çərçivəsində ayrılıb. Hesabat dövründə Asiya İnkişaf Fondunun xətti üzrə isə ölkəmiz üçün vəsait ayrılması qeydə alınmayıb.

Bundan əlavə, AİB texniki yardım üzrə 2,9 milyon dollar təqdim edib. Həmin məbləğə texniki yardım üzrə xüsusi fondların və digər xüsusi təsisatların resursları daxildir. Əlavə dəstək texniki yardım və məsləhət xidmətləri mexanizmləri, eləcə də digər birgə maliyyələşdirmə alətləri vasitəsilə göstərilib və onların ümumi həcmi 7,7 milyon dollar təşkil edib.

"Azərbaycanın Asiya ilə Avropa arasında yerləşməsi ona regional nəqliyyat habı olmaq üçün böyük potensial verir, lakin köhnəlmiş dəmir yolu infrastrukturu bu potensialın tam gerçəkləşdirməsini məhdudlaşdırır. 2025-ci ildə AİB "Azərbaycan Dəmir Yolları"nın modernləşdirilməsi üçün 47 milyon dollar kredit ayırıb ki, bu da ölkənin iki əsas regional ticarət dəhlizi üzrə mövqelərini gücləndirəcək. Layihə yük axınlarının idarə olunması, aktivlərin idarə edilməsi, investisiya planlaşdırılması, müştəri informasiya sistemləri və korporativ idarəetmə daxil olmaqla əsas proseslərin rəqəmsallaşdırılmasını, həmçinin kadrların ixtisasının artırılması üçün müvafiq texniki yardımı nəzərdə tutur", – deyə bankın hesabatında bildirilib.

***XQ***

# Rəqəmsal keçidin əmək bazarına diktəsi

**Son illər süni intellekt texnologiyalarının sürətli inkişafı qlobal iqtisadi sistemdə köklü dəyişikliklərlə diqqət çəkir. Bu dəyişikliklərin ən çox hiss olunduğu sahələrdən biri isə əmək bazarıdır. Çünki müasir dövrdə artıq müasir texnologiya təkcə istehsal proseslərini deyil, həm də insan əməyinin strukturunu, iş münasibətlərini və peşə seçimlərini yenidən formalaşdırır. Bu, bir tərəfdən məhsuldarlığın artmasına, xərclərin azalmasına və innovasiyaların genişlənməsinə səbəb olsa da, digər tərəfdən iş yerlərinin azalması, sosial bərabərsizliyin daha çox nəzərə çarpması və əmək bazarında struktur dəyişikliyinin müşahidə olunması kimi ciddi narahatlıqlar yaradır.**

## İnsan – süni intellekt əməkdaşlığı

AMEA-nın vitse-prezidenti, akademik Rasim Əliquliyevin sözlərinə görə, süni intellektin əmək bazarına təsiri özünü, ilk növbədə, təkrarlanan və standartlaşdırılmış fəaliyyət sahələrində göstərir. Bu, iqtisadi nəzəriyyədə "rutin əməyin avtomatlaşdırılması" kimi tanınır. Hazırda kassir xidmətləri, məlumatların emalı, sadə mühasibat və ofis əməliyyatları kimi sahələrdə süni intellekt sistemlərinin tətbiqi getdikcə genişlənir. Bu prosesin yaxın gələcəkdə daha mürəkkəb və yüksək ixtisas tələb edən sahələrdə də müşahidə olunacağı gözlənilir. Beləliklə, əmək bazarında ənənəvi peşələrin bir hissəsi sıradan çıxmaqla bərabər, yeni peşə kateqoriyaları da formalaşır.

Süni intellektin inkişafı ilə formalaşan rəqəmsal əmək bazarı ənənəvi əmək bazarından əsaslı şəkildə fərqlənir. Artıq hər bir şəxs coğrafi məhdudiyyət olmadan qlobal miqyasda fəaliyyət göstərmək imkanına malikdir. Bu isə əmək bazarında rəqabəti artırmaqla yanaşı, yeni iş şəraiti də yaradır. Xüsusilə dil texnologiyalarının inkişafı bu sahədə mühüm rol oynayır. Belə ki, avtomatlaşdırılan tərcümə sistemləri dil maneələrini minimuma endirərək müxtəlif ölkələrdən olan mütəxəssislərlə əməkdaşlığı asanlaşdırır. Bu isə Azərbaycan kimi inkişaf etməkdə olan ölkələr üçün qlobal əmək bazarına inteqrasiya baxımından yeni perspektivlər açır.

Bu sistemin köklü şəkildə dəyişilərək daha yeni, təkmil bir formaya düşməsi prosesi ölkəmiz üçün olduqca mühüm önəm daşıyır. Milli Məclisdəki çıxışında Ombudsman Səbinə Əliyevanın süni intellekt texnologiyalarının tətbiqi nəticəsində potensial işdənçıxarmalar haqqında fikirləri də bu baxımdan diqqət çəkir. O, dövlətin bu dəyişiklərə indidən hazır olmasının zəruriliyini bildirir, eyni zamanda, işini itirmək narahatlığı ilə üzləşən vətəndaşların hüquqlarının qorunmasının gerçəkləşdirilməsini prioritet istiqamət kimi önə çəkir. Bu çağırış isə sosial müdafiə mexanizmlərinin gücləndirilməsini və yeni məşğulluq proqramlarının hazırlanmasını tələb edir.

Bu yanaşma bir daha göstərir ki, məsələ artıq yalnız texnoloji deyil, həm də sosial və hüquqi xarakter daşıyır. Azərbaycanda rəqəmsal transformasiya istiqamətində mühüm addımlar atılması da bunun parlaq ifadəsidir. Bu baxımdan yarandığı vaxtdan indiyədək uğurlu fəaliyyəti ilə fərqlənən və beynəlxalq aləmdə böyük nüfuzu ilə seçilən "ASAN xidmət" modeli dövlət xidmətlərinin rəqəmsallaşdırılması sahəsində uğurlu təcrübə kimi diqqət çəkir. Bununla yanaşı, ekspertlər hesab edirlər ki, əmək bazarının transformasiyası üzrə ayrıca strategiya hazırlanmalı, süni intellektin təsiri ilə bağlı risk xəritəsi tərtib olunmalı, nəhayət, dövlət – özəl sektor əməkdaşlığı gücləndirilməlidir.



**İnformasiya texnologiyaları mütəxəssisi Qabil Əsədov** süni intellektin ilk təsir göstərəcəyi sahələr sırasında çağrı mərkəzləri və müştəri dəstək xidmətləri, məlumatların daxil edilməsi və texniki mühasibat əməliyyatları, eləcə də standart hüquqi sənədlərin hazırlanması kimi istiqamətlərin yer alacağını vurğulayır. O, eyni zamanda, sadalanan bu sahələri birləşdirən əsas cəhətin yüksək dərəcədə təkrarlanan və strukturlaşdırılan fəaliyyət tipləri olduğuna görə, onları süni intellektin daha asan əvəz edə biləcəyini bildirir.

Qabil Əsədov xatırladır ki, Dünya İqtisadi Forumunun (DİF) apardığı araşdırmalar da süni intellektin əmək bazarına təsirinin miqyasını aydın şəkildə göstərir. Bununla bağlı DİF-in hazırladığı hesabatda sözügedən sistemin tətbiqi nəticəsində hazırda aşağı ixtisas tələb edən iş elanlarının, təxminən, 35 faiz azaldığı, sadə və rutin əməliyyatların sürətlə avtomatlaşdırıldığı, eyni zamanda, yeni məzunlar üçün iş tapmağın çətin olduğu, eləcə də şirkətlərin kadr hazırlığında problemlərlə üzləşdiyi vurğulanır.

Bütün bunlar əmək bazarında struktur dəyişikliklərinin artıq baş verdiyindən və bu prosesin sürətlə davam etdiyindən xəbər verir. Mövcud reallıq isə əmək bazarında nəzərəçarpan dəyişikliklərə uyğunlaşmanın əsas yolunun təhsil sisteminin modernləşdirilməsindən keçdiyini göstərir. Lakin bununla belə, artıq ənənəvi təhsil modelləri əmək bazarının tələblərinə tam cavab vermir. Ona görə də yeni dövrdə süni intellekt və proqramlaşdırma bilikləri, rəqəmsal savadlılıq, analitik – tənqidi düşüncə, problem həlletmə bacarıqları, eləcə də yaradıcılıq və innovativ yanaşma kimi prioritet istiqamətlərin gerçəkləşdirilmə zəruriliyi daha çox diqqət çəkir. Bu istiqamətlər üzrə bacarıqların formalaşdırılması insan kapitalının keyfiyyətini artırmaqla yanaşı, ölkənin rəqabət qabiliyyətini də gücləndirir.

## Sosial və hüquqi tənzimləmə

Süni intellektin əmək bazarına təsiri həm iqtisadi, həm də sosial və hüquqi cəhətdən qiymətləndirilməlidir. Bu baxımdan işçilərin yenidən hazırlıq proqramlarına cəlb edilməsi, şirkətlər üçün sosial məsuliyyət tələblərinin artırılması, əmək hüquqlarının qorunması, bir sözlə, işsizlikdən sığorta və sosial müdafiə sistemlərinin gücləndirilməsi ilə bağlı yeni qanunvericilik mexanizmlərinin yaradılması istiqamətində layihələrin gerçəkləşdirilməsi xüsusi önəm daşıyır.

**İnformasiya texnologiyaları üzrə ekspert Kamran Hüseynov** bu sahədə texnologiyanın tətbiqinin qarşısının alınmasının mümkünsüzlüyünü vurğulayır və əsas məsələnin bu dəyişiklikləri düzgün idarə etmək və insanları yeni reallıqlara uyğunlaşdırmaq olduğunu bildirir. Onun sözlərinə görə, müasir dövrdə insan və süni intellekt arasında rəqabətdən daha çox əməkdaşlıq modeli formalaşır. Süni intellekt insan əməyini tam əvəz etməkdən çox, onu tamamlayan və gücləndirən vasitə kimi çıxış edir.

Məsələn, analitik proseslərdə süni intellekt məlumatların emalını gerçəkləşdirir, insan isə qərar qəbulunu reallaşdırır, tibb sistemində diaqnostikaya kömək edir, həkim isə müalicə strategiyasını müəyyənləşdirir. Süni intellekt media sahəsində məlumat toplayır, jurnalist isə analitik məzmun yaradır. Bu yanaşma gələcəyin əmək bazarında ən uğurlu modelin "insan + texnologiya" sintezindən ibarət olacağını deməyə əsas verir.

Bütün qeyd edilənlər süni intellektin əmək bazarında inqilabi dəyişikliklər yaratdığını və bu prosesin artıq geridönməz xarakter daşıdığını sübuta yetirir. Qarşıdakı dövrdə isə əsas məsələ texnologiyanın inkişafını məhdudlaşdırmaq deyil, onu düzgün istiqamətləndirməkdən ibarətdir.

Yuxarıda diqqətə çatdırılan fikri konkretləşdirib demək olar ki, Azərbaycan üçün təhsil sisteminin modernləşdirilməsi, rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsi, insan kapitalına investisiyaların artırılması və sosial müdafiə mexanizmlərinin gücləndirilməsi prioritet istiqamətlər olmalıdır. Buna görə də süni intellekt nəinki risk, həm də böyük imkanlar mənbəyidir. Bu imkanlardan səmərəli yararlanan ölkələrin qlobal rəqabətdə üstün mövqe qazanacağı, uyğunlaşa bilməyənlərin isə geri qalmaq narahatlığı ilə üzləşəcəyi heç bir şübhə doğurmur. Əsas çağırış isə dəyişikliklərə hazır olmaq və bu transformasiyanın nəticəsi kimi özünü qabarıq büruzə verən insan amilini ön planda saxlayaraq idarə etməkdir.

## Texnoloji inqilabın yeni mərhələsi

Müasir dövrdə süni intellekt texnologiyalarının sürətli inkişafı qlobal iqtisadiyyatın strukturunu əsaslı şəkildə dəyişdirir. Bu dəyişikliklərin mərkəzində isə əmək bazarı dayanır. Artıq dünya ölkələri təkcə iqtisadi artım tempini deyil, həm də iş yerlərinin gələcəyini müzakirə edir. İndiyədək gəlinən nəticə isə budur ki, süni intellekt məhsuldarlığı artırır, xərcləri azaldır və qərar qəbuletmə prosesinin səmərəliyini yüksəldir. Lakin bu inkişaf, eyni zamanda, ənənəvi iş yerlərinin azalması və yeni sosial narahatlıqların yaranması ilə müşayiət olunur.

Dünya ölkələri bu transformasiyaya müxtəlif formalarda cavab verir. Məsələn, Almaniya nəzəri biliklərin təhsil müəssisəsində, gerçəkləşdirilən təcrübənin isə real iş yerində eyni vaxtda öyrədildiyi inteqrasiya olunmuş modelə əsaslanaraq mütəxəssis hazırlığını daim gücləndirir. Sinqapur ömürboyu təhsili maliyyələşdirir, ABŞ isə texnologiya şirkətləri vasitəsilə kadrların yenidən hazırlığını həyata keçirir. Bu modellərin ortaq xüsusiyyəti insan kapitalına davamlı investisiya yatırımıdır.

Bütün bu modelləri ümumiləşdirib demək olar ki, problemin əsas həll istiqamətləri yenidən hazırlıq proqramlarının genişləndirilməsi, rəqəmsal bacarıqların artırılması, təhsil sisteminin əmək bazarına uyğunlaşdırılması və şirkətlərin sosial məsuliyyətinin artırılması, nəhayət, iş yerlərini insanları dəyişən əmək bazarına uyğunlaşdırmaqdır.

Ekspertlər bildirirlər ki, yeni əmək modeli rəqabətə yox, süni intellektlə insanlar arasında sıx əməkdaşlığa əsaslanır. Müasir mərhələdə insan və süni intellekt arasında münasibətlər dəyişir. Hazırda bu münasibət rəqabətlə bağlı deyil, əməkdaşlıq üzərində qurulur. Beləliklə, süni intellekt məlumatları analiz edir, insan müəyyənləşdirilən qərarları gerçəkləşdirir, texnologiya sürəti artırır, fərd isə yaradıcılığı reallaşdırır. Bir sözlə, bu model gələcəyin iqtisadiyyatının əsasını şərtləndirir.

Beləliklə, əgər dövlət siyasəti, təhsil sistemi və əmək bazarı koordinasiyalı şəkildə, yəni qarşıya qoyulan məqsədə çatmaq üçün bir-biri ilə uyğunlaşdırılan, planlı və əməkdaşlıq çərçivəsində fəaliyyət göstərən prinsip əsasında fəaliyyət göstərərsə, bu transformasiya iqtisadi inkişaf üçün böyük imkanlara çevrilə, əks halda isə, sosial risklər və işsizlik problemləri dərinləşə bilər. Nəticədə, gələcəyin qalibləri texnologiyanı deyil, insan kapitalını inkişaf etdirən ölkələr olur.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Elvin ABBASOV,**
**informasiya texnologiyaları mütəxəssisi**

Son illərdə süni intellektin sürətli inkişafı əmək bazarında dəyişiklərə səbəb olub. Dünyanın bir çox ölkəsi artıq müxtəlif peşələrin avtomatlaşdırılması və bəzi iş yerlərinin texnoloji həllərlə əvəz edilməsini müzakirə edir. Bu proses məhsuldarlığın artımını təşviq etməklə yanaşı, müəyyən sektorlarda çalışanlar üçün iş yerlərinin itirilməsi narahatlığını da artırır.

Neyron şəbəkələrinin geniş istifadəsi ilə bağlı ilk işdən çıxarmalar, çox güman ki, təkrarlanan tapşırıqları olan sektorlara təsir edəcək. Bu gün rəsmi dairələrdə səsləndirilən fikirlər də süni intellektin əmək bazarına təsirinin hüquqi və sosial baxımdan qiymətləndirilməsini tələb edir.

İlk işdənçıxarmaların adi, təkrarlanan iş və böyük həcmdə məlumatların emalı ilə bağlı sektorlara təsir göstərəcəyi gözlənilir. Xüsusilə bu, müştəri dəstək xidmətlərinə (çağrı mərkəzləri), məlumatların daxil edilməsi operatorlarına, texniki mühasibat funksiyalarına və standart hüquqi sənədlərin hazırlanmasına aiddir.

Beynəlxalq şirkətlərlə sıx qarşılıqlı əlaqə və əməkdaşlıq ölkəmiz üçün yeni texnoloji imkanlar açır. Lakin bu keçid dövründə vətəndaşların əmək hüquqlarının qorunması üçün yeni tənzimləyici mexanizmlərin hazırlanması zəruridir. İşdən çıxarmaların qarşısının alınması üçün əsas strategiya isə işçilərin yenidən hazırlıq proqramlarına cəlb edilməsidir.

Süni intellekt tətbiq edən şirkətlərdən işçilərini işdən çıxarmazdan əvvəl onlara təlim və yeni rəqəmsal bacarıqlar vermələrini tələb edən qanunvericilik çərçivəsi yarada bilərik. Məsələn, əvvəllər texniki hesabatlar hazırlayan bir işçi süni intellekt sistemləri tərəfindən yaradılan nəticələrin təhlilini aparan mütəxəssisə çevrilə bilər. Bu yanaşma iş yerlərinin qorunmasına və ölkədə rəqəmsal savadlılığın ümumi səviyyəsinin yaxşılaşdırılmasına kömək etmək imkanı yaradır.

Dövlətin tənzimləyici rolu təhsil sisteminin yeni əmək bazarının tələblərinə çevik uyğunlaşmasında və sosial müdafiə mexanizmlərinin gücləndirilməsində özünü göstərməlidir. Eyni zamanda, hər bir vətəndaş rəqəmsal bacarıqlarının davamlı öyrənilməsinə və inkişaf etdirilməsinə çalışmalıdır.

---

*"Şəhərsalma və Memarlıq İli"*

# Çağdaş memarlığın "yaşıl" hədəfləri

## *Yaxud "boğulan şəhərlər"in nicat yolu*

**XXI əsrdə memarlıq və şəhərsalma daha çox texnologiya və innovasiya ilə bağlıdır. Müasir memarlıq həm funksional, həm də vizual olaraq cəlbedici olmalıdır. Şəhərsalma isə yalnız binaların yerləşdirilməsi deyil, həm də insanların rahat və təhlükəsiz yaşaması üçün kompleks planlaşdırmanı nəzərdə tutur.**

Müasir şəhərsalmanın hədəfi ətraf mühitlə ahəngdar, ekoloji dayanıqlı və insanyönümlü yaşayış mühiti yaratmaqdır. Belə yanaşma "yaşıl tikinti", "ağıllı şəhər" texnologiyaları, enerji səmərəliliyi, su resurslarının qorunması və yaşıllıq zonalarının artırılması ilə ekoloji tarazlığa xidmət edir. Əsas məqsəd yüksək həyat keyfiyyəti və davamlı gələcəkdir.

Şəhərsalma təkcə binaların və yaşayış məkanlarının inşası ilə məhdudlaşmır. Bu sahə, eyni zamanda, insanların həyat keyfiyyətinin yüksəldilməsi, sosial-iqtisadi inkişafın təmin olunması, ekoloji tarazlığın qorunması və dayanıqlı gələcəyin qurulması baxımından mühüm rol oynayır. Məhz bu yanaşma Azərbaycanda son illərdə, xüsusilə də azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı şəhərsalma layihələrində aydın şəkildə hiss olunur. Müasir şəhərsalma şəhər məkanının iqtisadi, sosial və ekoloji məqsədlər əsasında planlı şəkildə təşkili prosesidir. Ətraf mühit isə insan fəaliyyəti ilə qarşılıqlı əlaqədə olan təbii və antropogen sistemlərin məcmusudur.



**Coğrafiya üzrə fəlsəfə doktoru Rövşən Abbasov XQ-yə** bildirdi ki, bu iki sahə arasında əlaqə sürətli urbanizasiya və iqlim dəyişikliyi fonunda daha da güclənmişdir. Qarşıdan gələn "World Urban Forum (WUF13)" bu sahədə qlobal müzakirələr üçün əsas platformalardan biridir və şəhərlərin gələcək inkişaf istiqamətlərini müəyyənləşdirmək baxımından mühüm rol oynayır. Azərbaycan üçün bu forum urbanizasiya problemlərini beynəlxalq kontekstdə qiymətləndirmək və uyğun siyasətlər formalaşdırmaq imkanı yaradır.

## Şəhərsalma çağırışları

Müasir şəhərlərin sürətlə genişlənməsi nəticəsində ciddi ekoloji problemlərin yarandığını qeyd edən R.Abbasov diqqətə çatdırdı ki, hava çirklənməsi, su ehtiyatlarının azalması, torpaq deqradasiyası və biomüxtəlifliyin itirilməsi bu problemlərin əsasını təşkil edir.

Azərbaycan şəraitində bu problemlər xüsusilə Bakı və Abşeron yarımadasında daha qabarıqdır. Çirklənmə və plansız urban genişlənmə şəhər mühitinə əlavə təzyiq yaradır. Bundan başqa, Bakı kimi şəhərlərdə tez-tez müşahidə olunan istilik adası effekti konkret hallarda daha aydın görünür. Məsələn, yay aylarında şəhərin mərkəzi hissələrində, xüsusilə sıx tikilmiş ərazilərdə (məsələn, Nizami küçəsi ətrafı, "28 May" və "İçərişəhər" zonaları) temperatur şəhər kənarlarına nisbətən bir neçə dərəcə yüksək olur. Bunun əsas səbəbi asfalt və beton səthlərin günəş radiasiyasını udaraq istiliyi saxlamasıdır.

Digər konkret nümunə, geniş asfalt örtüklü yollar və park yerləridir. Gün ərzində bu səthlər yüksək temperatur toplayır və gecə saatlarında belə istiliyi buraxaraq şəhərin soyumasını ləngidir. Bu isə gecə temperaturunun yüksək qalmasına və insanların komfort səviyyəsinin aşağı düşməsinə səbəb olur. Çoxmərtəbəli binaların sıx yerləşdiyi yeni yaşayış massivlərində də hava dövranı zəifləyir. Nəticədə istilik yığılır və bu ərazilərdə kondisioner istifadəsi artır. Bu isə elektrik enerjisinə tələbatı yüksəldir və dolayı yolla daha çox istixana qazı emissiyasına səbəb olur.

Yay aylarında elektrik yüklənməsinin əsas səbəblərindən biri məhz kondisionerlərin intensiv istifadəsidir. Bu hal enerji sisteminə əlavə təzyiq yaradır və uzunmüddətli perspektivdə həm iqtisadi, həm də ekoloji problemləri dərinləşdirir. Sürətli və bəzən plansız urbanizasiya nəticəsində infrastruktur əhali artımına uyğunlaşa bilmir. Xüsusilə Bakı şəhərində bu, nəqliyyat sıxlığı, qeyri-kafi drenaj sistemləri və tikintilərin artması kimi problemlərdə özünü göstərir. Şəhər ərazilərində yaşıllıq sahələrinin azalması və torpaq örtüyünün betonlaşması isə ekoloji tarazlığı pozur və şəhər istilik adası effektini gücləndirir.

Son dövrlər Bakıda müşahidə olunan daşqın hadisələri bu problemlərin nə qədər kritik olduğunu göstərir. Güclü yağıntılar zamanı suyun effektiv şəkildə axıdılmasını təmin edən sistemlərin yetərsizliyi nəticəsində şəhər küçələrində su yığılması baş verir. Bunun əsas səbəbləri arasında köhnəlmiş kanalizasiya infrastrukturu, köhnə yağış suyu drenaj sistemləri, betonlaşma səbəbindən torpağın suyu udma qabiliyyətinin azalması, plansız tikinti və iqlim dəyişkənliyi nəticəsində intensiv yağıntıların artması qeyd olunur. Plansız tikintilərin ciddi artımı, xüsusilə, Bakı və Sumqayıt şəhərləri ətrafında, Masazır, Saray, Pirşağı, Mərdəkan və Fatmayı kimi ərazilərdə daha çoxdur. Nəticədə, hətta qısamüddətli yağışlar zamanı bu ərazilərdə subasmalar müşahidə olunur.

## Dayanıqlı şəhərsalma

Dayanıqlı şəhərsalma şəhərlərin uzunmüddətli perspektivdə həm iqtisadi inkişafını, həm sosial rifahını, həm də ekoloji tarazlığını təmin etməyə yönəlmiş yanaşmadır. Bu yanaşma şəhəri yalnız fiziki infrastruktur deyil, kompleks və qarşılıqlı əlaqəli sistem kimi qəbul edir. Bu çərçivədə yaşıl infrastrukturun inkişafı xüsusi əhəmiyyət kəsb edir. Parklar, yaşıllıqlar və yaşıl damlar yalnız estetik məqsəd daşımır, eyni zamanda, hava keyfiyyətini yaxşılaşdırır və temperaturu tənzimləyir. Bununla yanaşı, inteqrə olunmuş su idarəetməsi şəhərlərin iqlim risklərinə qarşı dayanıqlılığını artırır. Xüsusilə yağış sularının idarə olunması, toplanması, saxlanması, təkrar istifadəsi və axınının tənzimlənməsi, daşqın risklərinin azaldılmasında və su resurslarının səmərəli istifadəsində mühüm rol oynayır. Bu məqsədlə keçirici səthlər, yağış bağları (rain gardens) və yeraltı su toplama sistemləri kimi həllər tətbiq oluna bilər.

Nəqliyyat sahəsində isə davamlı modellərə keçid əsas prioritetdir. İctimai nəqliyyatın inkişafı və alternativ nəqliyyat vasitələrinin təşviqi şəhərlərdə emissiyaların azalmasına və həyat keyfiyyətinin yüksəlməsinə gətirib çıxarır. Bu yanaşmalar UN-Habitat tərəfindən dəstəklənən qlobal prinsiplərlə uyğunluq təşkil edir.



## Azərbaycanın "yaşıl" memarlığa töhfəsi

Azərbaycan üçün dayanıqlı şəhərsalma yanaşmaları ölkənin spesifik ekoloji və urban reallıqları nəzərə alınmaqla formalaşdırılmalıdır. Xüsusilə Abşeron yarımadasında uzun illər davam edən sənaye fəaliyyəti nəticəsində yaranmış çirklənmiş ərazilər bu sahədə əsas problemlərdən biridir. Bu ərazilərin reabilitasiyası yalnız ekoloji vəziyyəti yaxşılaşdırmır, eyni zamanda, yeni urban inkişaf zonalarının yaradılmasına imkan verir.

Bu kontekstdə yağış sularının idarə olunması prioritet məsələyə çevrilir. Müasir yanaşmalar çərçivəsində yağış sularının toplanması, saxlanması və təkrar istifadəsi sistemlərinin tətbiqi vacibdir. Keçirici səthlər, yaşıllıq zonaları və "yaşıl drenaj" həlləri daşqın risklərinin azaldılmasına kömək edə bilər. Xəzər sahili boyunca ekosistemlərin qorunması və şəhər daxilində yaşıllıq sahələrinin genişləndirilməsinin həm ekoloji, həm də sosial faydaları var. Nəqliyyat sahəsində isə davamlı sistemlərin tətbiqi hələ də əsas çağırışlardan biridir. Böyük şəhərlərdə ictimai nəqliyyatın optimallaşdırılması və alternativ nəqliyyat vasitələrinin inkişafı həm sıxlığı, həm də çirklənməni azaltmağa kömək edə bilər.

Dünya Şəhərsalma Forumu (WUF13) Azərbaycanın şəhərsalma sahəsində beynəlxalq səviyyədə inteqrasiyası üçün mühüm platformadır. Bu forum vasitəsilə ölkə həm öz təcrübəsini təqdim edir, həm də digər ölkələrin uğurlu yanaşmalarını öyrənir. Belə platformalar milli siyasətlərin inkişafına da təsir göstərir. Qlobal təcrübələrin tətbiqi şəhərsalma strategiyalarının daha effektiv və sistemli olmasına şərait yaradır.

Bununla yanaşı, forumda "yaşıl şəhər" yanaşmaları xüsusi yer tutur. "Yaşıl şəhər" şəhər mühitində təbii resursların qorunması, emissiyaların azaldılması və insanların həyat keyfiyyətinin artırılması məqsədilə ekoloji əsaslı planlaşdırma modelidir. Bu kontekstdə şəhərlərdə yaşıllıq sahələrinin artırılması, ağaclandırma proqramlarının genişləndirilməsi və ekoloji koridorların yaradılması biomüxtəlifliyin qorunmasına birbaşa təsir göstərir.

Biomüxtəliflik şəhər ekosistemlərinin davamlılığı üçün əsas elementlərdən biridir. Lakin urbanizasiya nəticəsində təbii yaşayış mühitlərinin azalması, torpaq örtüyünün dəyişməsi və çirklənmə şəhərlərdə flora və fauna müxtəlifliyinin azalmasına səbəb olur. Bu baxımdan, şəhərsalma siyasətlərində biomüxtəlifliyin qorunması yalnız ekoloji deyil, həm də sosial və iqtisadi baxımdan əhəmiyyətlidir. Məsələn, şəhər parkları, sahilyanı zonalar və yaşıl infrastruktur həm rekreasiya funksiyası daşıyır, həm də ekosistem xidmətlərini təmin edir. Bundan əlavə, forum beynəlxalq təşkilatlarla əməkdaşlıq imkanlarını genişləndirir. Bu əməkdaşlıqlar texniki biliklərin ötürülməsi və maliyyə resurslarına çıxış baxımından xüsusi əhəmiyyət kəsb edir və iri miqyaslı urban layihələrin həyata keçirilməsini asanlaşdırır.

Müasir şəhərsalma və ətraf mühit arasında əlaqə strateji əhəmiyyət daşıyır. Şəhərlər yalnız iqtisadi inkişaf mərkəzləri deyil, həm də iqlim dəyişikliyi ilə mübarizənin əsas platformalarıdır. Eyni zamanda, "yaşıl şəhər" yanaşmaları və biomüxtəlifliyin qorunması bu mübarizənin əsas istiqamətlərindən biri kimi çıxış edir. Azərbaycan üçün əsas məqsəd dayanıqlı, inklüziv və ekoloji baxımdan balanslı şəhər modellərinin tətbiqidir. Dünya Şəhərsalma Forumu kimi beynəlxalq platformalar isə bu istiqamətdə bilik mübadiləsi, innovativ yanaşmaların inkişafı və ekoloji problemlərin, xüsusilə biomüxtəlifliyin azalması və urban mühitin deqradasiyası kimi çağırışların həlli üçün mühüm imkanlar yaradır.

***Mustafa KAMAL***
***XQ***

# Cəmiyyət sel və daşqınlar qarşısında köməksiz deyil

## *85,8 milyon manatlıq dövlət dəstəyinin sosial-iqtisadi önəmi*



**Son illər dünyada iqlim dəyişikliklərinin sürətlənməsi təbii fəlakətlərin intensivliyini artırmaqla yanaşı, onların yaratdığı sosial-iqtisadi fəsadları da ağır və genişmiqyaslı edir. Qlobal miqyasda müşahidə olunan bu vəziyyət ölkəmizdən də yan keçmir. Xüsusilə leysan xarakterli yağışların artması, qısa müddətdə böyük su kütlələrinin yaranması və nəticədə sel və daşqınların baş verməsi həm paytaxtda, həm də bölgələrdə narahatlıqlar yaradır.**

Məhz bu reallıq fonunda Prezident İlham Əliyevin 28 aprel 2026-cı il tarixli "Sel və daşqınların təhlükəli və zərərli təsirlərinə qarşı mübarizə ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamı ölkənin təbii fəlakətlərə qarşı mübarizə strategiyasında mühüm mərhələ kimi dəyərləndirilə bilər. Sənəd həm mövcud fəsadların aradan qaldırılmasına yönəlmiş operativ dövlət dəstəyi, həm də gələcək təhlükələrin azaldılması baxımından sistemli yanaşmanın bariz nümunəsidir.

Sərəncamda qeyd edildiyi kimi, cari ilin mart–aprel aylarında ölkə ərazisində müşahidə olunan güclü leysan yağışları və yaranan sel suları Bakı şəhərində və Azərbaycanın müxtəlif bölgələrində böyük dağıntılara səbəb olub. Nəticədə, kənd təsərrüfatına, yol və körpü infrastrukturuna, elektrik təsərrüfatına, su-kanalizasiya sistemlərinə, eləcə də yaşayış evlərinə ciddi ziyan dəyib.

Belə hallar yalnız maddi itkilərlə məhdudlaşmır. Sel və daşqınlar həm də insanların həyatına və sağlamlığına təhlükə yaradır, yaşayış məntəqələrində sosial gərginlik formalaşdırır, kommunikasiya xətlərini sıradan çıxarır, regionların iqtisadi fəaliyyətini zəiflədir. Xüsusilə aqrar sektorda əkin sahələrinin su altında qalması, məhsul itkisi və mal-qaranın tələf olması kənd yerlərində yaşayan əhalinin gəlirlərinə birbaşa təsir edir.

Bakı şəhərində isə intensiv yağışlar fonunda küçə və prospektlərin su ilə dolması, tunellərin və yeraltı keçidlərin təhlükəli vəziyyətə düşməsi, bəzi yaşayış binalarının zirzəmilərini su basması urban infrastrukturun iqlim çağırışlarına tam hazır olmadığını bir daha gündəmə gətirdi.

Xatırladaq ki, Fövqəladə Hallar Nazirliyi və digər aidiyyəti dövlət qurumları tərəfindən mövcud vəziyyətin təhlili aparılıb, operativ və təxirəsalınmaz tədbirlər görülüb. Su basmış ərazilərdən suların çəkilməsi, sel və daşqın sularının maneəsiz ötürülməsi üçün müvəqqəti kanalların açılması, əhalinin təxliyəsi və təhlükəsizliyinin təmin edilməsi istiqamətində ardıcıl işlər həyata keçirilib.

Bu mərhələdə əsas prioritet insan həyatının qorunması, təhlükə zonasından vətəndaşların çıxarılması və dağıntıların daha geniş miqyas almasının qarşısının alınması idi. Eyni zamanda, yolların açılması, körpülərin müvəqqəti bərpası, elektrik və su xətlərinin yenidən istifadəyə verilməsi üçün təmir-tikinti tədbirləri görülüb.

Təbii fəlakətlər zamanı dövlət strukturlarının çevikliyi birbaşa olaraq itkilərin miqyasını müəyyən edir. Bu baxımdan Azərbaycan dövlətinin hadisələrə operativ reaksiya verməsi və ilkin mərhələdə ciddi insan tələfatının qarşısının alınması diqqətçəkən amillərdən biridir.

Sərəncamla sel və daşqınların fəsadlarının aradan qaldırılması ilə bağlı işlərin davam etdirilməsinin vacibliyi nəzərə alınaraq Bakı şəhərində və Azərbaycanın müxtəlif bölgələrində bu səbəbdən dəyən zərərin fəsadlarının aradan qaldırılması istiqamətində görülən işlərin davamlılığının gerçəkləşdirilməsi, habelə gələcəkdə analoji halların təkrarlanmaması üçün Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulan Prezidentin ehtiyat fondundan, ümumilikdə, 85 milyon 869 min 260 manat, o cümlədən Fövqəladə Hallar Nazirliyinə 8 milyon 876 min 210 manat, Bakı Şəhər İcra Hakimiyyətinə 1 milyon 437 min 315 manat, Dövlət Su Ehtiyatları Agentliyinə 21 milyon 443 min 875 manat, Avtomobil Yolları Dövlət Agentliyinə 39 milyon 103 min 600 manat və "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinə 15 milyon 8 min 260 manat vəsait ayrılıb.

Bu bölgü onu göstərir ki, sərəncam yalnız bir sahəni deyil, fəlakətin təsir etdiyi bütün istiqamətləri əhatə edir. Yəni söhbət təkcə dağıntıların aradan qaldırılmasından yox, bütövlükdə, infrastrukturun bərpasından, sosial müdafiə tədbirlərindən və mühəndis-kommunikasiya sistemlərinin yenilənməsindən gedir.

Ayrılan maliyyə vəsaiti zərər çəkmiş əhalinin evlərinin bərpası, yeni fərdi yaşayış evlərinin tikintisi, yol və körpü infrastrukturunun təmiri, elektrik və su xətlərinin yenidən qurulması, həmçinin kompensasiya ödənişlərinin həyata keçirilməsi üçün istifadə olunacaq. Bu, təkcə maddi dəstək deyil, eyni zamanda, dövlətin vətəndaşa münasibətinin sosial mahiyyətini göstərən siyasi və humanitar addımdır. Çünki təbii fəlakət zamanı vətəndaşın əsas gözləntisi yalnız ziyanın hesablanması deyil, onun həyatının normal axarına qaytarılmasıdır. Evini itirmiş və ya ciddi ziyan görmüş ailə üçün kompensasiya və bərpa tədbirləri sadəcə maliyyə məsələsi yox, həm də sosial sabitliyin təminatıdır.

Dünyanın bir çox ölkələrində oxşar təbii fəlakətlər baş verdikdə zərərçəkənlərə yardım mexanizmləri uzun müddət bürokratik prosedurlarla uzanır, vəsaitin ayrılması gecikir və nəticədə əhali aylarla çətin vəziyyətdə qalır. Bəzi hallarda isə yardımın həcmi real zərəri kompensasiya etməyə yetmir. Azərbaycanda isə dövlət başçısının birbaşa sərəncamı ilə maliyyə resursları dərhal səfərbər edilir, icra mexanizmi işə salınır və bərpa işlərinə operativ başlanılır.

Bu yanaşma dövlət idarəçiliyində çevikliyin və effektivliyin göstəricisi olmaqla yanaşı, sosial məsuliyyətin də mühüm elementidir. Eyni zamanda, ayrılan vəsaitin konkret qurumlar üzrə dəqiq bölgüsü icra prosesində koordinasiyanın daha yüksək səviyyədə təşkilinə imkan yaradır. Beləliklə, sel və daşqınlara qarşı həyata keçirilən tədbirlər həm sosial rifahın qorunması, həm infrastruktur təhlükəsizliyinin gücləndirilməsi, həm də iqlim dəyişiklikləri şəraitində ölkənin dayanıqlılığının artırılması baxımından mühüm strateji əhəmiyyət kəsb edir.

***V.BİNYATOĞLU***
***XQ***

---

*Təbiət imdada çağırır bizi*

# Astanada Xəzər müzakirələri

## *Dənizin dərinləşən ekoloji problemləri ən kəskin çağırışa çevrilib*

RES 2026
REGIONAL ECOLOGICAL SUMMIT

**Astanada yekunlaşan Regional Ekoloji Sammit (RES-2026) Xəzər dənizinin taleyi ilə bağlı kritik bir dövrün başlandığını göstərdi. Dəniz səviyyəsinin son onilliklərdə tarixi minimum həddə enməsi artıq sadəcə ekoloji narahatlıq deyil, regionun iqtisadi təhlükəsizliyini birbaşa təhdid edən geosiyasi faktora çevrilib. Bu çərçivədə sammitdə çıxış edən Azərbaycanın Baş naziri Əli Əsədov Xəzərin sürətlə dayazlaşmasını region üçün "ən kəskin çağırış" adlandıraraq, problemin həllində birgə regional fəaliyyətin qaçılmazlığını vurğulayıb.**

Rəsmi Bakının mövqeyinə görə, dənizin ekosisteminə mənfi təsir göstərən qlobal amillərə qarşı fərdi mübarizə yetərsizdir və bu, sahilyanı dövlətlərin səylərinin mütləq şəkildə birləşdirilməsini tələb edir. Bu baxımdan, Azərbaycanın təşəbbüsü ilə Qazaxıstan, Rusiya və Türkmənistanla yaradılmış ikitərəfli işçi qrupları, faktiki olaraq, əməkdaşlığın ilk mühüm institusional modelidir. Həmin qrupların prioritet vəzifəsi dayazlaşma səbəblərini elmi əsaslarla tədqiq etmək və təxirəsalınmaz preventiv tədbirlər hazırlamaqdır.

Əli Əsədovun əməkdaşlıq çağırışları və Azərbaycanın atdığı konkret addımlar bir daha təsdiqləyir ki, Xəzərin ekoloji təhlükəsizliyi birbaşa dövlətlərarası inteqrasiyanın və kollektiv məsuliyyətin gücləndirilməsindən keçir. Belə bir sistemli yanaşma iqlim dəyişikliyinin fəsadlarını minimuma endirmək və regionun ekoloji gələcəyini qorumaq üçün yeganə təsirli yoldur.

Baş nazirin əməkdaşlıq çağırışları və Azərbaycanın bu istiqamətdə atdığı konkret addımlar göstərir ki, Xəzər dənizinin və bütövlükdə regionun ekoloji təhlükəsizliyi dövlətlərarası inteqrasiyanın və kollektiv məsuliyyətin gücləndirilməsindən keçir.

Lakin indiki şəraitdə tərəflər arasında dəqiq fəaliyyət planı yoxdur. Müzakirələrin uzunmüddətli monitorinq proqramları ilə əvəzlənməsi, faktiki olaraq, qərarların təxirə salır. Halbuki mövcud dinamika göstərir ki, zaman faktoru kritik həddə çatıb. Əgər səviyyənin enməsi eyni templə davam edərsə, yaxın onillikdə ekosistemdə geridönməz dəyişikliklər baş verəcək. Bu baxımdan bəzi iştirakçıların prosesi "təbii dalğalanma" kimi təqdim etməsi və passiv gözləmə mövqeyi tutması ciddi risk yaradır. Bu yanaşma məsuliyyəti azaltmağa xidmət etsə də, real vəziyyəti dəyişmir. Xüsusilə Volqa çayı ilə bağlı geosiyasi çətinliklər yaradır.

Qeyd edək ki, Xəzərin hidroloji sistemində Volqa çayının rolu həlledicidir. Dənizə daxil olan suyun böyük hissəsi məhz bu çay vasitəsilə təmin edilir. Bu fakt Rusiyanı problemin əsas iştirakçısına çevirir. Lakin Volqanın milli resurs kimi qəbul edilməsi və onun idarə olunmasının daxili məsələ kimi təqdim edilməsi çoxtərəfli razılaşmaların əldə olunmasını çətinləşdirir. Bu vəziyyət klassik "yuxarı axın – aşağı axın" qarşıdurmasını xatırladır. Yəni yuxarıda yerləşən ölkə suya nəzarət edir, aşağıda yerləşənlər isə nəticələrlə üzləşir. Belə şəraitdə qarşılıqlı etimad və kompromis olmadan effektiv idarəetmə mexanizmi qurmaq çətinləşir.

Tədbir iştirakçıları da Xəzərin səviyyəsinin stabilləşdirilməsi üçün ən effektiv həll yolunu Volqa üzərindəki su anbarlarından müəyyən həcmdə suyun mütəmadi olaraq dənizə qaytarılmasında görürlər. Lakin Moskva bu məsələnin müzakirəsindən yayınır. Hər dəfə də Volqanı yalnız öz daxili resursu kimi təqdim edərək problemi tez-tez siyasi müstəviyə daşıyır. Belə olan halda da daha təhlükəli bir ssenari istisna edilmir: su axını ilə bağlı hər hansı güzəşt müqabilində sanksiyalardan yayınma və ya digər siyasi dəstək kimi qəbulolunmaz tələblər irəli sürülə bilər. Bu yanaşma ekoloji böhranı geosiyasi təsir imkanlarının genişləndirilməsi alətinə çevirir ki, bu da tərəflər arasında etimadı zəiflədir və hamının uduzduğu ssenari yaradır. Çünki Xəzər dənizinin ekosistemi vahiddir və onun deqradasiyası milli sərhədlərlə məhdudlaşmır.



Eyni zamanda, dayazlaşmanın iqtisadi nəticələri də getdikcə daha aydın görünür. Limanların fəaliyyətinin məhdudlaşması beynəlxalq ticarət marşrutlarına təsir edir, xüsusilə Transxəzər nəqliyyat dəhlizinin inkişaf perspektivlərini zəiflədir. Enerji sektorunda logistika problemləri yaranır, sahilyanı infrastruktur əlavə investisiya tələb edir. Balıqçılıq sektorunun zəifləməsi isə həm iqtisadi, həm də sosial baxımdan ciddi nəticələr doğurur. Bu amillər region ölkələrinin iqtisadi təhlükəsizliyinə birbaşa təsir göstərir.

Humanitar aspekt isə bəlkə də ən az müzakirə olunan, lakin ən təhlükəli istiqamətdir. Dəniz dibindən qalxan duz və ağır metallarla zəngin toz kütlələrinin yayılması tənəffüs xəstəliklərinin artmasına, su keyfiyyətinin pisləşməsinə və ümumi həyat səviyyəsinin aşağı düşməsinə səbəb ola bilər. Bu, təkcə sahilyanı ərazilərlə məhdudlaşmayacaq, daha geniş regionları əhatə edəcək. Beləliklə, problem ekoloji çərçivədən çıxaraq ictimai sağlamlıq və demoqrafik sabitlik məsələsinə çevrilir.

Şübhəsiz ki, Xəzər dənizi ətrafında formalaşan vəziyyət kollektiv məsuliyyətin bölüşdürülməsi ilə bağlı klassik böhran nümunəsidir. Bütün tərəflər riskləri anlayır, lakin qısamüddətli milli maraqlar uzunmüddətli regional sabitlikdən üstün tutulur.

Sammitdə də bu özünü aydın göstərdi. Bir daha aydın oldu ki, bu yanaşma dəyişmədiyi təqdirdə, mövcud tendensiyalar regionu Aral dənizində yaşanmış ekoloji fəlakətin daha genişmiqyaslı təkrarına aparır. Fərq yalnız ondadır ki, Xəzər məsələsi daha çox ölkəni və daha böyük iqtisadi sistemi əhatə edir. Bu isə potensial böhranın miqyasını və nəticələrinin ağırlığını qat-qat artırır.

Əslində, əsas sual artıq problemin mövcud olub-olmaması deyil, ona nə qədər tez və koordinasiyalı reaksiya veriləcəyidir. Vaxt amili həlledici olaraq qalır və gecikən hər qərar gələcəkdə daha ağır və bahalı nəticələr doğurur.

Beləliklə, Xəzərdəki ekoloji vəziyyət artıq sırf təbiət problemi deyil, sosial-iqtisadi və təhlükəsizlik ölçüsü olan kompleks böhran xarakteri alır.

*

Xəzər dənizi son illərdə təkcə ekoloji deyil, həm də geosiyasi, iqtisadi və təhlükəsizlik baxımından çoxqatlı təzyiqlərin kəsişdiyi mürəkkəb və getdikcə daha həssas bir sistemə çevrilib. Bir tərəfdən beynəlxalq hüquqi çərçivələrin gücləndirilməsi, transsərhəd ekoloji nəzarətin genişləndirilməsi və regional əməkdaşlıq mexanizmlərinin formalaşdırılması istiqamətində müəyyən irəliləyişlər müşahidə olunur, digər tərəfdən isə dənizin özündə baş verən fiziki, kimyəvi və bioloji deqradasiya prosesləri artıq geri dönüşü çətin olan sistem böhranına doğru sürətlənir. Su səviyyəsinin davamlı enməsi, sahil xətlərinin geri çəkilməsi, biomüxtəlifliyin sürətlə azalması və Xəzər suitisi kimi endemik növlərin kütləvi tələfi bu böhranın ən aydın və ən kritik göstəriciləridir.



Son illərdə xüsusilə Qazaxıstanın Manqistau vilayətində, Tupqaragan rayonu sahillərində qeydə alınan suitilərin kütləvi tələf halları vəziyyətin lokal deyil, artıq geniş regional miqyasda sistem xarakteri aldığını göstərir. Qısa müddətdə sahilə çıxan yüzlərlə, bəzi hallarda minlərlə ölü heyvanın aşkarlanması və onların böyük hissəsinin parçalanma mərhələsində olması bu hadisələrin ani ekoloji şok deyil, uzun müddət davam edən və yığılan proseslərin nəticəsi olduğunu göstərir. Bu isə tək bir səbəbin deyil, bir-biri ilə əlaqəli bir neçə ekoloji, kimyəvi və antropogen faktorun üst-üstə düşdüyünü ortaya qoyur.

Bu faktorların mərkəzində Xəzər dənizinin uzunmüddətli kimyəvi və sənaye yüklənməsi dayanır. Neft və qaz hasilatı, neftin nəqli, sənaye müəssisələrinin tullantıları, kənd təsərrüfatında istifadə olunan pestisidlər və ağır metallar dənizin bioloji dövranına daxil olaraq ekosistemin bütün səviyyələrində toplanma effekti yaradır. Xüsusilə qapalı su hövzəsi olması səbəbilə bu maddələrin çıxış yolu məhduddur və onlar onilliklər ərzində həm su qatında, həm də dib çöküntülərində yığılmağa davam edir. Xəzər suitisi kimi yırtıcı və qida zəncirinin yuxarı pilləsində yerləşən növlər bu toksinlərin ən yüksək konsentrasiyasına məruz qalır. Nəticədə, immun sistemin zəifləməsi, reproduktiv qabiliyyətin düşməsi, hormonal pozuntular və ümumi fizioloji deqradasiya müşahidə olunur.

Bu vəziyyət infeksion xəstəliklərin yayılması üçün də əlverişli şərait yaradır. Xüsusilə morbillivirus tipli epidemiyalar sıx populyasiya şəraitində daha sürətlə yayılır. Suitilərin sosial davranışı və qruplaşma strukturu bu xəstəliklərin ötürülmə riskini artırır. Beləliklə, kimyəvi çirklənmə ilə bioloji faktorlar bir-birini gücləndirən təhlükəli dövrə yaradır.

Onu da qeyd edək ki, Xəzər dənizinin səviyyəsinin uzunmüddətli enməsi yalnız su həcminin azalması deyil, həm də sahil ekosistemlərinin və buz örtüyünün struktur dəyişməsi deməkdir. Suitilər üçün kritik əhəmiyyət daşıyan buz sahələri artıq əvvəlki sabitliyini itirib, onların formalaşma dövrü qısalıb və coğrafi yayılma sahəsi daralıb. Bu dəyişikliklər heyvanların daha məhdud ərazilərdə toplanmasına səbəb olur ki, bu da həm qida resursları uğrunda rəqabəti artırır, həm də stres səviyyəsini yüksəldir. Eyni zamanda, xəstəliklərin ötürülmə sürəti də əhəmiyyətli dərəcədə artır.

Paralel olaraq geoloji və texnogen proseslər də ekosistemin sabitliyini zəiflədir. Dəniz dibində baş verən seysmik aktivlik, intensiv qazma işləri və mümkün metan sızmaları suyun oksigen balansını pozur. Bu isə bəzi sahələrdə hipoksiya, yəni oksigensiz "ölü zonalar"ın yaranmasına gətirib çıxarır. Belə zonalarda dəniz orqanizmlərinin yaşaması mümkün olmur və bu sahələr ekoloji boşluqlara çevrilir. Xüsusilə sənaye fəaliyyətinin intensiv olduğu akvatoriyalarda bu risk daha yüksək qiymətləndirilir. Yaxın illərdə ölkəmizin sahil ərazilərində balıqların oksigensizlikdə ölümü baş vermişdir. Suitilərin, quşların ölüm hadisələri də adiləşib. Məsələn, Xəzər dənizinin Şüvəlan sahili boyunca kütləvi quş ölümü qeydə alınmışdı. Sakinlərin verdiyi məlumata görə, sahilə səpələnmiş çox sayda ölü quş cəsədi ətrafdakılarda ciddi narahatlıq və maraq doğurub.

Son dövrlərdə bu mürəkkəb ekoloji fon üzərinə yeni bir risk də əlavə olunub: regional hərbi gərginliklər. İranda baş verən hərbi münaqişə fonunda ekspertlər narahatlıq ifadə edirlər ki, hərbi eskalasiya onsuz da uzun illərdir zəifləyən Xəzər dənizinin vəziyyətini daha da ağırlaşdıra bilər. Hərbi fəaliyyətlərin dəniz və sahil zonalarına yaxınlaşması, infrastruktur zədələnməsi və mümkün texnogen qəzalar neft və kimyəvi maddələrin sızma ehtimalını artırır. Bu isə həm suyun geniş miqyasda çirklənməsi, həm də dəniz ekosistemlərinin sürətli deqradasiyası ilə nəticələnə bilər.

Ekoloq Qorxmaz İbrahimlinin qeyd etdiyi kimi, belə ssenarilər yalnız biomüxtəlifliyə deyil, həm də balıqçılıq sektoruna və ümumilikdə sahilyanı əhalinin iqtisadi rifahına ciddi təsir göstərir. Çirklənmənin artması qida zəncirinə birbaşa təsir etdiyindən, insan sağlamlığı üçün dolayı risklər də yaranır. Beləliklə, Xəzərdəki ekoloji vəziyyət artıq sırf təbiət problemi deyil, sosial-iqtisadi və təhlükəsizlik ölçüsü olan kompleks böhran xarakteri alır.

Ümumilikdə, Xəzər dənizində müşahidə olunan bütün bu proseslər (ekoloji deqradasiya, sənaye və məişət çirklənməsi, iqlim dəyişiklikləri, geoloji aktivlik və yeni hərbi risk faktorları) bir-biri ilə qarşılıqlı təsir içində olan kompleks bir böhran sistemi formalaşdırır. Qapalı dəniz sistemi olduğu üçün bu təsirlər yalnız lokal deyil, bütün sahilyanı ölkələrə ortaq şəkildə yayılır.

Sonda onu da qeyd edək ki, sammitdə moderatorluq edən Mahir Əliyev deyib ki, əsrin ortalarına qədər dəniz səviyyəsinin 8 ilə 21 metr arasında düşə biləcəyi ilə bağlı bəzi proqnozlar var. Mahir Əliyev əlavə edib ki, Xəzər dənizinin dayazlaşması probleminin həlli bir tərəfin qısamüddətli səyləri əvəzinə, su hövzəsinə çıxışı olan beş ölkənin hamısının uzunmüddətli iştirakını tələb edir.

Bu səbəbdən Xəzərin gələcəyi artıq təkcə ekoloji idarəetmə məsələsi deyil, həm də regional təhlükəsizlik, iqtisadi sabitlik və beynəlxalq əməkdaşlıq məsələsinə çevrilib. Əgər mövcud tendensiyalar davam edərsə, nəticə yalnız biomüxtəlifliyin itirilməsi ilə məhdudlaşmayacaq, həm də regionun ekoloji tarazlığında, iqtisadi sistemində və sosial strukturunda uzunmüddətli və geri dönməsi çətin olan dəyişikliklərə səbəb olacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

*30 Aprel Beynəlxalq Caz Günüdür*

# Azad ruhun sehrli aləmi

## *Muğam və saz ölkəsi də cazın cazibəsindən uzaq deyil*

**Azadlıq olmayan yerdə nəğmələr boğulur, notlar qəfəsə salınmış quştək çırpınmağa başlayır. Musiqinin canı məhz o sərbəst nəfəsdə, heç bir qəlibə sığmayan ruhun çırpıntısındadır.**



Caza da "azad musiqi" deyirlər, çünki o, ifaçının ixtiyarına verilir. Bu musiqidə ifaçı həm bəstəkar, həm də hekayəçidir. Burada hökm fərmanı notlar yox, ifaçının qəlbinin sədasıdır. O, səmimi duyğularını ötürməkdə azaddır.

Hər il dünyada 30 Aprel Beynəlxalq Caz Günü azad nəğmə bayramı kimi qeyd edilir. 2012-ci ildə UNESCO-nun elan etdiyi bu gün dünyanın cazsevər ölkələrində keçirilən konsert proqramları ilə yadda qalır. Əlamətdar gün dünyanın 190 ölkəsində coşqu ilə qarşılanır.

Ölkəmizdə isə caz musiqisi milli ruhumuzun özgə biçimdə təzahürüdür. Bu musiqi muğamın qədim və müdrik irfanı ilə qol-boyun olub, özünəməxsus təşəkkül tapıb.

**Azərbaycan cazının bu gününü, onun fəlsəfi dərinliyini və ruhumuzdakı əks-sədasını duymaq üçün Xalq artisti, bəstəkar Salman Qəmbərovla həmsöhbət olduq.**

***Salman müəllim bildirdi ki, Azərbaycan caz musiqisində formalaşmış zəngin ənənələr bu gün də öz varisliyini qoruyub saxlayır:***

– Bu sahədə Vaqif Mustafazadə və Rafiq Babayev kimi korifeylərlə yanaşı, Amerika caz məktəbinin layiqli təmsilçisi, bəstəkar Vaqif Sadıxovun adını xüsusi vurğulamaq lazımdır. Vaqif Mustafazadə və Rafiq Babayev də yaradıcılıqlarının təməlini Amerika cazının mürəkkəb standartlarını mükəmməl mənimsəməklə qoymuş, lakin bu elmi bazanı milli musiqi təfəkkürü ilə sintez edərək tamamilə fərdi və bənzərsiz musiqi dili ərsəyə gətirmişlər.

Bu gün müasir ifaçılıq sənətinin qarşısında duran ən böyük təhlükə yaradıcı təfəkkürün təqlid buxovuna salınmasıdır. Hətta ifaçılıq qabiliyyəti yüksək ola bilər, amma təqlid etmək sənət deyil, sənət səndən öncəki sənətkarların ideyalarını zamanın tələbinə uyğunlaşdırmaq, zənginləşdirməkdir. Dahi sənətkarların irsi bizə möhkəm təməl kimi miras qalıb. Təəssüf ki, bəzi gənc ifaçıların yaradıcılığında müşahidə olunan mexaniki kopyalama və kor-koranə təkrarlar, musiqini ruhsuz müşayiətə çevirir. Həqiqi yaradıcılıq təqlid zəncirlərini qırıb, öz daxili səsini bəşəriyyətə çatdıra bilməkdir.

Biz informasiya və texnologiya əsrində yaşayırıq. Bu da yaradıcı insanlar üçün sərhədsiz üfüqlər açır. Müasir dünyanın rəqəmsal imkanları, beynəlxalq əməkdaşlıq platformaları istedadlı azərbaycanlı musiqiçilərin səsini dünyanın ən nüfuzlu məkanlarına çatdırmaq üçün böyük fürsətdir. Əgər bir neçə onillik öncə tanınmaq üçün valların və ya CD-lərin istehsalı, ağır bürokratik prosedurlar tələb olunurdusa, bu gün "YouTube", "Instagram" və digər sosial şəbəkələr bizə çox kömək edir. İndi əsas məsələ bu imkanlardan peşəkarlıqla istifadə edib, Azərbaycanın adını sənət dünyasında ucaltmaqdır.

**Müsahibimiz onu da qeyd etdi ki, bu sehrli dünyaya hər kəs eyni həvəslə qapı açmır:**

– Caz elə bir aləmdir ki, notların arxasında bir daxili çırpıntı dayanır. Amma maraqlıdır ki, bu sehrli dünyaya hər kəs eyni həvəslə qapı açmır. İllərdir müşahidə edirəm, sanki, sənət adamları – rəssamlar, yazıçılar, şairlər, hətta Musiqi Akademiyasındakı həmkarlarımız belə çox vaxt caz musiqisinə qarşı bir az məsafəli, tərəddüdlü olur, maraq göstərmirlər. Əlbəttə, istisnalar hər zaman var, amma ümumi mənzərə bəzən qəlb sızladır.

Azərbaycan caz musiqisinin bugünkü mənzərəsinə nəzər saldıqda həm ümidverici inkişafın, həm də həlli vacib olan ciddi məhdudiyyətin şahidi oluruq. Sevindirici haldır ki, artıq cazın coğrafi hüdudları genişlənir. Əgər iyirmi il əvvəl biz bu sənətdən danışarkən yalnız Bakı mühitini nəzərdə tuturduqsa, hazırda İsmayıllı, Naxçıvan, Gəncə və Sumqayıt kimi müxtəlif bölgələrimizdən çox istedadlı musiqiçilər yetişir. Lakin bu müsbət tendensiyanın qarşısında böyük sədd dayanır: bu gənclərin hamısı sonda yenə də paytaxta üz tutmağa məhkum olurlar.

Problemin kökündə duran əsas səbəb odur ki, caz musiqisi üçün meydan, peşəkar səhnə və müvafiq mühit hələ də yalnız Bakı ilə məhdudlaşır. Qonşu Gürcüstanın təcrübəsinə baxdıqda, görürük ki, orada Batumi və Tbilisi kimi iri mərkəzlərlə yanaşı, digər şəhərlərdə də möhtəşəm caz festivalları, beynəlxalq konsertlər keçirilir. Bizdə isə, təəssüf ki, mənzərə fərqlidir. Dəfələrlə müxtəlif şəhərlərin rəhbərliyinə bölgələrdə caz gecələri, konsert proqramları təşkil etmək barədə təkliflər verilsə də, bu təşəbbüslər mütləq laqeydliklə, diqqətsizliklə qarşılanıb.

Musiqinin daxili məntiqindən və coğrafi məhdudiyyətlərindən söz düşmüşkən, bir ağrılı məqamı da gərək etiraf edək: bu gün caz sənəti televiziya məkanında demək olar ki, özünə yer tapa bilmir. Efirlərdən ucalan bayağı sədalar, sənət meyarlarından uzaq olan musiqilər, sanki, insanların zövqünü tədricən korlayır, onları həqiqi, intellektual, duyarlı musiqidən uzaq salır. Televiziya kimi qüdrətli bir təbliğat vasitəsinin bu cür ali bir sənətə ögey münasibət bəsləməsi, kütləvi zövqün aşınmasına rəvac verir.

Digər tərəfdən, cazın nəfəs aldığı məkanlar – o kiçik, amma ruhu zəngin caz-klublar da, təəssüf ki, yalnız paytaxt Bakının küçələrinə sığınıb. Bölgələrdə yaşayan gənclərin, musiqisevərlərin bu mədəni mühitdən bəhrələnmək imkanı yox dərəcəsindədir.

Yaradıcılıqda yenilik axtarışları və mədəniyyətlərarası dialoq sənəti diri tutan əsas amillərdir. Məsələn, Litva səfirliyinin təklifi ilə dahi bəstəkar Nikolas Çürlyonisin klassik prelüdiyaları əsasında caz kompozisiyalarının qurulması belə uğurlu əməkdaşlığın bariz nümunəsidir. Bu cür layihələr Azərbaycan cazmeninin nə qədər geniş təfəkkürə və virtuoz ifaçılıq qabiliyyətinə malik olduğunu dünyaya sübut edir. Belə silsilə tədbirlərin təkcə ölkə daxilində deyil, Türkiyə və Litva kimi ölkələrdə də davam etdirilməsi Azərbaycan musiqisinin sərhədləri aşan gücünün göstəricisidir.

**Bəstəkarın sözlərinə görə, bu sənətin əsasında sənətkarın hər dəfə özünü təəccübləndirmək məqsədi dayanır:**

– Əgər musiqiçi səhnədə öz daxili dünyasında yeni bir kəşf edə bilmirsə, dinləyicinin ruhunu təəccübləndirmək və onda heyranlıq oyatmaq mümkün deyildir.

Sənətkar səhnəyə çıxarkən müəyyən mövzuya və struktura sahib olsa da, o anın daxilində nə çalacağını əvvəlcədən dəqiq bilmir. Çünki cazın həqiqi mahiyyəti həmin saniyədə doğulan azadlıq və improvizasiyadır. Bu janr dünənki uğurun və ya əvvəllər ifa olunmuş parçaların mexaniki şəkildə təkrarı deyil. Keçmişdə edilənləri eynilə təkrar etmək sənəti ruhsuzlaşdırır, hətta mənasızlaşdırır.

Sənət yolu uzaqdan parıltılı görünsə də, əslində, mənəvi fədakarlıq və hər gün təkrarlanan ağır zəhmət üzərində ucalan məşəqqət yoludur. Gənclər bu yola qədəm qoyarkən anlamalıdırlar ki, sənət səhnədəki alqışlardan, rəngarəng gül-çiçəklərdən və asan qazanılan uğurlardan ibarət deyil. Həqiqi sənətkar olmaq üçün hər gün öz üzərində çalışmaq, ruhunu və zəkanı daim qidalandırmaq mütləqdir.

Bu çətin yolda büdrəməmək üçün ilk nəsihət musiqini dərindən duymaq, klassik irsdən və dünya caz korifeylərinin yaradıcılığından bəhrələnməkdir. Çünki daxili baza, zəngin musiqi yaddaşı olmadan sənətdə öz sözünü demək qeyri-mümkündür. Sənətin başlanğıcında kimisə təqlid etmək, ustadların izi ilə getmək təbii olsa da, sənətkarın əsas qayəsi öz fərdi imzasını tapmaq və öz yolunu cızmaq olmalıdır.

Azərbaycan cazının gələcək taleyi bu gün yetişən gənc nəslin əllərindədir. Onların üzərinə düşən ən şərəfli vəzifə milli musiqi ənənələrimizi qorumaqla yanaşı, bu zəngin irsi müasir dünyanın sənət dilində, hamını heyran qoyacaq şəkildə təqdim etməkdir. Tələbələrin gözlərindəki o yaradıcılıq həvəsini və sənət eşqini görmək sənətkar üçün ən böyük xoşbəxtlikdir. Məhz bu inam və gənclərin fədakarlığı sayəsində Azərbaycan cazı hələ çox uca zirvələri fəth edəcək, dünya musiqi fəzasında öz parıltısını qoruyub saxlayacaq.

***Fidan ƏLİYEVA***
***XQ***

*Təqvim yada salır*

# Haqq sevdalı Borçalı şairi

**M.Qorki adına Moskva Ədəbiyyat İnstitutunda oxuduğumuz vaxtlarda Allahverdi Təklələni öz aramızda "Xaqan" çağırırdıq. Bu oxşama onun ruhunu elə ifadə edirdi ki, indi, illər ötəndən sonra da, az qala bütün ədəbi cameə onu məhz belə tanıyır.**



Bu müraciət, sadəcə, bir tələbə zarafatı deyildi; Allahverdinin hələ o illərdə özündə daşıdığı, hər kəsə hiss etdirdiyi qədim və sarsılmaz qarapapaq vüqarının, sufi müdrikliyinin, söz üzərindəki mənəvi hakimiyyətinin adı idi.

Borçalı mahalı tarix boyu Azərbaycan mədəniyyətinə ustad şairlər, söz sərrafları bəxş edib. Bu qədim və zəngin ədəbi mühitin müasir dövrdə ən ləyaqətli davamçılarından biri o məkanın sakral yükünü öz çiyinlərində daşıyan, adı Tiflisin ədəbi mənzərəsi ilə bütövləşən şair Allahverdi Təkləlidir.

Allahverdinin dili əcdadların yaddaşından süzülüb gələn elat enerjisi ilə doludur. O, "arxaikləşmiş" sözləri və etnoqrafizmləri sadəcə işlətmir, qəribə bir ustalıqla onu bədii təfəkkürün ən üst qatına, məcaz müstəvisinə qaldırmağı bacarır. Bu sözlər onun qələmində yağışdan sonra durulmuş göy üzü kimi təmizlənir, parlayır və sehrli bir mahiyyət qazanır. Sənətkar sanki arxeoloq dəqiqliyi ilə yaddaşın alt qatlarından çıxardığı, qədim ifadələri müasir poeziyanın estetik libasına bürüyərək bizə yenidən təqdim edir.

**Təkləli, handa alp yaşım,**
**Dostun halalıdı başım.**
**Haqdan bəlalıdı başım,**
**Başımda haqq sevdası var.**

Allahverdi Təkləli müasir ədəbi prosesdə, sadəcə, bir imza deyil, bütöv bir mədəni missiyanın daşıyıcısıdır. O, texnoloji qloballaşmanın və standartlaşmış duyğuların hakim olduğu bir dövrdə, sözü öz ilkin, bakirə və müqəddəs məqamına qaytaran nadir sənətkarlardandır. Onun şeiri müasir oxucu üçün həm də bir yaddaş təzələnməsidir; biz onun misralarında unudulmağa üz tutmuş milli kodlarımızın bədii intibahını görürük.

Allahverdinin müasir ədəbiyyatdakı yeri, əslində, keçmişlə gələcək arasında qurulmuş möhkəm körpü rolundadır. O, klassik qoşma və gəraylı qəliblərini dövrün intellektual ağrıları ilə elə ustalıqla doldurur ki, heç vaxt köhnəlməyən ənənə müasir insanın, bir növ, ruhsal ehtiyacına çevrilir. İstər klassik üslubda qələmə aldığı yazılarında, istərsə də "sərbəst" şeirlərində Təkləli sübut edir ki, milli köklərə sadiqlik bədii müasirliyin ən güclü qaynaqlarından biridir.

Allahverdi Təklələnin zahirən dağı-daşı yerindən oynadacaq ləngəri təbiətindəki qəribə bir uşaq məsumluğu və kövrəkliyi ilə çulğaşır. Hərdən mənə elə gəlir ki, böyük sənətkar Ümmət Qaracaya xitabən yazdığı məşhur şeirindəki uşaq elə onun özüdür:

**Bir uşaq rəsmi çək, Ümmət Qaraca,**
**Buludun üstüylə qaçan bir uşaq...**
**Xiffəti iməkdən təzə day duran,**
**Özünə gecələr vətən uyduran,**
**Gilənar çiçəyi açan bir uşaq...**

Allahverdi Təklələnin ömür yolu və yaradıcılığı, eyni zamanda, bir millətin mədəni varlığını spesifik məkanda qorumaq uğrunda verilən fədakar ziyalı mübarizəsinin möhrünü daşıyır.

Gürcüstan Yazıçılar Birliyinin nəzdində Azərbaycan ədəbiyyatı bölməsinin yaradılması birbaşa onun əməyinin nəticəsidir. Bölmənin sədri kimi, Tiflisin bir vaxtlar gur olan, lakin zamanla sönməyə başlayan ədəbi ocağını yenidən alovlandırmaq görəvi də onun üzərindədir. Onu və əhatəsindəki dostlarımızı ən gözəl tərəflərindən xarakterizə edən və ucaldan həm də bütöv bir ədəbi mühiti ayaqda tutmaq iradəsidir.

Heç bir kənar kömək və maddi dəstək olmadan, bölmənin bütün işlərini təkbaşına nizamlaması Allahverdi Təklələnin ana dilinə və soykökünə sonsuz bağlılığından xəbər verir. O həm rəhbər, həm təşkilatçı, həm də yaradıcı insan missiyasını öz çiyinlərində təmənnasız daşıyır.

Onun fəaliyyətinin ən mühüm bəhrələri təsis etdiyi "Şəfəq" (Sxivi) və "Körük" jurnallarıdır. Bu nəşrlər Gürcüstanda yaşayan soydaşlarımızın ədəbi tribunasına çevrilib. Jurnalların redaktəsindən tutmuş, dizaynı və çapına qədər hər bir xırda detal şairin əlindən keçir. Bu, sadəcə, bir nəşr fəaliyyəti deyil, milli kimliyin və söz sənətinin yaşadılması üçün qurulmuş bir mənəvi qaladır. Tiflis ədəbi mühitinin dirçəldilməsi naminə gördüyü işlər onun ömür kitabının ən şərəfli səhifələrindəndir.

Adamın inanmağı gəlmir, amma bu günlərdə gözəl sənətkar Allahverdi Təklələnin 70 yaşı tamam olur. Bilənlər bilir ki, keşməkeşli bir həyat yaşayıb, amma heç vaxt uca Yaradana asi düşməyib, əyilməyib, sınmayıb, alnıaçıq, üzüağ bu yaşa gəlib çatıb; istər ictimai xadim, istərsə də bir sənətkar kimi özündən sonrakılara örnək olub.

Şair dostumuzun yeni yaşını ürəkdən təbrik edir və yeni yaradıcılıq uğurları arzulayırıq.

***Etimad BAŞKEÇİD***

Yubilyar şairin 2 şeirini oxuculara təqdim edirik:

**Hələ də başımda bir gül eşqi var**

Qonubdu bir gülə quşum o vaxtdan,
Qayıtmır yerinə huşum o vaxtdan.
Güllə uğraşmaqdı işim o vaxtdan,
Hələ də başımda bir gül eşqi var.

Hələ də başımda bir gül eşqi var,
Könlüm gülə sarı uçundu elə.
Bəlkə də ömrümüz bir gül eşqinin
Oduna tutuşmaq üçündü elə.

Hələ də başımda bir gül eşqi var,
Bir gül uğrunadı davam hələ də.
Hamının havası dəyişdi, mənim
A ana, həməndi havam hələ də.

Günü axşam etdim güllə uğraşıb,
Qıyıb da bir gülə – dəyişəmmirəm.
Hələ də başımda bir gül eşqi var,
Hələ də bir gilə dəyişəmmirəm.

Beləcə, bir gülün eşqi başımda,
Ömrü sətir-sətir naxışlayıram.
Dünyada hamının günahlarını,
Bir gülün xətrinə bağışlayıram.

**Gözlər**

Yan baxıb könlümü girov götürdü,
Elə bil bir qırğı bir ov götürdü.
Birdən axirəti alov götürdü,
Yandırdı gorunda atamı gözlər.

Dağ necə dumanı yal üstə tutur,
Gül necə arını bal üstə tutur,
Elə bil oğurluq mal üstə tutur,
Qəfil yaxalayır adamı gözlər.

Təkləli, sözünü xələt eləməz,
Özünü yel kimi bələd eləməz,
Əzrayıl da elə qələt eləməz,
Necə ki can alır badamı gözlər.

# Xankəndinin rahatlıq marşrutu

## *Şəhərdaxili avtobus xidməti fəaliyyətə başlayıb*

**Qarabağda sürətlə reallaşdırılan genişmiqyaslı bərpa-quruculuq layihələri, əsl sahiblərinin doğma yurdlarına qayıdışı şanlı zəfər tariximizin yeni səhifələrinə çevrilir. İşğaldan azad edilmiş ərazilərimizin hər günü yaddaşlara xoş müjdələrlə, inkişaf soraqları ilə yazılır.**





Bu günlərdə Xankəndi sakinləri daha bir yeniliyə sevinirlər. Artıq şəhərin küçələrində təzə avtobuslar şütüyür, xankəndililər rahat marşrut xidmətindən istifadə etməyə başlayıblar. Müasir nəqliyyat infrastrukturunun qurulması istiqamətində atılmış bu addım Xankəndidə yaşayan, burada işləyən, təhsil alan sakinlərin sonsuz sevincinə səbəb olub.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsindən aldığımız məlumata görə, yeni ictimai nəqliyyat şəbəkəsi üzrə hazırlanmış plana əsasən 3 marşrut xətti şəhərin əsas küçə və istiqamətlərini, o cümlədən Kərkicahan qəsəbəsini əhatə edir. Belə ki, 1 nömrəli marşrut "Qarabağ Universitetinin Klinikası–Xankəndi Tikiş Fabriki", 2 nömrəli marşrut "Kərkicahan qəsəbəsi–Dəmiryol və Avtovağzal kompleksi", 3 nömrəli marşrut isə "Qarabağ Universitetinin Klinikası–1-ci dairə" istiqamətində fəaliyyət göstərir.

Şəhərdə marşrut xətləri üzrə ümumilikdə 62 dayanacaq məntəqəsi müəyyən edilib və müvafiq nişanlarla təchiz olunub. Sərnişindaşıma isə "BakuBus" MMC-yə məxsus yeni elektrik avtobusları vasitəsilə həyata keçirilir ki, bu da regionda müasir və ekoloji təmiz nəqliyyat sisteminin formalaşdırılmasına xidmət göstərir. İlkin mərhələdə 10 nəqliyyat vasitəsi 14-15 dəqiqəlik intervalla sərnişinlərə xidmət göstərir. Avtobuslarda ödəniş nağdsız qaydada aparılır. Sərnişinlər "BakıKart", QR-bilet və NFC texnologiyası vasitəsilə bank kartları, eləcə də "Google Pay" və "Apple Pay" kimi mobil ödəniş sistemlərindən istifadə edə bilirlər. Avtobusların hərəkətinə real vaxt rejimində nəzarət edilir.

**Xankəndinin yeni ictimai nəqliyyatının ilk sərnişinləri sırasına biz də qoşulduq, sürücülərin və şəhər sakinlərinin təəssüratlarını öyrəndik. 3 nömrəli marşrut avtobusunda sürücü işləyən Elgün Həsənov daimi yaşamaq üçün bir müddət əvvəl Ağdamın Xıdırlı kəndinə köçdüyünü, Xankəndidə çalışmağın onun üçün qürurverici olduğunu dedi:**

– Vətənə qayıtmaq, burada yaşamaq əvəzsiz duyğudur. Üstəlik, qısa müddətdə işlə də təmin olundum. Azad Xankəndidə ictimai nəqliyyatın ilk sürücülərindənəm. Yeni fəaliyyətə başlamışıq, ancaq insanlar xəbər tutduqca sərnişinlərimizin sayı gündən-günə artır.

Doğma Ağdamım da sürətlə yenidən qurulur, gözəlləşir, ağdamlılar geri dönür. Arzu edirəm ki, tezliklə orada da marşrut avtobusları fəaliyyətə başlasın, Ağdamın da ilk marşrut sürücülərindən biri olum.

**Qabil Cəfərov isə 1 nömrəli marşrutun sürücüsüdür. Əslən Naxçıvanın Şərur rayonundan olan həmsöhbətimiz bildirdi ki, Bakıda "BakuBus" MMC-də çalışıb, Xankəndiyə öz təşəbbüsü ilə gəlib:**

– Ərizə ilə müraciət etdim, könüllü olaraq işləmək üçün Qarabağa gəldim. Bu, Xankəndiyə ilk gəlişim idi, ancaq sanki əvvəldən burada yaşamışam. Şəhər məni doğmalıqla qarşıladı. Tanrıya şükürlər olsun ki, Vətənimizin hər qarışı azaddır, mənə də Xankəndidə işləmək nəsib olub. Allah Müzəffər Ali Baş Komandanımız, möhtərəm Prezidentimiz İlham Əliyevi qorusun! Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin!

**Məktəbyaşlı qızı ilə avtobusa minən Esmira Məmmədova** Xankəndidə ictimai nəqliyyatın fəaliyyətə başlamasına ürəkdən sevindiyini dedi. Qeyd etdi ki, 1 ilə yaxındır Qarabağda yaşayır. Bu vaxta qədər övladını məktəbə aparanda, işə gedib-gələndə ya taksidən istifadə etməyə, ya da piyada yeriməyə məcbur idilər. Ancaq indi müasir, təmiz avtobusların müntəzəm hərəkəti, dayanacaqların əlçatanlığı və xidmət keyfiyyəti onların gündəlik həyatını xeyli asanlaşdırıb.

Qarabağ Universitetinin İncəsənət fakültəsinin binasının qarşısındakı dayanacaqda qələbəlik vardı. Deyə-gülə avtobusa minən tələbələr də Xankəndidə marşrutların açılmasından razılıqla bəhs etdilər, aidiyyəti qurumlara təşəkkürlərini bildirdilər. Sözsüz, sözügedən ali təhsil ocağının çoxsaylı tələbələri şəhərdə inkişafın yeni mərhələsi olan bu addıma ən çox sevinənlər sırasındadırlar.

Müasir nəqliyyat infrastrukturunun qurulması təkcə Xankəndinin qürur dolu bu gününün dirçəlişi deyil, həm də işıqlı, xoşbəxt sabahının təməlidir.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***
**Xankəndi**

*Yeni kitablar*

# "Gəncənin ziyalı xanımları"

**Əslində, ensiklopedik məlumat toplusu kimi daha çox insanın diqqət və marağına səbəb olan kitab hazırlayıb çap etmək böyük məsuliyyət və hədsiz zəhmət tələb edir.**




Bu baxımdan Azərbaycan Milli Elmlər Akademiyası Gəncə bölməsinin təqdim etdiyi "Gəncənin ziyalı xanımları – tarixi, elmi və mədəni irs" kitabı böyük maraq doğurur və nəinki burada təmsil olunan 440 ziyalı qadını, həmçinin geniş oxucu kütləsini də sevindirmişdir.

Kitabın layihə rəhbəri, AMEA Gəncə bölməsinin sədri, Əməkdar elm xadimi, akademik Fuad Əliyevdir. Bölmənin əməkdaşlarından ibarət işçi qrupu – Sara Əzizova, Təranə Verdiyeva, İlhamə Əliyeva, İlhamə Cəfərova və başqaları çox böyük əzmkarlıqla çalışaraq kitabı ərsəyə gətirmişlər. Topluda təmsil olunan qadınların bir qismi Gəncədə dünyaya gəlməsə də, bütün şüuru həyatlarını bu şəhərlə bağlamış, milli maarifçilik hərəkatının elm, təhsil, ədəbiyyat və incəsənət, səhiyyə, sənaye, kənd təsərrüfatı və ictimai-siyasi həyatın müxtəlif sahələrinə öz töhfələrini vermişlər.

Oxuculara təqdim olunmuş kitabda əsas məqsəd Gəncənin ziyalı xanımlarının çoxsahəli fəaliyyətini sistemli şəkildə araşdırmaq, onların xidmətlərini sənədləşdirmək və gələcək nəsillərə ötürməkdir.

XII yüzillikdə yaşamış və həyat salnamələrinə nəzər salınmış Azərbaycanın şair qadınları haqqında verilmiş məlumatlar da maraq doğurur. Burada Gəncənin görkəmli şairəsi Məhsəti Gəncəvi haqqında müfəssəl məlumat verilmiş, onun müasirləri - bir sıra mənbələrdə adları çəkilən, lakin yaradıcılıqları az işıqlandırılmış və tədqiq edilməmiş Siti Gəncəvi, Doxtəri Həkim Gav, Doxtəri Xətibi Gəncə, Raziyyə Gəncəvi də anılmış, gələcək tədqiqatçılar üçün mövzu verilmişdir.

Ensiklopedik toplu hazırlanarkən arxiv materiallarından, tanınmış qadınlar haqqında yazılmış kitablardan, məqalələrdən, elmi əsərlərdən, şəhərdə fəaliyyət göstərən idarə və müəssisələrin kadrlarla iş şöbələrinin sənədlərindən istifadə edilmişdir.

"Elm" nəşriyyatında bu günlərdə işıq üzü görən kitab 306 səhifə həcmində, 300 tirajla nəfis şəkildə buraxılmışdır.

Hər kitab tarixin bir səhifəsidir. Onlar gələcək nəsillərə ərməğan olmaqla yanaşı, həm də gənc valideynlərə Vətəninə layiq övladlar yetişdirmək üçün gərəkli mesajlar ötürürlər.

***Amalya QASIMOVA,***
***tarix üzrə fəlsəfə doktoru***

# Trampın təhdidləri, NATO-da qeyri-müəyyənlik

## *Bu məsələlərdə Türkiyənin mövqeyi və rolu*

**ABŞ və İsrailin fevralın 28-də İrana hava zərbələri endirməsindən sonra başlanan münaqişə uzandıqca Vaşinqtonla NATO müttəfiqləri arasındakı fikir ayrılıqları və ziddiyyət dərinləşməkdə davam edir. Qərbin media səhifələrində bu mövzu müxtəlif rakurslardan şərh edilir. Məsələn, "Reuters" agentliyi xəbər verir ki, Vaşinqton İrana qarşı əməliyyatı dəstəkləməyən müttəfiq ölkələrini "cəzalandırmaq" üçün müxtəlif yollar nəzərdən keçirir. "Defense24" yazır ki, Tramp administrasiyası "yaxşı" və "itaət göstərməyən" müttəfiqlərin siyahılarını tərtib edib. "The New York Times" qəzeti isə daha irəli gedərək yazır ki, Avropa İttifaqı NATO olmadan hərbi əməkdaşlıq mexanizmlərini fəal şəkildə müzakirə edir. "Od olmayan yerdən tüstü çıxmaz" deyiblər. Qələmə alınan bu fikirlərin hər birinin öz kökü var.**




Ümumiyyətlə, münaqişə başlayandan bir müddət sonra Vaşinqton NATO-dakı müttəfiqlərinin əksəriyyətinin ona dəstək verməməsi bir yana, hətta bəzilərinin öz ölkələrində yerləşən ABŞ hərbi bazalarından İrana qarşı istifadə etməyə belə qadağa qoydu. Təbii ki, bu, bütövlükdə, ABŞ siyasi isteblişmentini də olmasa, bilavasitə Ağ Evin hazırkı sahibi Prezident Donald Trampı hiddətləndirməyə bilməzdi. Məhz bu səbəbdən İrana qarşı hərbi əməliyyatlara başlamaqla bağlı NATO ölkələrinin heç biri ilə məsləhətləşməyə və hətta onlara məlumat verməyə belə ehtiyac görməyən Prezident Tramp vaxtaşırı olaraq bir-birinin ardınca NATO ölkələrinə qarşı kəskin hədələyici və ritorik açıqlamalarla çıxış etməyə başladı. Hətta hərbi əməliyyatların müvəqqəti dayandırılmasından sonra belə Ağ evin sahibi "CNBC" televiziyasına verdiyi müsahibədə bəyan edib ki, "bizə onlar lazım deyil (NATO - red.). Və bizə heç vaxt onlar lazım olmayacaq. Əksinə, onların bizə ehtiyacı olacaq".

Daha əvvəl də Tramp "Fox Business"ə verdiyi müsahibədə bildirmişdi ki, ABŞ artıq İrana qarşı əməliyyatda Vaşinqtona köməkdən imtina edən müttəfiqlərin heç biri ilə eyni münasibətlərə malik olmayacaq.

Trampın hiddətinə səbəb olan ölkələr ilk günlər belə bəyanatalara ciddi reaksiya verməsələr də, siyasi dairələrdən müxtəlif fikirlər səslənməyə başladı. Belə ki, NATO-nun keçmiş baş katibi Anders Foq Rasmussen Avropanı Amerika təhlükəsizlik arxitekturasından və Amerika silah təchizatından kənarda müstəqillik axtarmağa çağırıb.

Qərb mediasının müxtəlif etibarlı mənbələrdən əldə etdikləri məlumatlardan aydın olur ki, ABŞ-dan gələn hiddətli bəyanatlar söz olaraq havaya deyilmir. Məsələn, "Reuters" agentliyi xəbər verir ki, Vaşinqton ABŞ və İsrailin "Epik qəzəb" əməliyyatını dəstəkləməyən NATO üzvlərini "cəzalandırmaq" üçün variantları araşdırır. İnformasiyanı söyləyən mənbəyə görə, Pentaqonun daxili elektron poçtunda "çətin" ölkələrin ittifaqdakı vacib və ya nüfuzlu vəzifələrdən çıxarılmasının mümkünlüyü qeyd olunur.

Agentliyin mənbəyinə görə, Pentaqonun daxili elektron poçtunda "çətin" ölkələrin ittifaqdakı vacib və ya nüfuzlu mövqelərdən çıxarılmasının mümkünlüyü qeyd olunur. Hətta ABŞ Hərbi Nazirliyinin İspaniyanın NATO-dakı üzvlüyünü dayandırmağı nəzərdən keçirdiyi də iddia edilir.

"Reuters"in yaydığı məqalədə deyilir: "Elektron məktubda qeyd edilir ki, İspaniyanın ittifaqdakı üzvlüyünün dayandırılması ABŞ hərbi əməliyyatlarına çox məhdud təsir göstərəcək, lakin onun simvolik əhəmiyyəti çox ciddi olacaq". Doğrudur, Prezident, Donald Tramp dəfələrlə ABŞ-ın NATO-dan çıxma ehtimalı barədə danışsa da, agentliyin məlumatına görə, Pentaqonun elektron məktubunda Ağ Evin bu seçimindən bəhs edilmir.

Buna baxmayaraq, alyansın Avropa ölkələrindəki analitikinin sözlərinə görə, ABŞ-ın müttəfiqlərə bu şəkildə təzyiqi yalnız NATO-nun parçalanmasını sürətləndirə bilər. Əslində, belə bir tendensiya son günlər özünü ən müxtəlif müstəvilərdə göstərməyə başlayıb. Bu tendensiyanı şərh edən "The New York Times" qəzeti bu arada yaydığı məlumatlarda açıqlayırdı ki, Aİ liderləri "Prezident Trampın NATO ittifaqına davamlı sadiqliyinə getdikcə daha çox şübhə ilə yanaşırlar" və buna görə də ABŞ-ın iştirakı olmadan "kollektiv müdafiə" ehtimalını ciddi şəkildə araşdırırlar. Qəzet bildirir ki, bu vəziyyət Avropa liderlərini, NATO-nun mövcudluğu səbəbindən uzun müddət "lazımsız" hesab edilən Aİ Lissabon müqaviləsinin 42.7-ci maddəsinə diqqət çəkməyə məcbur edib. Bu maddə Aİ üzv dövlətlərini, bu ölkələrə təcavüz olarsa bir-birinə hərbi, humanitar və maliyyə yardımı göstərməyə məsul edir.

"The New York Times" açıqlamasında göstərir ki, Avropa liderləri müqavilənin bu müddəasını aprelin 23-də Kiprdə müzakirə ediblər və gələn ay, yəni mayda 42.7-ci maddənin mümkün tətbiqi ilə bağlı təlimlər keçirməyi planlaşdırırlar.

Bu ziddiyyətlər nə qədər dərinləşsə də, Vaşinqton ona xəyanət edən Avropadan qisas almaq iddiasını ortaya qoyub, bu ölkələrdəki hərbi bazalarını bağlamaq həddinə qədər irəli getməyib. "Financial Times" qəzetinin analitiki Gideon Rəhman yazır: "Atlantik okeanının hər iki tərəfi hələ də bədbəxt bir evliliyin bağları ilə bağlı olduqlarını yaxşı başa düşür. Rəsmi boşanma ciddi bir məsələdir və hələlik heç bir tərəf buna hazır deyil".

Həqiqət ondan ibarətdir ki, ABŞ-ın Avropadakı hərbi mövcudluğu zəifləyir, lakin şiddətli qarşılıqlı ittihamlara baxmayaraq, tərəflərdən heç biri bu bədbəxt evliliklərinə son qoymağa tələsmir.

Alyansın tarixinə ötəri bir nəzər salaq: ABŞ Hərbi Hava Qüvvələri 1948-ci ildə Böyük Britaniyadakı Leykenhit Hərbi Hava Qüvvələri Bazasında yerləşdi. 1950-ci illərin əvvəllərində Almaniyadakı Ramşteyn Hərbi Hava Bazası yaradıldı. Bu gün Avropada ABŞ-ın təxminən 85 min əsgərinin yerləşdiyi qırxdan çox hərbi bazası var. Amma anlamaq lazım gəlir ki, heç nə əbədi deyil. Mənim düşüncəmə görə, Avropadakı Amerika hərbi mövcudluğuna da son qoyula bilər. Vaxtını dəqiq deyə bilməsəm də, bu mütləq baş verəcək.

Bu gün Alyansa ölkələri arasında ən qıcıqlandırıcı amil İrandakı müharibədir. Avropanın kömək etmək istəməməsi, xüsusən də İrandakı hərbi missiyalar üçün Avropa bazalarının istifadəsinə açıq qadağa, əlbəttə, Donald Trampı qəzəbləndirdi. O, avropalıları "qorxaq", NATO-nu isə "kağız pələng" adlandırmaqda nə qədər haqlıdır? Bunu demək çətindir. Trampa görə Alyans ölkələri, Vaşinqton haqlı oldu-olmadı onun tərəfində durmalı və müharibəyə girməlidir. Əslində, bu düşüncə o anlama gətirir ki, Alyansa üz olan ölkələr bu məsələdə müstəqilliklərini qurban veriblər və itaətsizlik etmədən tərəf tutmalıdırlar. Məhz buna əsasən ABŞ-ın dövlət katibi Marko Rubio açıq şəkildə sual verir: Amerika Avropadakı bazaları lazım olan vaxtda belə istifadə edə bilmirsə, niyə onlara əhəmiyyət verir.

Tramp administrasiyasının İranla müharibədən sonra artıq Avropa müttəfiqləri üçün cəza planları qurması da bu səbəbdən ortaya çıxır. İspaniyanın NATO-dan çıxarılması və Folklend adaları üzərində Britaniya suverenliyindən imtina, Qrenlandiyanın zəbt ediləcəyi də daxil olmaqla müxtəlif fikirlər irəli sürülür.

Lakin görünür, Tramp administrasiyası bu məyusluğun qarşılıqlı olduğunu tam şəkildə anlamır. Avropa siyasətçiləri ABŞ-ın NATO müttəfiqləri ilə məsləhətləşmədən belə düşünülməmiş və qanunsuz müharibəyə başladığından acı-acı şikayətlənirlər. Avropada gedən proseslər təkcə bu regionun siyasi isteblişmentini deyil, bütövlükdə, avropalıların ABŞ liderliyinə inamı da kəskin şəkildə aşağı düşüb. Bu, həm də Amerika baş komandanının özünün avtoportretini İsa peyğəmbər simasında sosial şəbəkədə yerləşdirməsi və bütün bir sivilizasiyanı məhv etməklə hədələməsi ilə başadüşüləndir.

"Politico" jurnalının aprelin əvvəlində keçirdiyi sorğusu göstərir ki, İspaniya, İtaliya, Fransa və Almaniyada getdikcə daha çox respondent ABŞ-ı "yaxın müttəfiq" deyil, ölkəyə təhdid kimi görür. İspaniyanın Baş naziri Pedro Sançes ABŞ-ın xarici siyasətini qətiyyətlə və sərt şəkildə pisləyərək siyasi mövqeyini ortaya qoyub. Hətta ABŞ-a sadiq Polşa və Almaniya liderləri belə Vaşinqtonun liderliyini açıq şəkildə sorğulamaqdadırlar.

Etiraf edək ki, ABŞ-ın Avropadakı mövcudluğu İkinci Dünya müharibəsindən bəri, norveçli tarixçi və Norveç Nobel İnstitutunun direktoru Geyr Lundestadın təbirincə desək, "dəvətli imperiya" olub. Avropalılar isə getdikcə bu dəvəti ləğv etməyə meyillidirlər.

Bir çox siyasətçilər və analitiklər amerikalılarla vidalaşmağın Avropa üçün böyük risklər daşıdığını əsaslandırmağa çalışırlar. Məsələn, Polşanın baş naziri Donald Tusk Moskvanın bir neçə aya NATO ərazisinə hücum edə biləcəyi barədə xəbərdarlıq edib. Berlin və Londondakı siyasətçilər tərəfindən də oxşar xəbərdarlıqlar edilir, lakin onlar bunun aylar deyil, illər ərzində baş verə biləcəyi ilə çıxış edirlər.

Buna baxmayaraq, Tusk onu da qeyd edir ki, getdikcə daha çox Avropa lideri Trampın rəhbərliyi altında ABŞ-ın NATO-nun qarşılıqlı müdafiə bəndinə əməl edəcəyinə şübhə edir. Baş nazir bu mülahizəsində haqlı görünür. Belə ki, Almaniyanın keçmiş xarici işlər naziri Yoşka Fişer "Der Spiegel" jurnalına verdiyi müsahibədə bildirib ki, İranla müharibədən sonra Qərbin ABŞ-a etibar edə bilməsi ehtimalı azdır. Keçmiş baş diplomatın sözlərinə görə, ABŞ artıq əvvəlki təhlükəsizlik qarantı olmayacaq və NATO-nun hazırkı formasında taleyi sual altındadır.

Bəs nə etməli?

Yoşka Fişer bu sualın cavabını belə verir: "Hesab edirəm ki, NATO-nun Avropa formatında mövcudluğunun davam etməsi məsləhətdir". Doğrudur, o bunun çətin olacağını da etiraf edir və deyir: "Bunu həyata keçirmək çətin olacaq. Vaxt azalır. Ən sadə həll yolu Putin tərəfindən təhdid edilən ölkələrin koalisiyasına güvənmək olardı".

Fişerin məhz Prezident Putini təhdid obyekti kimi görməsinə əsas verən, əksər Qərb media vasitələri kimi, Rusiya prezidentinin Qərb təxribatlarına verdiyi cavablardır. Diplomat bu koalisiyanı həm də milli gücdən istifadə kimi görür və bildirir: "Almaniya və Fransa bu baxımdan Avropada əvəzolunmazdır. Gələcəkdə biz sadəcə ABŞ-a güvənə bilməyəcəyik. NATO-nun mövcud olmağa davam edəcəyinə şübhə edirəm.

Dörd və ya səkkiz ildən sonra başqa bir Trampın olmayacağına kim zəmanət verə bilər? Etibar itirilib və nə qədər istəsək də, başqa bir namizəd seçməklə bərpa edilə bilməz. NATO-nun sabitliyi bu etibara əsaslanırdı".

Almaniyanın keçmiş baş diplomatı deyir: "Əgər Tramp Avropanı nüvə çətirindən məhrum etsə, bu, bir ehtimaldır, bu müzakirə qaçılmaz olacaq. Fransa və Böyük Britaniya ilə birlikdə Avropa alternativi yaratmağa çalışmağa dəyər. Əlbəttə ki, bunlar olduqca çətin dəyişikliklər olardı".

Bu və bir çox başqa siyasətçilərin fikirləri göstərir ki, Avropa liderləri qitənin özünü müdafiə etmək şanslarına daha nikbin yanaşırlar. Lakin Avropanın hazırda istənilən münaqişədə həlledici rol oynayacaq ABŞ-ın hərbi imkanlarına güvəndiyi geniş şəkildə qəbul edilir. Bunlara hava hücumundan müdafiə vasitələri, kəşfiyyat resursları və qoşunları cəbhə xəttinə tez bir zamanda daşımaq üçün lazım olan ağır nəqliyyat təyyarələri daxildir. Bu boşluqların aradan qaldırılması uzun illər çəkəcək. NATO komandanlıq strukturunun özü də ABŞ liderliyi ətrafında qurulub.

Avropanın bəzi siyasi liderləri təkcə ABŞ yox, ondan sonra NATO-da xüsusi güc sahibi olan Türkiyə Respublikasını da alyansdan kənarda qoymaq, hətta onun qitə üçün təhdid olduğu fikirləri ilə medianın diqqətini çəkirlər. Məsələn, "Daily Sabah" qəzetinin şərhçisi Engin Savçın yazır ki, "Brüssel Türkiyəni Rusiya və Çinlə yanaşı, Avropa üçün əsas təhdidlərdən biri adlandırıb. Bu, Bosfor boğazının hər iki tərəfində şok dalğaları yaradıb: AB uzun müddətdir tərəfdaş və üzvlüyə namizəd olan şəxsə qarşı yumruq qaldırır.

Bu qıcıqlandırıcı fikir ilk olaraq Hamburqdan gəlib. Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayenin Avropa Birliyinin "Rusiya, Türkiyə və ya Çinin təsirindən azad olaraq Avropa qitəsinin tamamlanmasını təmin etməli" olduğunu bildirməsi diqqəti çəkib. Bu formul təkcə Ankaranın etirazlarına səbəb olduğu üçün deyil, həm də Türkiyənin düşdüyü vəziyyətə görə heyrət doğurub. Rusiya Ukraynada müharibə aparan hərbi düşməndir. Çin dərin iqtisadi təsirə malik sistemli rəqibdir. Türkiyə isə əksinə, NATO müttəfiqi, AB üzvlüyünə namizəd, əsas ticarət tərəfdaşı, Qara dəniz bölgəsində, Şərqi Aralıq dənizində əsas oyunçu və Avropa müdafiə müzakirələrinin iştirakçısıdır.

Çox keçmir ki, məsələyə cavab kimi ikinci siqnal gəlir. Avropa Komissiyası sədrinin çıxışından dərhal sonra NATO-nun baş katibi Mark Rütte Ankaraya gəlir. O, Türkiyənin müdafiə şirkəti "Aselsan"ın texnologiya mərkəzini ziyarət edir və Türkiyənin alyansın müdafiə sənayesinin gələcəyinin formalaşmasında getdikcə daha vacib rol oynadığını vurğulayır. Əgər Hamburqda institusional Avropanın narahatlığı nəzərə çarpırdısa, Ankara əksinə, funksional Avropa məntiqini nümayiş etdirdi. Bir halda Türkiyə nəzarət tələb edən təsir amili, digər halda isə inteqrasiyaya tabe olan bir resurs kimi çıxış etdi. Məhz bu ziddiyyət baş verənlərin mahiyyətini əks etdirir. Brüssel Türkiyə ilə münasibətləri köhnəlmiş terminlərlə təsvir etməyə davam edir. Eyni zamanda, NATO və getdikcə daha çox Avropa ölkələrinin paytaxtları coğrafiya, sənaye potensialı, hərbi güc və təhlükəsizlik mülahizələrini vurğulayan daha praqmatik bir dil keçirlər.

Brüssel ilə Ankara arasında həqiqətən ciddi fərqlər var və heç bir məzmunlu təhlil onları görməzdən gələ bilməz. Lakin hər şeyi yalnız bu ziddiyyətlərlə qiymətləndirmək, daha geniş strateji mənzərəni görməməzlikdən gəlmək demək olardı.

Ursula fon der Lyayenin açıqlamalarına reaksiya yalnız Avropa düşüncələrindəki dərin qeyri-müəyyənliyi ortaya qoyur: Türkiyə hələ də üzvlüyə namizəddirmi, tərəfdaşdırmı, problemli oyunçudurmu, yoxsa Avropanın hər halda işgüzar münasibət qurmalı olduğu müstəqil bir gücdürmü?

Oxşar mənzərə digər bölgələrdə də özünü göstərir, lakin onları şişirtmək lazım deyil. İspaniyanın "Navantia" şirkəti Türkiyənin "TCG Anadolu" gəmisi ilə tərəfdaşlığını qoruyub saxlayır və genişləndirir, İtaliyanın "Leonardo" və Türkiyənin "Baykar" şirkətləri isə Avropanın pilotsuz uçuş sistemləri bazarını hədəf alan birgə müəssisənin bir hissəsi olaraq pilotsuz uçuş aparatları (PUA) üzrə əməkdaşlıq müqaviləsi imzalayıblar. Bu, Avropa paytaxtlarının, Aİ ilə daha geniş münasibətlərin siyasi cəhətdən dondurulmuş qalmasına baxmayaraq, maraqlarının üst-üstə düşdüyü sahələrdə Türkiyə ilə əməkdaşlıq etmək üçün imkanlar tapdığını göstərir.

Bir sözlə, Ankaranın məqsədi strateji əhəmiyyətini davamlı təsirə çevirməkdir. Türkiyə əhəmiyyətli müdafiə qabiliyyətinə, əlverişli coğrafi mövqeyə və NATO üzvü olaraq böyük çəkiyə və statusu malikdir ki, bu da ona geniş imkanlar verir. Lakin uzunmüddətli tərəfdaşlıqların qurulması proqnozlaşdırma, etibar və davamlılıq tələb edir. Türkiyənin Avropa işlərində iştirakı nə qədər sabit, başadüşülən və etibarlı olarsa, Avropa paytaxtları üçün onu ikinci dərəcəli oyunçu kimi görmək bir o qədər çətin olacaq.

Beləliklə, sonda bu nəticəyə gəlmək olar ki, həm ABŞ, həm də Avropa üçün rəsmi boşanma çox ciddi bir addım olaraq qalır. Lakin hər iki tərəf unudulmayan və ya geri götürülməsi mümkün olmayan sözlər deyib və işlər görüb. İttifaqda, nikahda olduğu kimi, bu da təhlükəlidir.

*Hazırladı:*
***İlqar RÜSTƏMOV,***
***XQ-nin analitiki***

# Hərbi gərginlik, siyasi təzyiq və regional balans

## *Uzunmüddətli blokada bölgədə qarşıdurmanın ömrünü uzadacaq*

**Yaxın Şərqdə artan gərginlik fonunda beynəlxalq media gündəmi hərbi eskalasiya ilə diplomatik manevrlər arasında formalaşan mürəkkəb geosiyasi mənzərəni önə çıxarır. Həm Vaşinqton daxilində hüquqi-siyasi mübahisələrin dərinləşdiyi, həm də regionda yeni təzyiq və çəkindirmə mexanizmlərinin müzakirə olunduğu görünür. Eyni zamanda, İsrail-Livan xəttində təhlükəsizlik riskləri, Hörmüz boğazı ətrafında enerji və logistika narahatlıqları, habelə iqtisadi blokada ssenarilərinin gündəmə gəlməsi böhranın miqyasını genişləndirir.**

**"Reuters":** Ağ Evin xahişi ilə Amerika kəşfiyyatı ABŞ-ın İranla müharibəyə son qoymaq barədə mümkün birtərəfli bəyanatının nəticələrini qiymətləndirir. Kəşfiyyat agentlikləri Prezident Donald Trampın birtərəfli şəkildə qələbə elan etməsi halında İranın necə reaksiya verəcəyini təhlil edir. Məqsəd Trampın bəzi rəsmilərin və məsləhətçilərin bu ilin sonlarında keçiriləcək ara seçkilərdə respublikaçıların əhəmiyyətli dərəcədə məğlubiyyətinə səbəb ola biləcəyindən qorxduğu münaqişədən potensial geri çəkilmənin nəticələrini anlamaqdır. ABŞ-da ara seçkilər noyabr ayına planlaşdırılıb və bir çox müşahidəçi hazırda hakim Respublikaçılar Partiyasının məğlubiyyətini proqnozlaşdırır.

**"The Washington Post":** Donald Tramp Tehranın nüvə sazişi ilə bağlı razılığa gəlməyi bacarmadığını yenidən bəyan edib. Tramp "Truth Social" platformasında dərc etdiyi paylaşımda İranın özünü ələ ala və "qeyri-nüvə sazişini necə imzalayacağını bilmədiyini" yazaraq ölkə hakimiyyətini "ən qısa zamanda ağıllanmağa" çağırıb. Paylaşımda Trampın hərbi əməliyyatlar fonunda təsvir olunduğu və üzərində "No more Mr. Nice Guy!" (yaxşı oğlan olmaq dövrü bitdi) yazısı olan fotoşəkil yer alıb.

**"Al Arabiya":** "ABŞ tərəflər arasında razılaşma əldə edilsə belə, İsrailin Livan ərazisinə zərbələri dayandırmasına zəmanət verməyə hazır deyil. Mümkün razılaşma Livan ərazisinin dərinliyinə zərbələrin dayandırılması ilə bağlı ABŞ-ın zəmanətlərini nəzərdə tutmur". Bununla yanaşı, telekanal iddia edir ki, İsrail Livan ərazisində təhlükə hesab etdiyi hədəflərə qarşı özünümüdafiə hüququnu özündə saxlamaq niyyətindədir.

**"The Wall Street Journal":** Donald Tramp İrana qarşı uzunmüddətli blokada planının hazırlanmasını əmr edib. ABŞ lideri bu yaxınlarda Tehrana iqtisadi təzyiqin daha da artırılması ideyasını dəstəkləyib. Buraya neft tankerləri də daxil olmaqla, İran gəmilərinin ölkə limanlarından çıxışını məhdudlaşdıra biləcək tədbirlər daxildir. İddia edilir ki, Vaşinqton blokadanı İrana zərbələrin bərpası və ya ABŞ-nin münaqişədən tamamilə çıxması ilə müqayisədə daha az riskli bir seçim kimi görür.

**"Nikkei":** Yaponiya hakimiyyəti Hörmüz boğazından keçən "İdemitsu Maru" tankerinə görə Tehrana pul ödəməyib. Gəminin keçidi hakimiyyət orqanları ilə Tehran arasında aparılan danışıqlar nəticəsində mümkün olub: "Bu, Yaponiya hökuməti tərəfindən aparılan danışıqların nəticəsidir. Biz tankerin keçidi üçün heç bir ödəniş etməmişik".



**"Hizbullah":** "Döyüşçülər Livanın cənubunda İsrailə məxsus "Hermes 900" pilotsuz uçuş aparatını vurub. Hərəkat bununla bağlı "Telegram"da bəyanat yayıb. Məlumata görə, İsrail Hərbi Hava Qüvvələrinin pilotsuz təyyarəsi Qantara bölgəsi üzərindən uçarkən yer-hava raketi ilə vurulub". "Hizbullah", həmçinin iddia edib ki, əvvəllər də eyni ərazidə İsrailin "Merkava" tankına hücum edilib.

**"Tasnim":** Rəsmi Tehran İran neftini daşıyan iki kommersiya gəmisini ələ keçirdikdən sonra ABŞ-ı təcavüzkarlıqda və dövlət piratçılığında ittiham edib. Bu barədə İranın BMT-dəki daimi nümayəndəsi Əmir Səid İrəvaninin Təhlükəsizlik Şurasına göndərdiyi məktubda bildirilir. Tehranın məlumatına görə, ABŞ tərəfi təxminən 3,8 milyon barel İran nefti daşıyan "Majestic" və "Tifani" gəmilərini ələ keçirib. Məktubda qeyd olunur ki, ABŞ-ın hərəkətləri beynəlxalq dənizçilik qanunlarını pozur, naviqasiya təhlükəsizliyini təhdid edir və regionda gərginliyi artırır.

**"Daily Mail":** ABŞ Prezidenti Donald Tramp bildirib ki, Böyük Britaniya Kralı III Çarlz İranın nüvə silahı əldə etməsinin yolverilməzliyi ilə bağlı Vaşinqtonun mövqeyini bölüşür. Tramp bunu Ağ Evdə Britaniya monarxı və kraliçasının şərəfinə təşkil edilən şam yeməyi zamanı söyləyib. Onun sözlərinə görə, ABŞ hazırda Yaxın Şərq üzərində işləyir və iddia etdiyi kimi, uğur qazanır: "Biz bu düşmənin nüvə silahı əldə etməsinə heç vaxt icazə verməyəcəyik. Karl bu məsələdə məndən daha çox razıdır". Lakin Kral III Çarlz cavabında İran və ya Yaxın Şərqdəki müharibədən danışmayıb. Agentlik qeyd edir ki, Britaniya monarxı Böyük Britaniya hökuməti adından danışmır. Trampın açıqlamasına şərh vermək istənildikdə, Vaşinqtondakı Britaniya səfirliyi agentliyi Bukinqem Sarayına yönləndirib.

**"Politico":** ABŞ-da demokrat qanunvericilər Prezident Donald Trampın 1 maydan sonra Konqresin açıq təsdiqi olmadan İrana qarşı hərbi əməliyyatları davam etdirməsi halında, ona qarşı hüquqi iddia qaldırılması imkanlarını nəzərdən keçirirlər. Müzakirələrin mərkəzində Tramp administrasiyasının hərbi səlahiyyətlərdən Konqresin nəzarəti xaricində istifadə edib-etmədiyi məsələsi dayanır. 1973-cü ildə qəbul olunmuş Müharibə Səlahiyyətləri Qətnaməsinə görə, ABŞ prezidenti xarici əməliyyatlara qoşun cəlb edildikdən sonra 48 saat ərzində Konqresi məlumatlandırmalıdır. Həmin sənəd qanunvericilərin razılığı olmadan silahlı qüvvələrin 60 günədək istifadə olunmasına icazə verir, zərurət yarandıqda isə bu müddət əlavə 30 gün uzadıla bilər. Sonuncu əlavə müddət yalnız qoşunların münaqişə zonasından təhlükəsiz çıxarılması məqsədilə tətbiq olunur. Donald Tramp 2 mart tarixində Konqresi İrana qarşı hərbi əməliyyatların başlanması barədə rəsmi qaydada məlumatlandırdığından, mövcud hüquqi çərçivəyə əsasən Ağ Evin əməliyyatı 1 maya qədər ayrıca qanunvericilik təsdiqi olmadan davam etdirmək imkanı mövcuddur. Məhz bu tarixdən sonrakı dövr Vaşinqtonda hüquqi və siyasi mübahisələrin əsas predmetinə çevrilir.

*Hazırladı:*
***N.BEYDİYEVA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 74 (31043) 30 aprel 2026-cı il, cümə axşamı

## İDMAN

### “Prezident kuboku 2026”nın ilk qalibləri



**Azərbaycan təmsilçiləri ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr edilən avarçəkmə və kanoe üzrə “Prezident kuboku 2026” beynəlxalq reqatasında ilk medalı qazanıb.**

Birnəfərlik kayakda Əlimurad Hacızadə gümüş mükafata sahib çıxıb. O, 2008-2009-cu il təvəllüdlü idmançıların mübarizəsində 200 metr məsafəni ikinci keçib. Özbəkistanlı Maksim İvliyev qızıl, almaniyalı Maarten Vulff bürünc medal qazanıb.

Qeyd edək ki, Gənclər və İdman Nazirliyi ilə Azərbaycan Su İdman Növləri Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən turnirdə Azərbaycanla yanaşı, Çexiya, Gürcüstan, Almaniya, Yunanıstan, Qazaxıstan, Qırğızıstan, Litva, Moldova, Rumıniya, Serbiya, İsveç, Tacikistan, Türkiyə, Ukrayna və Özbəkistandan 100-dən artıq idmançı iştirak edir. Reqata mayın 1-də başa çatacaq.

### UEFA Çempionlar Liqasında yarımfinal



**UEFA Çempionlar Liqasında yarımfinal mərhələsinə start verilib. “PSJ” Fransada Almaniyanın “Bavariya” komandası ilə qarşılaşıb. “Park de Prens” stadionunda reallaşan oyun fransızların qələbəsi ilə başa çatıb. Qarşılaşmanın 65 dəqiqəsinədək 5:2 hesabı ilə öndə olan PSJ böyük fərqlə üstünlüyünü qoruya bilməyib. Almaniya klubu daha 2 qol vuraraq hesab arasındakı fərqi azaldıb–5:4.**

Cavab görüşü mayın 6-da keçiriləcək.

Dünən axşam UEFA Çempionlar Liqasının yarımfinal mərhələsinin ikinci oyunu da baş tutub. İspaniyanın “Atletiko Madrid” komandası İngiltərənin “Arsenal” kollektivini qəbul edib. Bu komandalar arasında cavab matçı isə mayın 5-də oynanılacaq.

### 6 cüdoçumuz “Böyük dəbilqə”də



**Mayın 1-3-də Tacikistanın paytaxtı Düşənbədə keçiriləcək “Böyük dəbilqə” turnirində ölkəmizi təmsil edəcək cüdoçuların adları açıqlanıb.**

Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, yarışda kişilərdən ibarət yığmanın böyük məşqçiləri – Elçin İsmayılov və Slavko Tekiçin rəhbərliyi altında 4 çəki dərəcəsində 6 cüdoçu mübarizə aparacaq.

Heyətdə cüdoçularımızdan Murad Muradlı (60 kq), Nizami İmranov, İslam Rəhimov (hər ikisi 66 kq), Rəşid Məmmədəliyev (73 kq), Uşanqi Kokauri, Camal Qamzatxanov (hər ikisi +100 kq) yer alıblar.

Dünya Cüdo Turuna daxil olan “Böyük dəbilqə”də 34 ölkədən 248 idmançı qüvvəsini sınayacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

*✓ 2009-cu ildə Bakı şəhərinin Yasamal rayonunda yerləşən Eldar Məmmədov adına 21 nömrəli orta məktəb tərəfindən Məmmədova Lalə İmran qızının adına verilmiş orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.*

*✓ İqtisadi İnkişaf və Sosial Tədqiqatlar Mərkəzi İctimai Birliyinə məxsus nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə - VÖEN və dairəvi möhür itdiyi üçün etibarsız sayılır.*

*Ötənlərdən–keçənlərdən*

# Qönçəgül nənə və qırmızı yaylıqlı bayquş

**Özgəsinə quyu qazanın yolunda bir dərin quyu var. Bir gün özünün o dərin quyuya düşəcəyi şəksizdir. Başqasının haqqına girmək yaxşı iş deyil. İman və fəzilət sahibi olanlar başqasının haqqını tapdalamaz. Şərə, şeytana qulluq edənlərin aqibətini çox görmüşük. Rəbbimiz bələlərinin cəzasını sonda verir.**



O, Günəşli kəndinə gəlin gələndən tək bir ailənin deyil, bütöv bir nəslin yığvalına dərd düşdü. O dərdi hamıdan çox Qönçəgül nənə çəkirdi. Yaşı səksəni ötmüş, kirpiyi ilə od götürmüş Qönçəgül nənənin qonşuluğundakı “Qırmızı yaylıqlı ləçər” kimi tanınan gəlinlə yanaşı yaşadığı illərdə hansı məşəqqətlərlə üzləşdiyini bütün kənd bilirdi.

Ləçər qırmızı rənglə çox ərmağan idi. Qış, yaz, yay, payız – ilin bütün fəsillərində, hətta yasda da qırmızı geyinirdi. Elə sifəti də donu kimi qırmızı idi. Hamı o “Qırmızı yaylıqlı ləçər”dən uzaq durmağa çalışırdı.

... Onlar ayrı-ayrı əməl sahibləri idi. Doğrudan da:

**Kimi gəlir, bu dünyaya**
**Öz odundan nur verməyə.**
**Kimi gəlir, bu dünyada**
**Olanlara daş atmağa.**
**Kimi gəlir, bu dünyada**
**Yaratmağa, yaşatmağa.**

Qönçəgül nənənin övladları, nəvələri hər dəfə şəhərdən kəndə gələndə onu nə qədər dilə tuturdular, minnət edirdilər, yalvarırdılarsa, xeyri olmurdu. Deyirdilər gəl, səni öz yanımıza aparaq, bizimlə qal. Səni başımızın üstündə saxlayarıq. Qonşun pisdir, köç qurtar. Amma Qönçəgül nənə öz yurdundan köçsəydi, yer yerindən oynayardı. Deyirdi mənə yeddi oğul bəxş edən, ötən hərbdə “qara kağız”ı gələn bir igidin dam-daş qurduğu bu evdən onun ətrini alıram. Bu evdə, bu ocaqda onun ruhu dolaşır. O ruhu incitmək olmaz. Nə bu evdən, bu yurddan köçüb gedərəm, nə də atıb gedərəm. Məni bu cənnətməkan yurddan yalnız ölüm ayıra bilər.

Qurani-Kərimdə və digər səmavi kitablarda qeyd olunur ki, qiyamət günündə hər kəs əməlinə görə qiymətləndiriləcəkdir. Qönçəgül nənə El anası adını almış xanım-xatın, nur-ipək qadın idi. Bu ad onun nurlu çöhrəsinə yenicə açılan qönçə gül kimi yaraşırdı.

Qönçələr açılanda quşlar uzaqlardan uçub gəlirdi. Günəşli kəndində də qızlar, gəlinlər Qönçəgül nənənin işığına yığışırdı. Qızları görəndə sevinc göz yaşlarını saxlaya bilmirdi. Onun nurlu siması, sözü-söhbəti, öyüd nəsihəti gəlinlərin, qızların ömür yoluna nur çiləyirdi.

Qönçəgül nənəyə pənah gətirənlər, sanki, nurlu bir çırağın işığına yığışırdılar. O qədər cana yaxın, insana yaxın, şirindil nənə idi ki...

Neynəməli, Qönçəgül nənə indi həyatda yoxdur. Qara torpağın altında daim nur içində uyuyur. Sağlığında onu özünə həmdəm bilənlər indi onun ruhunu həmdəm bilirlər.

Ləyaqətli analar tərbiyəli övladlar böyüdür. Əlindən həzar edilən qadının xasiyyətinə və əməllərinə görə isə hamı nifrət edir. “Qırmızı yaylıqlı ləçər” əvvəl öz ərinin axırına çıxdı, sonra da məhbəs həyatı yaşayan iki oğlunun. Bayquş kimi yurdda ulaya-ulaya qaldı.

Qönçəgül nənə ağıllı, mərhəmətli yeddi oğul tərbiyə edib böyütmüşdü. Onlar analarını çox sevirdi. El-obada hamı onların xətrini istəyirdi. Yıxılanın qolundan qaldırar, imkansızlara imkanlarından pay verər, heç kimi incitməz, insanlarla mehriban rəftar edərdilər. Hətta paxıl qonşuya da dolayısı ilə əl tutardılar. Yenə də pis qonşu pisliyindən, Qönçəgül nənə və övladları isə yaxşılığından qalmırdı.

Ömrün-günün, həyatın ahəngi mehriban rəftarda gözəl olur. Qönçəgül nənənin oğlanları evləndilər, ailə qurdular, hərəsi bir yana pərvazlandı. Tək kiçik oğlu Qönçəgül nənənin yanında qalmışdı. O da ali təhsil almaq üçün kənddən-şəhərə köçdü. Bir bölük külfətin qəhrini çəkən ixtiyar ana həyətdəki ixtiyar ağacların kölgəsinə sığınıb qaldı.

Elə hey gözləri yol çəkirdi... Hələ də cəbhədən qara kağızı gələn ərinin yolunu gözləyirdi.

Qönçəgül nənə nur topası kimi, qaranlığın üstünə işıqla gedən ağbirçək idi. O, insanın həmişə yaxşı cəhətlərini görmək istəyirdi. Deyirdi ki, gərək qonşuluq münasibətində düşmənçilik yeli əsməsin. Düşmənçilik yeli pis olur, dağıdıcı olur. Bir gün də o düşmənçilik yeli “Qırmızı yaylıqlı ləçər”in öz evini yıxdı.

İndi də Günəşli kəndində deyirlər ki, Qönçəgül nənə heç vaxt günah etmədi. Əksinə, bədnam qonşu o yurda gəlin köçəndə xalça-palaz toxuyub ona cehizlik kimi hədiyyə verdi.

Doğrudan da hər ağızda bir dua var. Bir müdrik, yaşlı bir qadından soruşub ki, qarğışların hansı ən dəhşətlidir? Yaşlı qadının cavabı belə olub: “Dağılsın o ev ki, orada məsləhət verəcək bir qoca olmasın. Uçulsun o ev ki, orada məsləhəti yerinə yetirəcək bir cavan olmasın”.

Dünyagörmüş Qönçəgül nənə qohumluq və qonşuluq arasında mehriban rəftarı qoruyub saxlayırdı. O, mehriban qonşuluğa yabançı olan heç nəyə rəvac verməzdi. Yaxşı bilirdi ki, qohumu, qonşunu saya salmayan, hamı ilə pis rəftar edənin pisliyi özünə qalır.

Nəvə, nəticə ilə əhatə olunmuş müdrik Qönçəgül nənə öz şəxsi ləyaqətini daim qoruyub saxlayırdı. Xeyirdə, şərdə gərəkli olduğunu hiss edirdi. Bu, onun öz ovqatına da müsbət təsir göstərirdi.

Allahın verdiyi ömrü mənalı yaşamaq üçün gərək insanlıqdan uzaq düşməyəsən. Ruhunda mehribanlıq işığı olan insanların həyatında xoşbəxt anlar daha çox olur. Bir eldə hər kəsə ana olan Qönçəgül nənə sevə-sevə, sevilə-sevilə yaşadı. Bu dünyadan bəxtəvərlərin bəxtəvəri kimi köçdü.

...Qönçəgül nənənin nəvələri hər il yaydan-yaya o evə gəlir. Yenə o evdə həyat ətri, insan nəfəsi duyulur, körpə gülüşü eşidilir. O, bu gün həyatda olmasa da, həyatından yenə gül ətri gəlir, yenə qönçələr açılır.

*Həzi HƏSƏNLİ,*
*şair-publisist*

# 1600 illik mumiyanın “İliada” sevgisi

**Dünya mediasında yayılmış bir xəbər doğurduğu təəccüblə geniş əks-səda yaradıb. Barselona Universitetinin alimləri Misirdə 1600 il əvvələ aid mumiya məzarından həmin tarixdən 12 əsr qabaq yaşamış yunan şairi Homerin məşhur “İliada” poemasından bir hissənin yazıldığı papirus aşkar ediblər.**



Mumiyanın dəfn edildiyi IV əsrdə Misir Roma imperiyasının əyaləti olub. Yunan dilində yazılmış papirus mumiyanın qarın boşluğunda gizlədilib. İspan alimləri mumiyalarla bağlı belə hadisəyə ilk dəfə rast gəlindiyini bildiriblər.

Professor İqnasi-Xavyer Adieqo qeyd edib ki, arxeoloqlar hələ XIX əsrdə mumiyanın aşkar edildiyi Oksirinxus ərazisində məktub və ədəbi əsərlər də daxil olmaqla, yunan və latın mətnləri yazılmış minlərlə papirus tapıblar. Lakin mumiyanın içərisində ədəbi əsərin olması yeni tapıntıdır.

Alimlər mumiyaya məhz “İliada” mətninin niyə qoyulduğuna cavab axtarırlar. Mərhumun bu əsəri çox sevməsi ehtimal olunur. Məzara mis və qızıldan hazırlanmış dil fiqurlarının qoyulması isə mumiyanın axirətdə tanrılarla danışa bilməsi mənasına gəlir.

*XQ*

## “Bakıtikişsənaye” ASC səhmdarlarının nəzərinə!

13 iyun 2026-cı il saat 16.00-da cəmiyyətin səhmdarlarının növbəti illik ümumi yığıncağı Bakı şəhəri, Həsən Əliyev küçəsi 1008-ci məhəllədə keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** ASC-nin 2025-ci il üçün illik maliyyə hesabatı.

**2.** Dividendlərin verilməsi.

**3.** Sair məsələlər.

**Əlaqə telefonu:** *(012) 440-02-43.*

*Direktorlar şurası*

## “Elektrikməişətcihaz” ASC səhmdarlarının nəzərinə!

26 iyun 2026-cı il saat 11.00-da “Elektrikməişətcihaz” ASC səhmdarlarının növbəti ümumi yığınacağı keçiriləcəkdir.

**İclasın gündəliyi:**

**1.** 2024–2025-ci illərin mühasibat balansının və illik hesabatın təsdiqi.

**2.** Səhmdar cəmiyyətinin müşahidə (direktorlar) şurasının, idarə heyətinin və maliyyə-təftiş komissiyasının yeni üzvlərinin seçilməsi.

**3.** Digər cari məsələlərin müzakirəsi.

Ümumi yığıncaqda səhmdarların iştirakı məqsədəuyğundur.

**Ünvan:** Bakı şəhəri, Qaradağ rayonu, Lökbatan qəsəbəsi, Lökbatan–Xocasən yolunun 9-cu kilometri.

## “Bakı Tələbat Qabları” ASC səhmdarlarının nəzərinə!

13 iyun 2026-cı il saat 11:00-da “Bakı Tələbat Qabları” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** Cəmiyyətin illik fəaliyyətinin nəticələrinin təhlili və maliyyə hesabatının təsdiqi

**2.** Digər məsələ.

Ümumi yığıncaqda səhmdarların iştirakı vacibdir.

**Əlaqə telefonu:** 012-425-10-11

**Ünvan:** Bakı şəhəri, Bakıxanov qəs., Bəşir Bünyadov küçəsi 2578-ci məhəllə, 903-cü döngə

*“Bakı Tələbat Qabları” ASC-nin direktoru S.Kazımov*

## HAVA

# Paytaxtda yağış, dağlıq və dağətəyi rayonlarda yağış, dolu...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək.**



Havanın temperaturu gecə 9-11, gündüz 15-18 dərəcə isti olacaq. Atmosfer təzyiqi 764 millimetr civə sütunu, nisbi rütubət isə 55-65 faiz təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda qısamüddətli yağıntılı olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Ayrı-ayrı yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 7-10, gündüz 17-22, dağlarda gecə 2-7, gündüz 8-13 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

“Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov və redaksiyanın kollektivi yazıçı-dramaturq Hüseybala Mirələmova qayınanası

**ŞAHXANIM ŞİRİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3092
SİFARİŞ 544
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00